Hövzənin ən yüksək nöqtəsi ilə ən aşağı nöqtəsi arasındakı hündürlük fərqini ifadə edən hövzə relyefi (Bh) aşağıdakı kimi tərtib edilmişdir: $B_h = H_{max} - H_{min}$ (4).Hövzə relyefi mühüm morfometrik parametrlərdən biridir. Relyef dəyərlərinin artdığı ərazilər daha dik və daha yüksək yamaclara malikdir, bu halda axının yığılma müddəti azalır və daşqınlar daha yüksək olur. Bundan əlavə, hövzə relyefi hövzələrdə drenajın inkişafı, yerüstü və yeraltı su axınları, keçiricilik, torpaq səthlərinin inkişafı və eroziya fəaliyyəti baxımından mühüm rol oynayır. Tərtərçay hövzəsinin relyef əmsalı 2871m-dir. Hipometrik inteqral (Hi; hipsometrik indeks və ya hisoqrafik inteqral) hipsometrik əyrinin altındakı ümumi sahəni ifadə edir. Hövzənin ən aşağı, ən yüksək və orta yüksəklikləri Hi-nin hesablanmasında istifadə olunur ki, bu da hövzənin hipsometrik əyrisini xarakterizə etməyin ən asan yoludur və (3) düsturu ilə hesablanır. Düsturda H orta hövzə yüksəkliyidir; H_{min} hövzənin minimum yüksəkliyi, H_{max} hövzənin maksimum yüksəkliyidir. Hi dəyərini təyin etmək üçün istifadə olunan bu 3 dəyərin minimum və maksimum yüksəklikləri topoqrafik xəritələrdən və ya rəqəmsal yüksəklik modellərindən asanlıqla əldə edilə bilər. Orta yüksəklik median dəyər deyil, rəqəmsal yüksəklik modellərində histoqramlardan əldə edilə bilən orta yüksəklik dəyəridir.Tərtərçay hövzəsinin hisometrik inteqralı 0-a bərabərdir. Hövzə daxilində hündürlüyün paylanmasını göstərən hipsometrik əyri (hipsoqrafik əyri) eroziya prosesləri və hövzənin təkamülü haqqında mühüm dəlillər göstərir. İki əsas formaya malik olan hipsometrik əyrinin ən əsas forması dəqiq ölçülmüş ölçmələrdən istifadə etməklə müəyyən edilir. Bu formada ordinatda yüksəklik pillələri metrik olaraq çəkilərkən, absisdə verilmiş hündürlükdən yuxarı olan sahələr kvadrat metrlə çəkilir. Bu üsul məcmu əyri yaradır və hər bir nöqtə həmin yüksəklikdən yuxarı olan sahəni təmsil edir. Hipometrik əyrinin bu forması regionlar arasında eroziya fəaliyyətlərindəki fərqləri tədqiq edərkən bəzi çatışmazlıqları ortaya qoyur. Hipometrik əyri (2) düsturu ilə hesablanır və Tərtərçay hövzəsi üçün şəkil 4.-də göstərilmişdir. Hipsometrik əyri hövzənin fizioqrafik yaşı haqqında məlumat verir. Çuxur formalı əyriləri hövzənin xeyli eroziyaya uğradığını, qocalma mərhələsində olduğunu, çayların axınının və müvafiq olaraq eroziya gücünün azaldığını göstərir. Qabarıq formalı əyrilər hövzənin eroziya fazasının təzə başlanğıcında olduğunu, axınların yüksək və güclü eroziya gücünə malik olduğunu göstərir. Tərtərçay hövzəsinin hisoqrafik əyrisinin formasından da müəyyən etmək olar ki, ərazi cavan geoloji formaya malikdir və aşınma prosesinin başındadır.

Nəticə: Bu işdə Kəlbəcər rayonu Tərtərçay hövzəsi timsalında tədqiqat aparılmış,çaylara CİS metodları ilə 6 morfometrik analiz tətbiq edilmişdir. Yaradılan ədədi məlumatlara morfometrik analizlər tətbiq edilmiş və Tərtərçay hövzələrinin morfometrik xarakterləri aşkar edilmişdir. Belə ki,

- Kəlbəcər rayonunda ərazi baxımından çox müxtəlif hövzələr mövcuddur. Ən böyük hövzə Levçay hövzəsidir. Bu hövzədə çaylar yüksəklikdən düzən ərazilərə qədər uzanır.

- Tədqiqat sahəsindəki hövzələr müxtəlif həndəsi formalara malikdir. Tərkibində qısa hündür çaylar olan hövzələr ümumiyyətlə şaxəli görünüşə malik olmaqla yanaşı ərazini parçalamışdır. Bu vəziyyət hövzələrin sel yaradan xüsusiyyətlərini də ortaya qoyur. Uzunlamasına hövzələr ümumiyyətlə hövzənin mərkəzində daha çox gözə çarpır.

- Belə böyük bir ərazidə aparılan orta miqyaslı tədqiqatlarda, Rəqəmsal verilənlər bazası yaradarkən çox diqqətli olmaq lazımdır.Rəqəmsal Yüksəklik Modelinin ayırdetmə qabiliyyətinin artırılması daha dəqiq nəticələrə gətirib çıxarır. Bu səbəbdən həyata keçiriləcək tədqiqatlarda araşdırmanın əhatə dairəsi diqqətlə müəyyən edilməlidir.

- Bu tədqiqat gələcəkdə regional miqyaslı daşqınlar, tektonizm və səthi proseslərlə bağlı araşdırmalarda istifadə oluna və bütün rayonlar üzrə hövzələrin morfometrik inventarizasiyasının yaradılmasına faydalı ola bilər.

Ədəbiyyat:

Aadil Hamid, R. A. H. (2013). Application of morphometric analysis for geo-hydrological studies using geo-spatial technology a case study of vishav drainage basin. Hydrology: Current Research, 4(3), 1–12. http://dx.doi.org/10.4172/2157-7587.1000157

Ahmed, S. A., Chandrashekarappa, K. N., Raj, S. K., Nischitha, V., & Kavitha, G. (2010) Evaluation of morphometric parameters derived from ASTER and SRTM DEM a study on Bandihole sub-watershed basin in Karnataka. Journal of the Indian Society of Remote Sensing, 38(2), 227–238. http://dx.doi.org/10.1007/s12524-010-0029-3

Banerjee, A., Singh, P., Pratap, K., (2017). Morphometric evaluation of Swarnrekha watershed, Madhya Pradesh, India: An integrated GISbased approach. Applied Water Science, 7(4): 1807-1815.

Dursun, İ., Babalık, A.A., (2023).Burdur Gölü Havzasındaki morfometrik parametrelerin ve erozyon durumunun değerlendirilmesi. Turkish Journal of Forestry, 24(1): 25-38.DOI: 10.18182/tjf.1205157

Elbaşı, E., Özdemir, H. (2018). Marmara denizi akarsu havzalarının morfometrik analizi. Cografya Dergisi, 36, 63-84.https://doi.org/10.26650/JGEOG418790

Özdemir, H., (2011). Havza morfometrisi ve taşkınlar, fiziki coğrafya araştırmaları. Sistematik ve Bölgesel (Ed., Ekinci, D.), Türk Coğrafya Kurumu Yayınları, İstanbul, s. 507–526

Strahler, A. (1952). Dynamic basis of geomorphology. Geological Society of America Bulletin, 63, 923–938.

Müseyibov M.A. Bakı. (1998). Azərbaycanın fiziki coğrafiyası. Maarif nəşriyyatı., 400 səh.

Yunus, A. P., Oguchi, T., & Hayakawa, Y. S. (2014). Morphometric analysis of drainage basins in the western arabian peninsula using multivariate statistics. International Journal of Geosciences, 5(5), 527–539.

EFFECT OF ZnO NANOPARTICLES ON THE FLUORESCENCE PARAMETERS OF CHLOROPHYLL PIGMENT IN PEA LEAVES UNDER DROUGHT

Babanli Safiyakhanim Tofig

Baku State University

http://orcid.org/0009-0004-6290-3237

babanli-analitik@mail.ru

Rəyçi:

Baxşəliyeva Könül Fərrux qızı,

Biologiya elmləri doktoru, professor

Summary

The mechanism by which nanoparticles are involved in drought tolerance responses in plants is complex and requires further investigation. In this study, pea plants were grown in plastic pots and subjected to drought conditions for 12 days. In this study, chlorophyll fluorescence analysis was carried out in the leaves of pea plant during drought stress. Using the F_{684}/F_{730} chlorophyll fluorescence ratio is interesting. The results obtained by this method allow to detect the disturbances occurring in the photosynthesis process with sufficient accuracy. By recording chlorophyll fluorescence, it is possible to control photosynthetic activity in plant leaves in vivo, detect physiological processes occurring at all stages of their development, morphological changes occurring during ontogenesis, including the effects caused by abiotic and biotic stress factors by fluorimetric methods. The effect of ZnO nanoparticles on fluorescence parameters of chlorophyll pigment was studied in plants cultivated under drought and normal conditions. ZnO nanoparticles increase the amount of chlorophyll in the initial stages of development, change the fluorescence parameters and increase the resistance of plant seedlings to drought stress.

Keywords: nanoparticle , drought stress , pea leaves , fluorescence spectra , F_{684}/F_{730} ratio.

ВЛИЯНИЕ НАНОЧАСТИЦ ZnO НА ПАРАМЕТРЫ ФЛУОРЕСЦЕНЦИИ ХЛОРОФИЛЛОВОГО ПИГМЕНТА В ЛИСТЬЯХ ГОРОХА В УСЛОВИЯХ ЗАСУХИ

Бабанлы Сафияханим Тофик

Бакинский государственный университет

http://orcid.org/0009-0004-6290-3237

babanli-analitik@mail.ru

Резюме

Механизм, посредством которого наночастицы участвуют в реакции растений на устойчивость к засухе, сложен и требует дальнейшего изучения. В этом исследовании растения гороха выращивали в пластиковых горшках и подвергали засухе в течение 12 дней. В этом исследовании был проведен анализ флуоресценции хлорофилла в листьях растений гороха во время стресса засухи. Интересно использовать соотношение флуоресценции хлорофилла F_{684}/F_{730}. Результаты, полученные этим методом, позволяют с достаточной точностью обнаружить нарушения, происходящие в процессе фотосинтеза. Регистрируя флуоресценцию хлорофилла, можно управлять фотосинтетической активностью в листьях растений in vivo, обнаруживать флуориметрическими методами физиологические процессы, происходящие на всех стадиях их развития, морфологические изменения, происходящие в онтогенезе, в том числе эффекты, вызванные абиотическими и биотическими стрессовыми факторами. Изучено влияние наночастиц ZnO на параметры флуоресценции пигмента хлорофилла у растений, выращиваемых в засушливых и обычных условиях. Наночастицы ZnO увеличивают количество хлорофилла на начальных стадиях развития, изменяют параметры флуоресценции и повышают устойчивость рассады растений к засушливому стрессу.

Ключевые слова: наночастица, стресс засухи, листья гороха, спектры флуоресценции, соотношение F_{684}/F_{730}.

ZnO NANOHİSSƏCİKLƏRİNİN QURAQLIQ STRESİ ALTINDA NOXUD BİTKİSİNİN YARPAQLARINDA XLOROFİL PİQMENTİNİN FLÜORESSENSİYA PARAMETRLƏRİNƏ TƏSİRİ

Babanlı Səfiyəxanım Tofiq

Bakı Dövlət Universiteti

http://orcid.org/0009-0004-6290-3237

babanli-analitik@mail.ru

Giriş

Quraqlıq stresi bitkilərdə ciddi morfoloji, fizioloji, biokimyəvi və molekulyar dəyişikliklər yaradır, yarpaqlarda fotosintez prosesinin intensivliyini və xlorofil tərkibini azaldır. Quraqlıq stresinin öhdəsindən gəlmək üçün bitkilərdə fizioloji və biokimyəvi reaksiyalar da daxil olmaqla müxtəlif mürəkkəb müqavimət və uyğunlaşma mexanizmləri inkişaf etmişdir. Son zamanlar nanotexnologiyanın intensiv inkişafı ilə əlaqədar bitkilərin stres amillərə davamlılığının yaxşılaşdırılmasında nanohissəciklərin roluna dair tədqiqatlara xüsusi diqqət ayrılmaqdadır. Bu nanohissəciklərdən ən mühümü ZnO, Fe_2O_3, CuO, MnO, TiO_2 və s. metal əsaslı nanohissəciklərdir. Hal-hazırda bu nanohissəciklərdən daha çox öyrənilən ZnO nanohissəcikləridir. Sink elementi həm bitkilər və həm də heyvanlar üçün vacib mikroelementlərdən biridir. Aydınlaşdırılmışdır ki, sink çatışmazlığı bitkilərin məhsuldarlığını, məhsulun keyfiyyətini aşağı salır (Sarwar, 2011). Sink mühüm bioloji molekulların zülalların, lipidlərin və karbohidratların sintezində, xlorofilin əmələ gəlməsində mühüm rol oynayır, fermentlərin aktivliyində (DNT və RNT polimeraza) və hormonların sintezində fəal iştirak edir. Bitkilərdə sink çatışmazlığı zamanı xloroz baş verir və xallı yarpaqlar müşahidə olunur, anormal köklər əmələ gəlir (Marschner, 1995). Odur ki, Zn elementinin bu mühüm effektlərini nəzərə alaraq, onun nano ölçülərinin bitkilərin inkişafına, məhsuldarlığına və məhsulun keyfiyyətinə təsiri ilə bağlı təcrübələrə maraq xeyli artmışdır. Təcrübələrdə ZnO nanohissəcikləri çovdarın (Lin və Xing, 2008), qarğıdalının (Zhao və digərləri, 2013a), balqabaqların (Stampoulis və digərləri, 2009), Arabidopsisin (Lee və digərləri, 2010) böyüməsinə mənfi təsir göstərdiyi aşkar edilmişdir. Buğda, düyü, qarabaşaq yarması, xiyar, soya, yaşıl noxud bitkilərində dozadan asılı olaraq müsbət effektlər alınmışdır. Məsələn, Lin və Xingin (2008) eksperimental nəticələri göstərdi ki, ZnO nanohissəcikləri çovdar, turpda kök uzanmasına təsir göstərir. Arabidopsis ilə aparılan təcrübələr ZnO nanohissəciklərinin yaratdığı genlərin əksəriyyətinin həm abiotik, həm də biotik stimullar da daxil olmaqla, stress reaksiyalarına cavabdeh olan ontoloji qruplarda olduğunu göstərmişdir (Landa et al., 2012).

ZnO nanohissəcikləri bitkilərdə stress faktorlarının təsirinin azaldılmasında və bitkilərin stres faktorlarına dözümlülüyünün artırılmasında öz rolunu sübut etmişdir. Məsələn, Foroutan və onun həmkarları (2019) tərəfindən Moringa pereqrin ağacının yarpaqları ilə apardıqları təcrübələrin nəticələri göstərdi ki, yarpaqlara ZnO nanohissəcikləri tətbiq edildikdə ağacların quraqlığa davamlılığı artır. ZnO nanohissəcikləri xlorofilin parçalanmasını ləngidir və antioksidantların aktivliyini artırır (Foroutan et al., 2019). Müəyyən edilmişdir ki, NaCl (150 mM) duzu ilə stresə məruz qalmış pomidor şitillərinin yarpaqlarına ZnO nanohissəciklərinin dispersiya məhlulunun tətbiqindən 15 gün sonra səpilməsi tumurcuq və kök uzunluğunu, biokütləni, yarpaq səthinin

sahəsini, xlorofil tərkibini və fotosintez xüsusiyyətlərini xeyli artırmışdır. Həmçinin, duz stresi hem zülal tərkibini və peroksidaza (POX), superoksid dismutaz (SOD) və katalaza (CAT) kimi antioksidant fermentlərin aktivliyini artırır (Faizan et al., 2021). Son illərin tədqiqatlarının nəticələrini nəzərə alaraq təcrübələrimizdə ZnO nanohissəciklərinin hansı hallarda bitkilərin quraqlıq stresinə dözümlülüyünü artırdığını və onların bitkilərdə hansı fizioloji və morfoloji dəyişikliklərə səbəb olduğunu aydınlaşdırmağa cəhd edilmişdir.

Material və Metodlar

Təcrübələrdə tədqiqat obyekti olaraq Sultan noxud (Cicer arietinum L.) sortundan istifadə edilmişdir. Normal suvarma şəraitində Sultan noxud bitkisinin hündürlüyü 50-55 sm, 100 dənənin çəkisi 37-40 q, potensial məhsuldarlığı 19-20 s/ha, dənlərində zülalın miqdarı 21,5%, yağlılığı 7,63%, nişastalı 60%-ə qədər olur, vitaminlər, mineral elementlər, şəkərlər və əvəzolunmaz amin turşuları ilə zəngindir. Bu noxud sortu xəstəliyə, quraqlığa və soyuğa davamlıdır.

Təcrübəmizdə istifadə etdiyimiz toz halında olan ZnO nanohissəcikləri Sky Spring Nanomaterials, Inc (USA) şirkəti tərəfindən fiziki üsulla sintez edilmişdir. Hissəciklərin orta ölçüsü 10-30 nm, təmizliyi 99.9% və səth sahəsi > 80 (m^2/q) olmuşdur.

Sağlam noxud toxumları ilkin olaraq 70% etanol ilə sterilizasiya edilib, sonra üç dəfə distillə suyunda yuyulub. Toxumlar qurudulduqdan sonra ZnO nanohissəciklərinin tozu ilə işlənmişdir (örtülmüşdür). Sonra toxumlar quraqlıq təcrübələrinin şərtlərinə görə 4 variantda vegetasiya qablarında münbit torpaqda əkilmişdir. 2 variant (suvarılan və suvarılan+ZnO nanohissəcikləri), 2 variant isə (quraqlıq, quraqlıq+ZnO nanohissəcikləri) olmuşdur. Normal suvarma variantları hər gün, quraqlıq varıantları isə 5 gündən bir 150 ml olmaqla suvarılmışdır.

Xlorofilin flüoressensiya spektrləri (XlF) Varian Cary Eclipse Flüoressensiya Spektrofotometrindən istifadə etməklə çəkilmişdir. Cihazın yüksək skanetmə sürəti 3 dəqiqə ərzində tam spektri əldə etməyə imkan verir. Yarpaqlar üçün həyəcanlandırma (excitation) dalğa uzunluğu 457 nm götürülmüş, emissiya (emicition) spektrləri isə 250-800 nm intervalında çəkilmişdir.

Təcrübələr və nəticələr

Normal fizioloji şəraitdə xlorofil flüoressensiyası FS II kompleksinin (90%) buraxdığı enerjidir (Govindjee, 1995). FS I kompleksi çox az flüoressensiya edir. Təcrübələrdə xlorofilin miqdarının göstəriciləri kimi F_{689}/F_{740} nisbətləri götürülmüşdür. F_{684}/F_{730} nisbəti ilə xlorofillərin miqdarı arasında əks əlaqə olduğu müəyyən edilmişdir (Hak et al. 1990). Flüoressensiya spektrlərini tərtib etməklə və bu nisbətlərin maksimumlarını hesablamaqla bitki yarpaqlarında xlorofillərin miqdarının dəyişməsi kinetikasına stress amillərin təsirini aydınlaşdırmaq olur.

İn vivo yarpaqlarda otaq temperaturunda xlorofilin flüoressensiya spektrində iki maksimum müşahidə olunur: Fotosistem II (FS II) tərəfindən şüalanan qırmızı sahədə dalğa uzunluğu 684 nm, ikincisi isə uzaq qırmızı sahədə 730 nm, fotosistem I (FS I) ilə şüalanır. Təcrübələrdə xlorofilin miqdarının dəyişməsini göstərmək üçün F_{684}/F_{730} nisbətindəki dəyişiklik götürülüb. Odur ki, həm suvarılan, həm də quraqlıq şəraitində yetişdirilən ZnO nanohissəcikləri ilə işlənmiş noxud cücərtilərinin yarpaqlarının flüoressensiya spektri müqayisə edilmişdir. Şəkil 1-də normal suvarma şəraitində (A,C) və quraqlıq stresi zamanı (B,D) ZnO nanohissəcikləri ilə işlənmiş toxumların cücərtilərinin yarpaqlarının flüoressensiya spektrləri verilmişdir. Bitkilər nəzarət variantında hər

gün 150 ml olmaqla suvarılmış , quraqlıq variantında isə hər 5 gündən bir su verilmişdir. Spektrlər 13 günlük (Şəkil 1 A və B) və 19 günlük cücərtilərdən götürülmüş yarpaqlarda qeydə alınmışdır.



Şəkil 1. ZnO nanohissəciklərinin xlorofil flüoressensiyasına normal suvarma şəraitində (A,C) və quraqlıq stresi altında (B,D) təsiri: 13-cü gün (A, B), və 16-cı gün (C,D)



Şəkil 2. Xlorofil flüoressensiyasının spektrlərinin F_{684}/F_{730} nisbətindəki vaxtdan asılı dəyişikliklər

Şəkil 2-də təqdim olunan nəticələrdə, su stresi altında olan nümunələr üçün və ZnO nanohissəciklərinin təsiri zamanı F_{684}/F_{730} nisbətinin dəyişiklikləri verilmişdir. F_{684}/F_{730} nisbəti quraqlıq stresi altında olan nümunələr üçün təcrübənin ilk 10 günü ərzində təxminən 18% azalır. ZnO nanohissəcikləri az da olsa bu azalmanı aradan qaldırır. Su stresinin mümkün səbəblərindən biri fotosintezin səmərəliliyinin pozulduğundandır. Digər mümkün səbəb, yarpaq suyunun azalması səbəbindən suyun xlorofil flüoressensiyasının söndürmə təsirinin azalmasıdır (Chappelle et aı., 1984).

Nəticə

Bitkilərin məruz qaldığı stress hallarını izləmək üçün yarpaqların xlorofil tərkibində baş verən dəyişikliklərin dəqiq göstərici olan F_{684}/F_{730} xlorofil flüoressensiya nisbətindən istifadə maraqlıdır. Bu üsulla alınan nəticələr kifayət qədər dəqiqliklə fotosintez prosesində baş verən pozuntuları aşkar etməyə imkan verir. Xlorofil flüoressensiyasını qeyd etməklə bitki yarpaqlarında in vivo fotosintetik aktivliyə nəzarət etmək, onların inkişafının bütün mərhələlərində baş verən fizioloji

prosesləri, ontogenez zamanı baş verən morfoloji dəyişiklikləri, o cümlədən abiotik və biotik stress faktorlarının yaratdığı təsirləri flüorimetrik üsullarla aşkar etmək olur. ZnO nanohissəciklərinin fotosintez prosesinə təsiri az öyrənildiyi üçün bu məsələ aktual olaraq qalır. Tədqiqatlar göstərmişdir ki, ZnO nanohissəcikləri bitkilər üzərində həm müsbət, həm də mənfi təsirlər yaradır. Təcrübələrimizin nəticələri göstərir ki, ZnO nanohissəcikləri normal şəraitdə və su stresində böyüyən bitkilərin inkişaf mərhələsində fotosintez prosesinin aktivliyinə ciddi təsir göstərir. Bu təsir yarpaqlarda xlorofil piqmentinin sintezi ilə bağlıdır. ZnO nanohissəcikləri ilkin inkişaf mərhələlərində xlorofilin miqdarını artıraraq bitki cücərtilərinin su stresinə dözümlülüyünü artırır.

Ədəbiyyat:

Hak R., Lichtenthaler H. K., Rinderle U. (1990) Decrease of the chlorophyll fluorescence ratio F690/F730 during greening and development of leaves // Radiation and environmental biophysics 29:4, 329 336.

Faizan, M., Bhat, J. A., Chen, C., Alyemeni, M. N., Wijaya, L., Ahmad, P., & Yu, F. (2021). Zinc oxide nanoparticles (ZnO-NPs) induce salt tolerance by improving the antioxidant system and photosynthetic machinery in tomato. Plant Physiology and Biochemistry, 161, 122–130. doi:10.1016/j.plaphy.2021.02.002

Foroutan L, Solouki M, Abdossi V, Fakheri BA, Mahdinezhad N et al. (2019). The effects of zinc oxide nanoparticles on drought stress in Moringa peregrina populations . Int J Basic Sci Med. 4(3):119 127. doi:10.15171/ ijbms.2019.22.

Govindjee (1995), Aust. J. Plant Physiol., 22, 131.

Landa, P., Vankova, R., Andrlova, J., Hodek, J., Marsik, P. et al. (2012). Nanoparticle-specific changes in Arabidopsis thaliana gene expression after exposure to ZnO, TiO2, and fullerene soot. - J. Hazard. Mater. 241-242: 55-62, 2012.

Lee, S., Kim, S., Kim, S., Lee, I. (2013). Assessment of phytotoxicity of ZnO NPs on a medicinal plant, Fagopyrum esculentum. - Environ. Sci. Pollut. Res. 20: 848-854.

Lin, D., Xing, B. (2008). Root uptake and phytotoxicity of ZnO nanoparticles. - Environ. Sci. Technol. 42: 5580-5585.

Marschner H. (1995). Mineral nutrition of higher plant, 2nd edn. London, UK: Acadamic Press. Soetan KO,Olaiya CO, Oyewole OE. 2010 The importance of mineral elements for humans, domestic animals and plants: a review. Afr. J. Food Sci. 4, 200–222.

Sarwar M. (2011). Effects of zinc fertilizer application on the incidence of rice stem borers (Scirpophaga species)(Lepidoptera: Pyralidae) in rice (Oryza sativa L. crop). J. Cereals and Oilseeds 2, 61–65

Stampoulis, D., Sinha, S.K., White, J.C. (2013). Assay-dependent phytotoxicity of nanoparticles to plants. - Environ. Sci. Technol. 43: 9473-9479, 2009.

Zhao, L., Hernandez-Viezcas, J.A., Perlata-Videa, J.R., Bandyopadhyay, S., Peng, B. et al. (2013a). ZnO nanoparticle fate in soil and zinc bioaccumulation in corn plants (Zea mays) influenced by alginate. - Environ. Sci. Process. Impact. 15: 260-266.

A STUDY OF EFFECT OF STRUCTURAL CHANGES IN WATERED AND SANDY OILS ON RHEOLOGICAL PROPERTIES OF THE MIXTURE IN THE SAMPLE OF MURADKHANLY OIL

Hajizada Suleyman Gunduz

Azerbaijan State Oil and Industry University

https://orcid.org/0000-0003-4604-9339

suleymanhajizade@gmail.com

Rəyçi:

İmanov Elmar Vaqif oğlu,

Kimya üzrə fəlsəfə doktoru, dosent

Summary

Experience has shown that the rate of watercut increases in produced oils at the final stages of exploitation of the reservoirs. Besides, oil extracted from the reservoir rock layer brings sand and other solid particles with it. The multicomponent mixture that occurs when high-viscous sandy oils are watered shows different rheological properties. Such mixtures are called non-Newton or anomalous liquids because they do not conform to Newton's law. Technological problems that arise when such liquids are stored amd transported are now considered relevant. In this thesis the rheological properties of liquids and the effect of sand percentage on rheophysical behavior have been studied by the example of 70% watered rate "Muradkhanli" oil in various sand percentages. Determining what kind of rheophysical behavior the mixture will show is of exceptional importance to the proper selection of pipeline work regimes and to address important issues such as increasing the efficiency of the technological process during transportation.

Key words: oil mixtures, sand percentage, viscosity, shear rate, rheological properties

ИССЛЕДОВАНИЕ ВЛИЯНИЯ СТРУКТУРНЫХ ИЗМЕНЕНИЙ ОБВОДНЕННЫХ И ПЕСЧАНЫХ НЕФТЕЙ НА РЕОЛОГИЧЕСКИЕ СВОЙСТВА СМЕСИ НА ПРИМЕРЕ НЕФТИ МУРАДХАНЛЫ

Гаджизаде Сулейман Гюндюз

Азербайджанский государственный университет нефти и промышленности

https://orcid.org/0000-0003-4604-9339

suleymanhajizade@gmail.com

Резюме

Опыт показывает, что на заключительных стадиях эксплуатации месторождений уровень обводненности добываемой нефти возрастает. Кроме того, нефть, извлекаемая из пластов, приносит с собой песок и другие твердые частицы. Многокомпонентная смесь, образующаяся при обводнении высоковязких песчаных нефтей, проявляет различные реологические свойства. Такие смеси называются неньютоновскими или аномальными жидкостями, так как они не подчиняются закону Ньютона. В настоящее время актуальными считаются технологические проблемы, возникающие при хранении и транспортировке таких жидкостей. В данной работе изучены реологические свойства жидкостей и влияние процента содержания песка на реофизическое поведение на примере нефти Мурадханлы с 70%-ной обводненностью при различных процентных содержаниях песка. Определение типа реофизического поведения смеси имеет исключительное значение для правильного выбора режимов работы трубопровода и решения важных задач, таких как повышение эффективности технологического процесса при транспортировке.

Ключевые слова: нефтяные смеси, процентное содержание песка, вязкость, скорость сдвига, реологические свойства.

MURADXANLI NEFTİ NÜMUNƏSİNDƏ SULAŞMIŞ VƏ QUMLU NEFTLƏRDƏ STRUKTUR ÇEVRİLMƏLƏRİNİN QARIŞIĞIN REOLOJİ XÜSUSİYYƏTLƏRİNƏ TƏSİRİNİN TƏDQİQİ

Hacızadə Süleyman Gündüz

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

https://orcid.org/0000-0003-4604-9339

suleymanhajizade@gmail.com

Bəzi yataqlardan çıxarılan xam neftlər təmiz şəkildə deyil, qumlu və sulaşmış vəziyyətdə olurlar. Neftdə qumluluq faizi və sulaşma dərəcəsi isə neftin reofiziki xüsusiyyətlərinə birbaşa təsir edir. Bu tip neft qarışıqlarına adətən multikomponentli və multifazalı qarışıq kimi baxılır (neft-su-qum). Qarışığın tərkibindəki komponentlərin nisbətinin dəyişməsi ilk öncə onun özlülüyünün və sıxlığının dəyişməsinə səbəb olur. Belə qarışıqların boru kəmərində hərəkəti zamanı faza çevrilmələri baş verməklə yanaşı, qarışığın anomal reofiziki xüsusiyyətlər göstərməsi də müşahidə oluna bilir ki, bu da nəql rejiminin, o cümlədən, neftin emal və saxlanılması rejiminin dəyişməsinə gətirib çıxara bilər. (Гумбатов, 1996) Buna görə də belə mürəkkəb qarışıqların reofiziki xüsusiyyətlərini öyrənilməsi çox vacibdir.

Mayelər özlülüyün sürət qradiyentindən asılılığının xətti və qeyri-xətti olmasına əsasən Nyuton və qeyri-Nyuton mayelərə bölünürlər. Mayelərin xüsusiyyətləri axma əyriləri və ya reoqramlarla izah edilir. Reoqram hərəkətdə olan mayenin toxunma gərginliyinin, onun sürət qradiyentindən asılı olaraq dəyişməsini göstərir. Sürüşmə gərginliyinin sürət qradiyentindən düz asılı olması qanununa tabe olan mayelər Nyuton mayelər adlanırlar. Bu asılılıqdan istənilən yayınma göstərən digər mayeləri isə qeyri-Nyuton mayelər adlandırırlar. Qeyri-Nyuton mayelər daha çox iki cür davranış göstrərirlər: sürət qradiyentinin artması ilə özlülüyün azalması və artması. (Barners, Hutton, Walters, 1989)

Cədvəl. Müxtəlif qumluluq faizində neftin reoloji parametrləri ($\dot{\gamma}$ və τ) (β_{su}=70%)

$\dot{\gamma}$, 1/s	τ , Pa			
0,33	2,11	5,9	3,37	2,53
0,6	3,79	8,43	4,64	3,79
1	4,64	11,8	5,9	5,48
1,8	6,32	16,86	7,17	7,59
3	9,27	23,6	9,27	8,85
5,4	13,49	33,72	14,33	11,8
9	20,23	42,99	21,08	16,86
16,2	32,03	58,17	31,19	25,29
27	46,37	75,87	44,68	38,78

48,6	70,81	91,68	65,75	54,8
81	91,68	113,14	80,22	72,5
145,8	129,88	139,88	103,14	91,68
	0	0,5	1	1,5
	Qumluluq, %-lə (kütlə)			

Bu davranışları daha yaxından müşahidə etmək üçün Muradxanlı yatağından götürülmüş yüksəközlülüklü neftin 70% sulaşma dərəcəsində reoloji xüsusiyyətləri araşdırılmışdır. Tədqiq etdiyimiz nümunənin τ və $\dot{\gamma}$ kimi reoloji parametrləri müxtəlif qumluluq faizində laboratoriya şəraitində müəyyən edilmişdir.

Əldə edilən nəticələr cədvəl 1-də verilmişdir. Həmin nəticələr əsasında nümunənin sürət qradiyentinin sürüşmə gərginliyindən asılılıq əyrilərini müxtəlif qumluluq faizlərində quraraq, $\tau=\tau(\dot{\gamma})$ əyrisinin hansı reoloji sistemə uyğun olduğunu müəyyən etmək olar. Müxtəlif qumluluq faizlərində sürət qradiyentinin sürüşmə gərginliyindən asılılıq əyriləri Şəkildə göstərilmişdir. Şəkil 1-dən göründüyü kimi, axma əyriləri monotondur və qumluluq %-dən asılı olaraq artıb-azala bilir. Bundan başqa, süərt qradiyentinin artması ilə sürüşmə gərginliyinin də artması müşahidə olunur. Buna əsasən, nümunənin psevodplastik xüsusiyyət göstərdiyini deyə bilərik. Tədqiq etdiyimiz nümunə yüksəközlü, qumlu və sulaşmış olduğundan bu komponentlərdə reofiziki xüsusiyyətlər ilkin komponentlərin xüsusiyyətindən kəskin formada fərqlənir. (İsmayılov, 2020)



Şəkil. Sürüşmə gərginliyinin sürət qradiyentindən asılılığı (β_{su}=70%)

Burada nümunənin gözləniləndən fərqli davranış halı da baş verir. Sürət qradiyentinin eyni qiymətində sürüşmə gərginliyinin artma qanunauyğunluğu qumluluq faizinin artmasına analoji olaraq artmır.

Əyrilərdən göründüyü kimi, nümunənin istər qumsuz, istərsə də qumlu halında sürət qradiyentinin qiyməti ilə yanaşı, sürüşmə gərginliyinin qiyməti də artır. Qumsuz və 0,5% qumluluq faizində sürüşmə gərginliyinin qiymətlərini müqayisə etsək, görərik ki, qumsuz qarışığa nisbətən

0,5% qumlu neft-su qarışığında sürüşmə gərginliyinin qiyməti eyni sürət qradiyentində daha da artmışdır. Lakin, qumun qatılığı artdıqca, sürüşmə gərginliyinin qiymətinin azaldığı müşahidə edilir. Belə ki, sürət qradiyentinin eyni həddində sürüşmə gərginliyi ən az qiymətini 1,5% qumluluq faizində alır. Bu anomallığın struktur çevrilmələri və faza çevrilmələri zamanı qum hissəciklərinin qatılığının artması ilə sistemdə yaranan yeni strukturun əmələgəlməsi ilə əlaqələndirmək olar. (Zeynalova, 2020)

Psevdoplastiklik və dilatantlıq, adətən texnoloji proseslərdə arzuolunmaz bir haldır və əgər bu davranış nəzərə alınmazsa, texnoloji sistemdə problemlərə və hətta avadanlıqların sıradan çıxmasına səbəb ola bilər. Sulaşmış yüksəközlü neftlərin qumluluq faizindən asılı olaraq reoloji xüsusiyyətlərinin mürəkkəb dəyişiklikləri və belə qarışıqlarda faza çevrilmələri hələlik çox az öyrənilmişdir. Belə qarışıqların dilatantlıq xüsusiyyətləri sərgiləməsi neftin nəqli və saxlanılması proseslərində mürəkkəbləşmələr yaradır. Multikomponentli qarışıqların nəqli və saxlanması zamanı yaranan problemlərin bir çoxu hələ də öz həllini tapmamışdır. Muradxanlı neftinin timsalında müəyyən olunmuşdur ki, neft-su-qum qarışığında baş verən mikroskopik struktur çevrilmələri qarışığın reoloji xüsusiyyətlərinin dəyişməsinə əhəmiyyətli təsir göstərir. Bu xüsusiyyətlərin dəyişməsi qarışığın xüsusilə axın zamanı bir sıra gözlənilməyən hərəkət rejimlərinin yaranmasına səbəb olur.

Ədəbiyyat:

Barners H.A., Hutton J.F., Walters K.F.R.S. (1989). An introduction to Rheology.

İsmayılov Q.Q. (2020). Neftqazçıxarmada multifazalı texnologiyalar // Azərbaycan neft təsərrüfatı, №11, s. 42-45

Zeynalova G.A. (2020). Neft emulsiyalarının yığım və nəqlinin hidravlik xüsusiyyətlərinin qiymətləndirilməsi // Azərbaycan neft təsərrüfatı, №9, s. 46-50.

Гумбатов Г.Г. (1996). Изучение процесса сбора, транспорта и подготовки нефтей в условиях морских месторождений Азербайджана. – Баку: Элм, 240 с.

SYNTHESIS OF 1-METHYL-3-METHOXYHEXAMETHYLENIMINOCYCLOHEXANE AND STUDY OF ITS PROPERTIES AS AN ANTIMICROBIAL ADDITIVE TO OILS AND FUEL

Ismayilova Samira Vagif

akad. Y.H.Mammadaliyev's Institute of petrochemical processes

https://orcid.org/0000-0001-7399-5510

ismayilova_s_ch@mail.ru

Rəyçi:

İmanov Elmar Vaqif oğlu,

Kimya üzrə fəlsəfə doktoru, dosent

Summary

1-Methyl-3-methoxyhexamethyleniminocyclohexane was synthesized based on three-component Mannich condensation between methylcyclohexanol, formaldehyde and hexamethyleneimine. Physico-chemical indices of the obtained compounds were determined. The structure and composition of the received products was confirmed by IR, ^{1}H and ^{13}C NMR spectroscopy and elemental analysis methods. 1-Methyl-3-methoxyhexamethyleniminocyclohexane was tested as an antimicrobial additive. Tests were conducted in 3 concentrations - 0.25, 0.5 and 1.0% T-22 oil and AI-95 brand fuel. The effectiveness of the studied samples as an antimicrobial additive against microorganisms was evaluated based on the diameter of the zone of destruction of microorganisms. The synthesized compound in T-22 oil had a bactericidal effect of 2.8-3.0 cm and a fungicidal effect of 2.0-2.2 cm, respectively, at a concentration of 1.0%. In AI-95 fuel, the synthesized product had a bactericidal effect of 2.2-2.3 cm and a fungicidal effect of 2.3-2.5 cm, respectively, at a concentration of 0.5%. Synthesized 1-methyl-3-methoxyhexamethyleniminocyclohexane showed higher results than sodium pentachlorophenolate taken as ethanol.

Keywords: Mannich condensation, methylcyclohexanol, hexametilenimine, fuel, oil, antimicrobial additive.

СИНТЕЗ 1-МЕТИЛ-3-МЕТОКСИГЕКСАМЕТИЛЕНИМИНОЦИКЛОГЕКСАНА И ИЗУЧЕНИЕ ЕГО СВОЙСТВ В КАЧЕСТВЕ АНТИМИКРОБНОЙ ДОБАВКИ К МАСЛАМ И ТОПЛИВАМ

Исмаилова Самира Вагиф

Институт нефтехимических процессов имени акад. Ю.Г.Мамедалиева

https://orcid.org/0000-0001-7399-5510

ismayilova_s_ch@mail.ru

Резюме

1-Метил-3-метоксигексаметилениминоциклогексана был синтезирован на основе трехкомпонентной конденсации Манниха с участием метилциклогексанола, формальдегида и гексаметиленимина. Определены физико-химические показатели полученного соединения. Структура и состав полученных продуктов подтверждены методами ИК, ЯМР ^{1}H и ^{13}C спектроскопии и элементного анализа. 1-Метил-3-метоксигексаметилениминоциклогексана был испытан в качестве антимикробной добавки. Испытания проводились в 3 концентрациях – 0,25, 0,5 и 1,0% масла Т-22 и топлива марки AI-95. Эффективность исследуемых образцов в качестве антимикробной присадки по отношению к микроорганизмам оценивалась по диаметру зоны поражения микроорганизмов. Синтезированное соединение в масле Т-22 оказывало бактерицидное действие 2,8-3,0 см и фунгицидное действие 2,0-2,2 см соответственно при концентрации 1,0%. В топливе AI-95 синтезированный продукт оказывал бактерицидное действие 2,2-2,3 см и фунгицидное действие 2,3-2,5 см соответственно при концентрации 0,5%. Синтезированный 1-метил-3-метоксигексаметилениминоциклогексан показал более эффективные результаты, чем пентахлорфенолят натрия, взятый в качестве этанола.

Ключевые слова: Конденсация Манниха, метилциклогексанол, гексаметиленимин, топливо, масло, антимикробная присадка.

1-METİL-3-METOKSİHEKSAMETİLENİMİNOTSİKLOHEKSANIN SİNTEZİ VƏ YAĞLARA, YANACAQLARA ANTİMİKROB AŞQAR KİMİ XASSƏLƏRİNİN TƏDQİQİ

Samirə İsmayılova Vaqif

akad. Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

https://orcid.org/0000-0001-7399-5510

ismayilova_s_ch@mail.ru

Mikroorqanizmlərin təsiri nəticəsində yağ və yanacaqlar istismar zamanı oksidləşməyə məruz qala bilirlər. Yanacaqların və yağların keyfiyyətini bakteriyalar və göbələklər təkcə pisləşdirmir, həm də yağ və yanacaq sistemi mühərriklərin korroziyasına səbəb olur. Kimyəvi üsul bu məhsulları zərərdən qorumağın ən effektli yoludur, bu zaman yağ və yanacaqların tərkibinə bakterisid və funqisid aşqarlar daxil edilir (Мамедбейли, Гаджиева, Ибрагимли və Кахраманова, 2020). Korroziyanın aradan qaldırılmasında və bu prosesin həllində əsasən heteroatomlu birləşmələrdən istifadə edilir. Yüksək bioloji təsirli dərman preparatların, yağlara, yanacaqlara antimikrob və antioksidant təsirli aşqarların, kənd təssərrüfatında istifadə olunan üzvi birləşmələrin, inhibitor-bakterisidlərin bir çoxu tərkibində azot və bəzi funksional qruplar saxlayan birləşmələrdir. Bu cür birləşmələrin alınmasında vacib və perspektivli metodlardan biri çoxkomponentli Mannix kondensasiyasının aparılmasıdır. Bioloji aktiv xassəli tsikloheksan fraqmentinə malik olan yeni Mannix əsaslarının sintezi və bioloji xassələrinin öyrənilməsi nəzəri və praktiki cəhətdən çox aktualdır (Мамедбейли, Исмайылова, Гаджиева və Джафарова, 2022) (Мамедбейли, Исмайылова 2023).

Təqdim olunan iş metiltsikloheksanol, formaldehid və heksametilenimin arasında gedən Mannix reaksiyası əsasında sintez olunmuş 1-metil-3-metoksiheksametileniminotsikloheksanın sintezinə, yağ və yanacağa antimikrob aşqar kimi xassələrinin öyrənilməsinə həsr olunmuşdur.



Yeni aminometoksi birləşmə olan 1-metil-3-metoksiheksametilen-iminotsikloheksanın ilkin maddələrin bərabər mol nisbətində, 78–80ºC temperaturda və 4–5 saat ərzində benzol mühitində alınır. Birləşmənin çıxımı 82% təşkil edir. Alınan yeni aminometoksi törəmə şəffaf, spesifik qoxulu mayedir. Maddə suda həll olmur, ancaq üzvi həlledicilərdə – etanol, aseton, benzol, CCl_4 və s. yaxşı həll olur. Maddənin fiziki-kimyəvi göstəriciləri təyin edilmişdir. Sintez olunmuş maddənin quruluş və tərkibi İQ, ^1H və ^{13}C NMR spektroskopiya və element analizi üsulları ilə təsdiq edilmişdir (Мамедбейли, Гаджиева, Агамалиева və Гасанова, 2022).

1-Metil-3-metoksiheksametileniminotsikloheksanın antimikrob aşqar kimi sınaqdan keçirilmişdir. Sınaqlar müvafiq olaraq – 0.25, 0.5 və 1.0% qatılıqlarda T-22 yağı və Aİ-95 markalı yanacağında aparılmışdır. Test kultur kimi göstərilən laborator ştamları istifadə edilmişdir: bakteriyalar kimi – *Pseudomonas aeruginosa, Mycobakterium phlei;* göbələklər kimi – *Aspergillus niger, Cladosporium resinae, Penicillium chrysogenum.* Tədqiq olunan maddənin antimikrob xassələri zonal diffuziya üsulu ilə təyin olunmuşdur. Bu zaman sınaqlar üçün neft məhsullarında geniş yayılmış və onları aqressiv zədələyən mikroorqanizmlərin təmiz kulturlarından istifadə

olunmuşdur. Bakteriyaların becərilməsi üçün ətli-peptonlu aqar, göbələklər üçün isə səməni suyu aqarı mühiti istifadə edilmişdir. Natriumpentaxlorfenolyatdan etalon kimi istifadə olunmuşdur. Tədqiq olunan nümunələrin mikroorqanizmlərə qarşı antimikrob aşqar kimi effektliliyi onların mikroorqanizmlərin məhv etmə zonasının diametrinə əsasən qiymətləndirilir, belə ki, məhv olma zonasının diametri nə qədər böyük olarsa, bu birləşmənin antimikrob aktivliyi bir o qədər yüksək hesab olunur.

Cədvəl.

Metil-3-metoksiheksametileniminotsikloheksanın antimikrob xassələri

Birləşmənin quruluş formulu	Biosidin qatılığı, %	Mikroorqanizmlərin məhv olma zonası, sm			
		T-22 yağı		Yanacaq (Aİ-95)	
		Bakteriya	Göbələk	Bakteriya	Göbələk
		(*Pseudomonas aeruginosa, Mycobacterium phlei*)	(*Aspergillus niger, Penicillium chrysoenum*)	(*Pseudomonas aeruginosa, Mycobacterium phlei*)	(*Cladosporium resinae*)
	1.0	2.8–3.0	2.0–2.2	–	–
	0.5	2.4–2.6	1.6–1.8	2.2–2.3	2.3–2.5
	0.25	+++	+++	+++	+++
Etalon (Natrium pentaxlorfenolyat	1.0	1.3–1.4	1.3–1.4	1.4–1.5	1.4–1.5
	0.5	0.7–1.0	0.7–1.0	0.8–1.1	0.8–1.1
Kontrol		+++	+++	+++	+++

Qeyd: (+++) – mikroorqanizmlərin inkişafı, (–) – sınaqdan keçirilməmişdir.

Cədvəldən göründüyü kimi, T-22 yağında sintez olunmuş maddə 1.0% qatılıqda uyğun olaraq 2.8–3.0 sm bakterisid, 2.0–2.2 sm funqisid təsir göstərmişdir. Aİ-95 yanacağında isə sintez olunmuş maddə 0.5% qatılıqda müvafiq olaraq 2.2–2.3 sm bakterisid, həmçinin 2.3–2.5 sm funqisid təsir göstərmişdir. Maddə etanol olaraq götürülmüş natriumpentaxlorfenolyatdan daha yüksək nəticə göstərmişdir. Alınan nəticələrə əsasən sintez olunmuş 1-metil-3-metoksiheksametilen-iminotsikloheksan antimikrob aşqar kimi təklif edilə bilər.

Ədəbiyyat:

Мамедбейли Э.Г., Гаджиева Г.Э., Ибрагимли С.И., Кахраманова К.Р. (2020). Аминометоксипроизводные бицикло[2.2.1]-гепт-2-ена в качестве антимикробных присадок. Нефтепереработка и нефтехимия. 1, 41–44.

Мамедбейли Э.Г., Исмайылова С.В., Гаджиева Г.Э., Джафарова Н.А., Сулейманова Э.И. (2022), Синтез и противомикробная активность циклогексансодержащих оснований Манниха на основе вторичных аминов. ЖОрХ. 10, 1088–1095.

Мамедбейли Э.Г., Исмайылова С.В. (2023). Реакции аминометилирования с участием спиртовых компонентов. Известия тульского государственного университета. Естественные науки. 2, 3–26.

Мамедбейли Э.Г., Гаджиева Г.Э., Агамалиева Д.Б., Гасанова К.Ф. (2022). Синтез и свойства гексаметилениминометоксициклогексана. III Научная конференция с международным участием «Динамические процессы в химии элементоорганических соединений», посвященная 145-летию со дня рождения академика А.Е. Арбузова. 122.

PİPERAZİN ƏSASINDA YENİ İON MAYE VƏ SƏTHİ-AKTİV DƏRİN EVTEKTİK HƏLLEDİCİLƏRİN YAŞIL VƏ SƏMƏRƏLİ SİNTEZİ

Həsənov Elgün Elşən

akad. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

https://orcid.org/0000-0001-7696-5587

elgunhasanov0@gmail.com

Rəyçi:

Nəzərov İqrar Qeyrət oğlu,

Kimya üzrə fəlsəfə doktoru, dosent

Xülasə

Təqdim olunan işdə piperazin, propilen oksidi, hidrogen xlorid və müxtəlif karboksil turşularının natrium duzlarından istifadə etməklə ion mayesi (İM) və səthi-aktiv dərin evtektik həlledicilərin (DEH) yaşıl və iqtisadi cəhətdən əlverişli sintezindən bəhs edilir. Sintez bir neçə mərhələdən ibarət olub qızdırma, qarışdırma, kataliz və ya yan məhsullar olmadan həyata keçirilmişdir. İlk mərhələdə piperazinin propilen oksidi ilə 1:2 mol nisbətində reaksiyasından aminospirt alınmışdır. Növbəti mərhələdə alınmış aminospirt hidrogen xlorid ilə protonasiyaya məruz qalaraq üçlü ammonium xlorid duzu alınmışdır. Sonrakı mərhələdə isə protonasiya edilmiş aminospirtin propilen oksidi ilə tam kvaternizasiyasından İM alınmışdır. Sintez olunmuş İM-i müxtəlif uzun zəncirli karboksil turşuları və ya onların natrium duzları ilə su mühitində qarışdırdırmaqla DEH-lərin sintezi həyata keçirilmişdir. Ümumən, tətbiq olunan prosedur yaşıl kimyanın 12 prinsipi ilə yaxşı uzlaşır. Sintez olunmuş DEH kompleksləri karboksil turşu fraqmentlərinin uzun alkil zəncirlərinin hidrofobik xassəsi hesabına yüksək səthi-aktivlik nümayiş etdirir. DEH komplekslərinin sulu məhlullarının keçiricilik-konsentrasiya qrafiklərində qırılma nöqtəsinin olması ilə bu məhlullarda mitsel əmələ gəlməsi sübut edilmişdir. Sözügedən qırılma nöqtəsinə əsasən kritik mitsel qatılığı (KMQ) təyin edilmişdir. Sintez edilmiş İM və çoxməqsədli DEH komplekslərinin müxtəlif potensial tətbiq sahələri barədə təkliflər verilmişdir.

Açar sözlər: ion maye, dərin evtektik həlledici, səthi-aktiv, piperazin, yaşıl

ЗЕЛЕНЫЙ И ЭКОНОМИЧНЫЙ СИНТЕЗ НОВЫХ ИОННЫХ ЖИДКОСТЕЙ И ПОВЕРХНОСТНО-АКТИВНЫХ ГЛУБОКИХ ЭВТЕКТИЧЕСКИХ РАСТВОРИТЕЛЕЙ ИЗ ПИПЕРАЗИНА

Гасанов Эльгюн Эльшан

Институт нефтехимических процессов имени акад. Ю.Г.Мамедалиева

https://orcid.org/0000-0001-7696-5587

elgunhasanov0@gmail.com

Резюме

В представленной работе обсуждается экологичный и экономичный синтез ионной жидкости (ИЖ) и поверхностно-активных глубоких эвтектических растворителей (ГЭР) с использованием пиперазина, оксида пропилена, хлористого водорода и натриевых солей различных карбоновых кислот. Синтез протекает в несколько стадий и не включает нагревание, перемешивание, катализ или побочные продукты. Первым этапом является реакция пиперазина с оксидом пропилена в молярном соотношении 1:2 с получением алканоламина. Следующим шагом является протонирование алканоламина хлористым водородом. ИЖ получают на следующем этапе, который представляет собой полную кватернизацию протонированного алканоламина оксидом пропилена. При смешивании полученной ионной жидкости с различными длинноцепочечными карбоновыми кислотами или их натриевыми солями получают ГЭР. Общая последовательность реакций хорошо соответствует 12 принципам зеленой химии. Полученные комплексы ГЭР обладают высокой поверхностной активностью за счет гидрофобности длинных алкильных цепей фрагментов карбоновых кислот. О мицеллизации в водных растворах комплексов ГЭР свидетельствует появление точки излома на графиках зависимости проводимости от концентрации. Эта точка излома соответствует критической концентрации мицелл. Синтезированные комплексы ИЖ и многофункциональные ГЭР могут иметь различные полезные применения.

Ключевые слова: ионная жидкость, растворитель глубокой эвтектики, поверхностно-активное вещество, пиперазин, зеленый

GREEN AND ECONOMIC SYNTHESIS OF NOVEL IONIC LIQUID AND SURFACE-ACTIVE DEEP EUTECTIC SOLVENTS FROM PIPERAZINE

Hasanov Elgun Elshan

akad. Y.H.Mammadaliyev's Institute of Petrochemical Processes

https://orcid.org/0000-0001-7696-5587

elgunhasanov0@gmail.com

Ionic liquids (ILs) are chemical compounds with ionic nature which melt at temperatures below 100°C. Being one of the most recent developments of modern chemistry, they have already garnered a lot of attention from researchers all over the world. One of the main reasons for this widespread interest is that ILs are seen as a better potential alternative to conventional volatile organic compounds (VOCs) which are used as solvents for various chemical processes (Singh & Savoy, 2020). In the light of growing concerns related to health and environmental impact of VOC emissions, finding more ecological alternative solvents is an important issue to be addressed (Zhou et al., 2023). Unlike VOCs, ILs possess low volatility and low flammability, which paves the way for their utilization as a safer alternative to VOCs. Owing to these outstanding characteristics ILs have been regarded as green solvents of the future (Mallakpour & Dinari, 2012). In fact, some ILs have already found their way to industrial applications not only as solvents but also as catalysts, additives and conducting mediums for electrochemical processes (Siriwardana, 2015). Despite numerous positive thoughts regarding the green properties of ILs, their eco-friendliness has recently been challenged on the basis of potential toxicity, low biodegradability and non-compliance with the 12 principles of green chemistry (Bystrzanowska et al., 2019) (de Jesus & Maciel Filho, 2022). Deep eutectic solvents (DES) can be potential candidates to tackle the problem of green and eco-friendly solvents, since they are considered to be safer and greener alternative to ILs, in general (Vanda et al., 2018) (Prabhune & Dey, 2023). In fact, DES share many common traits with ILs and even can be viewed as a new class of ILs with more diverse applications (Smith et al., 2014). Nevertheless, speculations related to negative environmental impact of some patented DES complexes imply a call for caution in their synthesis and utilization as green solvents (Zaib et al., 2022).

However, ILs and DES complexes can be constructed from variety of ionic moieties and not all formulations are toxic or prone to bioaccumulation. Green and safe synthesis routes for ILs and related DES compositions should be explored to benefit from their unique application properties with minimum environmental impact.

Considering the above, this paper reports on the synthesis of an IL and related DES complexes utilizing commercially available cheap reagents and green reaction pathway. The multistep reaction pathway is described in Scheme 1 below. The first step was the complete propoxylation of piperazine to produce alkanolamine. The next step was protonation of the alkanolamine with hydrogen chloride to produce a tertiary ammonium chloride. The IL was produced in the subsequent step which is complete quaternization of the protonated alkanolamine with propylene oxide. Upon mixing the resultant ionic liquid with different long chain carboxylic acids or their sodium salts DES complexes were obtained. For the last step water was used as the solvent to

achieve uniform mixing of the components. Fourier transform IR and NMR studies were performed to confirm the structures of products for each one of the steps leading to IL.



Scheme 1. Synthesis of IL and DES complexes from piperazine

Synthesis of the IL and DES complexes was benchmarked against the following 12 principles of green chemistry suggested by Anastas and Warner (Anastas & Warner, 2000, pp. 29-54) to verify that the whole procedure actually complies well with the notion of green chemistry (see Table 1).

Table 1.

The level of compliance of the suggested chemical process with 12 principles of green chemistry

	Green chemistry principle	**Compliance**
1.	It is better to prevent waste than to treat or clean up waste after it has been created.	The suggested reaction scheme does not result in any waste of material.
2.	Synthetic methods should be designed to maximize incorporation of all materials used in the process into the final product.	All materials used from the beginning to the end are incorporated into the final products.
3.	Wherever practicable, synthetic methods should be designed to use and generate substances that possess little or no toxicity to human health and the environment.	DES complexes contain fatty acid fragments which are harmless to living organisms. Initial assessment on microorganisms shows that the products have very low biocide capability.
4.	Chemical products should be designed to preserve efficacy of function while reducing toxicity.	Surface-active DES complexes can be applied as surfactants and are proven to have very low biocide capability.
5.	The use of auxiliary substances (e.g., solvents, separation agents, etc.) should be made unnecessary wherever possible and, innocuous when used.	The only step utilizing a solvent is the formation of DES complexes. The solvent used is water which is innocuous. The entire chemical process uses no VOC type solvent.
6.	Energy requirements should be recognized for their environmental and economic impacts and should be minimized. Synthetic methods should be conducted at ambient temperature and pressure.	All reactions are conducted at ambient temperature and pressure. In addition, no stirring of the reagents was applied.
7.	A raw material or feedstock should be renewable rather than depleting whenever technically and economically practicable.	Long chain carboxylic acids or fatty acids can be obtained using plant- or animal-based fats, and thus are considered a renewable reagent.

8.	Unnecessary derivatization (use of blocking groups, protection/deprotection, temporary modification of physical/chemical processes) should be minimized or avoided, if possible, because such steps require additional reagents and can generate waste.	Reactions involved in the synthesis process are simple and thus require no derivatization.
9.	Catalytic reagents (as selective as possible) are superior to stoichiometric reagents.	In fact, there was no requirement for a catalyst. Achieving 100% atom economy without catalysis, the reaction sequence fully complies with this principle.
10	Chemical products should be designed so that at the end of their function they break down into innocuous degradation products and do not persist in the environment.	DES complexes contain fatty acid fragments which are naturally biodegradable. Chloride ions do not constitute any toxicity or environmental damage capacity.
11	Analytical methodologies need to be further developed to allow for real-time, in-process monitoring and control prior to the formation of hazardous substances.	There is no interim formation of hazardous substances.
12	Substances and the form of a substance used in a chemical process should be chosen to minimize the potential for chemical accidents, including releases, explosions, and fires.	Propylene oxide is a flammable chemical, however, since it is used at ambient pressure and temperature the chance of any accidents is rare. In addition, it reacts slowly with the other reagents present, thereby further minimizing any probability of a chemical accident.



Figure 1. Conductivity vs concentration plots of the synthesized surface-active DES complexes

Owing to the long hydrocarbon chain of the carboxylic acid fragments the synthesized DES complexes were surface-active and possessed self-assembly properties. Electrolytic conductivity of the aqueous solutions of the DES complexes was measured with a pHenomenal® CO 3000L conductivity meter and the conductivity vs concentration plots are presented in Figure 1 below. Each one of the plots shows a distinctive break point indicating critical micelle concentration (CMC) of the dissolved electrolyte.

Measured CMC of each one of the DES complexes are presented in Table 2 below. As the data indicates CMC tends to drop with increasing hydrocarbon chain length of the carboxylic acid. Binding degrees of the counterions to micelles (β) and the Gibbs free energy of micellization (ΔG^0_{mic}) are also measured for DES complexes constructed with different carboxylic acids and the results are included in Table 2. Lower values of ΔG^0_{mic} indicates higher thermodynamic tendency towards micelle formation.

Table 2.

Some physicochemical parameters of the synthesized surface-active DES complexes

Carboxylic acid	**Shorthand name**	**CMC, mmol/L**	**β**	**ΔG^0_{mic}, kJ/mol**
Capric	C_{10}-$PiPO_4$-Cl_2-C_{10}	15.250	0.226	-15.61
Lauric	C_{12}-$PiPO_4$-Cl_2-C_{12}	7.003	0.185	-16.10
Myristic	C_{14}-$PiPO_4$-Cl_2-C_{14}	5.744	0.108	-14.68
Palmitic	C_{16}-$PiPO_4$-Cl_2-C_{16}	3.366	0.134	-16.12
Stearic	C_{18}-$PiPO_4$-Cl_2-C_{18}	3.745	0.509	-24.87
Oleic	$C_{18=}$-$PiPO_4$-Cl_2-$C_{18=}$	4.446	0.109	-15.09

The synthesized IL is liquid at room temperature and thus can be utilized as a solvent for chemical synthesis processes being performed at ambient temperatures. The DES complexes are all surface-active and can be utilized as green surfactants for different purposes. The surface-active DES complexes can also be used as solvents for reactions involving both polar and non-polar reagents, thanks to their amphiphilic nature. In addition, application of the IL and DES synthesized in this work as catalysts need to be investigated further.

References:

Anastas, P. T., & Warner, J. C. (2000). *Green Chemistry: Theory and Practice*. (pp. 29-54) Oxford University Press.

Bystrzanowska, M., Pena-Pereira, F., Marcinkowski, Ł., & Tobiszewski, M. (2019). *How green are ionic liquids? – A multicriteria decision analysis approach*. Ecotoxicology and Environmental Safety, 174(March), 455–458. https://doi.org/10.1016/j.ecoenv.2019.03.014

de Jesus, S. S., & Maciel Filho, R. (2022). *Are ionic liquids eco-friendly?* Renewable and Sustainable Energy Reviews, 157(January). https://doi.org/10.1016/j.rser.2021.112039

Mallakpour, S., & Dinari, M. (2012). Ionic liquids as green solvents: Progress and prospects. In A. Mohammad & D. Inamuddin (Eds.), *Green Solvents II: Properties and Applications of Ionic Liquids* (pp. 1–32). Springer Netherlands. https://doi.org/10.1007/978-94-007-2891-2_1

Prabhune, A., & Dey, R. (2023). *Green and sustainable solvents of the future: Deep eutectic solvents*. Journal of Molecular Liquids, 379, 121676. https://doi.org/10.1016/j.molliq.2023.121676

Singh, S. K., & Savoy, A. W. (2020). *Ionic liquids synthesis and applications: An overview*. Journal of Molecular Liquids, 297, 112038. https://doi.org/10.1016/j.molliq.2019.112038

Siriwardana, A. I. (2015). Industrial applications of ionic liquids. In *Electrochemistry in Ionic Liquids: Volume 2: Applications*. https://doi.org/10.1007/978-3-319-15132-8_20

Smith, E. L., Abbott, A. P., & Ryder, K. S. (2014). *Deep Eutectic Solvents (DESs) and Their Applications*. Chemical Reviews, 114(21), 11060–11082. https://doi.org/10.1021/cr300162p

Vanda, H., Dai, Y., Wilson, E. G., Verpoorte, R., & Choi, Y. H. (2018). *Green solvents from ionic liquids and deep eutectic solvents to natural deep eutectic solvents*. Comptes Rendus Chimie, 21(6), 628–638. https://doi.org/10.1016/j.crci.2018.04.002

Zaib, Q., Eckelman, M. J., Yang, Y., & Kyung, D. (2022). *Are deep eutectic solvents really green?: A life-cycle perspective*. Green Chemistry, 24(20), 7924–7930. https://doi.org/10.1039/d2gc01752k

Zhou, X., Zhou, X., Wang, C., & Zhou, H. (2023). *Environmental and human health impacts of volatile organic compounds: A perspective review*. Chemosphere, 313(December 2022), 137489. https://doi.org/10.1016/j.chemosphere.2022.137489

ENVIRONMENTAL AND TECHNOLOGICAL EFFECTS OF ADSORPTION DESULFURIZATION OF PROPANE-PROPYLENE FRACTION ON ETHYLENE PRODUCTION

Rahimli Fazil Radiq

Azerbaijan State Oil and İndustry University

fazil.rahimli97@gmail.com

Rəyçi:

Nəzərov İqrar Qeyrət oğlu,

Kimya üzrə fəlsəfə doktoru, dosent

Summary

The aim of the study was to reduce the sulfur content in the propane-propylene fraction (PPF) obtained in catalytic cracking to increase the production of polypropylene using an adsorption process with four different adsorbents. Due to the fact that the excess sulfur content exceeded the established limits, measures to reduce it were needed. The study evaluated the effectiveness of these adsorbents under optimized process conditions, including pressure and temperature, through observations on an industrial scale. The results showed that when used adsorbents were used in fixed-layer adsorbers, they achieved almost complete removal of sulfur from the propane-propylene fraction. In addition, the process of regeneration of adsorbents using methane was also investigated in the study.

Keywords: adsorption desulfurization, propane-propylene fraction, adsorbents, desulfurization.

ДЕСУЛЬФУРИЗАЦИЯ ПРОПАН-ПРОПИЛЕНОВОЙ ФРАКЦИИ МЕТОДОМ АДСОРБЦИИ: ЭКОЛОГИЧЕСКИЕ И ТЕХНОЛОГИЧЕСКИЕ ВЛИЯНИЯ НА ПРОИЗВОДСТВО ЭТИЛЕНА

Рахимли Фазиль Радиг

Азербайджанский государственный университет нефти и промышленности

fazil.rahimli97@gmail.com

Резюме

Целью исследования было уменьшение содержания серы в пропан-пропиленовой фракции (PPF), полученной при каталитическом крекинге, с использованием процесса адсорбции на четырех различных адсорбентах для увеличения производства полипропилена. Избыточное содержание серы превышало установленные пределы, поэтому потребовались меры по его снижению. Исследование оценивало эффективность данных адсорбентов в промышленных условиях, включая оптимальные параметры процесса, такие как давление и температура. Результаты показали, что использование адсорбентов в адсорберах с неподвижным слоем позволило практически полностью удалить серу из пропан-пропиленовой фракции. Кроме того, в исследовании также был рассмотрен процесс регенерации адсорбентов с использованием метана.

Ключевые слова: десульфуризация методом адсорбции, пропан-пропиленовая фракция, адсорбенты, очистка от серы.

PROPAN-PROPİLEN FRAKSİYASININ ADSORBSİYA ÜSULU İLƏ KÜKÜRDSÜZLƏŞDİRİLMƏSİNİN ETİLEN İSTEHSALINA EKOLOJİ VƏ TEXNOLOJİ TƏSİRLƏRİ

Rahimli Fazil Radiq

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

fazil.rahimli97@gmail.com

Giriş. Neft emalı prosesində katalitik krekinqin mühüm rolu ondan ibarətdir ki, o, xam neftdən alınan neft fraksiyasını bir sıra neft məhsullarına çevirir. Bu məhsullar arasında propan-propilen fraksiyası (PPF) xüsusilə vacibdir, çünki o, polipropilen istehsalı üçün mühüm xammal kimi xidmət edir. Bununla belə, PPF-də kükürdün olması onun polimerləşmə katalizatorlarına zərərli təsiri ilə əlaqədar problemlər yaradır və effektiv təmizləmə üsulları tələb edir.[1-3]

Adsorbsiya üsulu ilə təmizlənmə karbohidrogen axınlarından kükürd tərkibli birləşmələri seçici şəkildə tutmaq üçün adsorbentlərdən istifadə edir. Kükürdsüzləşdirmə üçün müxtəlif adsorbentlər, o cümlədən aktivləşdirilmiş karbon, seolitlər və metal-üzvi birləşmələr (MOF) tədqiq edilmişdir. Adsorbsiya prosesinin effektivliyi adsorbentin növü, təmas müddəti və kükürdlü birləşmələrin ilkin konsentrasiyası kimi amillərdən asılıdır.[4-7]

Fiziki adsorbsiya və kimyəvi adsorbsiya prosesinin iki növüdür. Fiziki adsorbsiya zamanı inert atomlar və ya molekullar zəif Van der Vaals qarşılıqlı təsirləri vasitəsilə substratın üzərinə adsorbsiyaya uğrayır və bu, zəif bağların yaranması ilə nəticələnir. Bu proses adsorbatın detallı quruluşundan asılı deyil. Əksinə, kimyəvi adsorbsiya zamanı adsorbat və substrat arasında, adətən kovalent bağlar kimi kimyəvi bağlar yaranır və enerji xüsusi yerlərdən və molekulun uzunluğundan asılıdır. Hər iki proses entropiya itkiləri ilə xarakterizə olunur, bu itkilərə temperatur və substrat quruluşu kimi amillər təsir edir və bu da adsorbsiyaya uğramış maddələrin dayanıqlığına və xüsusiyyətlərinə təsir göstərir [8-11]

Adsorbentlərin regenerasiyası, onların təkrar istifadə oluna bilməsi, davamlılığını təmin etmək və kükürsüzləşdirmə prosesləri üçün kritik əhəmiyyət daşıyır. İstifadə olunmuş adsorbentlərin tutumunu bərpa etmək üçün termal və kimyəvi regenerasiya kimi müxtəlif metodlar araşdırılıb. Katalitik krekinq-dən alınan axınların, xüsusən də PPF-in kükürdsüzləşdirməsi, neft-kimya sənayesində məhsul keyfiyyəti və ekoloji tələblərə uyğunluq üçün çox vacibdir. Adsorbsiya, səmərəli kükürd təmizlənməsi üçün ümidverici bir metod kimi çıxış edir və xərc effektivliyi və ekoloji davamlılıq baxımından üstünlüklər təmin edir. [12,13]

Metodologiya

Sahə miqyasında sınaqlar, PPF-i adsorbentlər ilə təmizləmək və adsorbentləri metan ilə regenerasiya etmək məqsədilə aparıldı. Bu sınaqlar, etilen-polietilen zavodunda həyata keçirilmiş və kükürdsüzləşdirilmiş PPF istehsalını hədəfləmiş, daha sonra propan və propilenin ayrılması üçün qazayırma qurğusuna yönəldilmişdir. PPF təmizləmə prosesində iki ardıcıl adsorberlərdən keçərək tımizlənməsindən ibarət olmuşdur. Sabit yataqlı adsorbent reaktorlardan istifadə edərək, ilkin mərhələdə su, RSH və COS regenerasiya oluna bilən adsorbentlər ilə aradan qaldırılmış, sonra isə AsH3, COS və H2S izlərini təmizləmək üçün regenerasiya olunmayan adsorbentdən istifadə edilmişdir. Davamlı işləməni təmin etmək üçün bir adsorber fəaliyyət göstərərkən, digəri

regenerasiya edilirdi və ya ehtiyatda saxlanılırdı. Adsorberlər regenerasiya oluna bilən adsorbentlər üçün üç qatlı, regenerasiya olunmayan adsorbentlər üçün isə bir qatlı adsorbent yükləmə sistemi ilə işlədilmişdir. Adsorberlər PPF-in, müəyyən olunmuş temperaturda və işçi təzyiqində axaraq, 120 saat ərzində təmizləmə prosesindən keçdikdən sonra regenerasiya olunmuş və soyudulmuşdur. Proses şəraitinin, o cümlədən təzyiq və temperatur dəyişikliklərinin optimallaşdırılması, kükürdün təmizlənmə səmərəliliyinin artırılması üçün istifadə olunur. Bundan əlavə, optimal şəraitin tapılması adsorbentlərin performansına, regenerasiya və kükürdsüzləşdirmə prosesinə, və enerji xərclərinin effektivliyini optimallaşdırmaq üçün faydalı ola bilər. Prosesin sonunda PPF-in təmizləməsinin əvvəl və sonrakı tərkib analizi, qarışıqların əhəmiyyətli dərəcədə azaldığını və təmizləmə prosesinin əhəmiyyəti görüldü.

Təcrübədə, adsorbentlərin regenerasiyası üçün isti metandan istifadə edildi və adsorbentin çıxış temperatoru 230°C olana kimi qızdırıldı. Regenerasiya qazı adsorbenti adsorber daxilində qızdıraraq, kükürdlü birləşmələrinin, karbohidrogen və su buxarının desorbsiyasını təmin etmək üçün istifadə olundu. Karbohidrogenlərin və kükurdlu birləşmələrin kondensləşməsi üçün adsorberdən çıxandan sonra istilikdəyişdirici ilə qazın temperaturu aşağı salındı, daha sonra isə kondensləşmiş karbohidrogenlərin və nəmin aradan qaldırıldığı ayrıcı tutuma göndərildi, təmizlənmiş regenerasiya qazı regenerasiya qazı xəttinə qaytarıldı. Regenerasiya prosesi zamanı regenerasiya qazlarının çıxış temperaturu 3 saat müddətində 230°C-də diqqətlə saxlanıldı ki, bu da adsorbentlətin temperaturunu aşağı salmaq üçün sonrakı bir soyutma mərhələsini tələb etdi.

Nəticə

Təcrübədəki sınaqlar PPF-nin kükürdsüzləşdirilməsini hədəfləmiş, və təmizlənmiş propan-propilen fraksiyasi C3 rektifikasiya kolonuna propan və propilenin ayrılması üçün göndərilmiş və alınan propilen isə polimerizasiya üçün yönləndirilmişdir. İki mərhələli təmizləmə prosesində sabit yataqlı adsorbentlərdən istifadə edərək propan-propilen axınından su, RSH, COS, AsH3 və H2S birləşmələri müvəffəqiyyətlə aradan qaldırıldı. PPF təmizlənməsi üçün müəyyən olunmuş adsorbentləri istifadə edilmişdirki ki,bu da tərkibindıki kükürdün miqdarını 5.67 ppm-dən əhəmiyyətli dərəcədə azaltmışdır. Qaz xromatoqrafiyası ilə tərkibi analiz edilmişdir. Metan və hidrogen regenerasiya qazı kükürd komponentlərini, karbohidrogenləri və su buxarını effektiv şəkildə desorbsiyaya uğratmış və adsorbentlərin yenidən istifadəsi üçün soyudulmuşdur.

Ədəbiyyat:

Bao, J., Rao, W., Zhou, Y., Wen, B., Wang, B., Lv, G., & Liao, L. (2023). Effect of the Microstructure of Support Materials on Cracking Catalyst Performance. Crystals, 13(1). https://doi.org/10.3390/cryst13010123

Benco, L., Hafner, J., Hutschka, F., & Toulhoat, H. (2003). Physisorption and Chemisorption of Some n-Hydrocarbons at the Brønsted Acid Site in Zeolites 12-Membered Ring Main Channels: Ab Initio Study of the Gmelinite Structure. The Journal of Physical Chemistry B, 107(36), 9756–9762. https://doi.org/10.1021/jp027625z

Botin, A. A., Boldushevskii, R. E., Mozhaev, A. V., Ghambarian, M., Balar, M., Ghashghaee, M., & Nikulshin, P. A. (2023). Reactive adsorption desulfurization of model FCC gasoline on Ni-based adsorbents: Effect of active phase dispersion on activity and HDS/HYD selectivity. Applied

Catalysis B: Environmental, 337, 122946.
https://doi.org/https://doi.org/10.1016/j.apcatb.2023.122946

Botin, A. A., Boldushevskii, R. E., Mozhaev, A. V., Ghambarian, M., Balar, M., Ghashghaee, M., & Nikulshin, P. A. (2023). Reactive adsorption desulfurization of model FCC gasoline on Ni-based adsorbents: Effect of active phase dispersion on activity and HDS/HYD selectivity. Applied Catalysis B: Environmental, 337, 122946. https://doi.org/https://doi.org/10.1016/j.apcatb.2023.122946

Chawan Saiwan Othman, Y. M. S., & Hamasalih, L. O. (2023). Adsorption desulfurization of dibenzothiophene in a model and diesel fuel by hybrid activated charcoal/mixed metal oxide. Petroleum Science and Technology, 41(22), 2121–2140. https://doi.org/10.1080/10916466.2022.2108052

Fatemeh Jangi, N. R., & Allahyari, S. (2023). Oxidative desulfurization using nanocomposites of heterogeneous phosphotungstic acid over natural zeolites; optimization by central-composite design. Petroleum Science and Technology, 41(1), 104–122. https://doi.org/10.1080/10916466.2022.2039703

Gaspard, J. P. (1982). Physisorption and Chemisorption. In B. Mutaftschiev (Ed.), Interfacial Aspects of Phase Transformations (pp. 103–118). Springer Netherlands. https://doi.org/10.1007/978-94-009-7870-6_4

Ghassa, M., Khorashe, F., Hajjar, Z., & Soltanali, S. (2023). Comparative Study on Adsorptive Desulfurization of Thiophenic Compounds over Terephthalic Acid-Based and Trimesic Acid-Based Metal-Organic Frameworks. Energy & Fuels, 37. https://doi.org/10.1021/acs.energyfuels.3c00091

Gholami, Z., Gholami, F., Tišler, Z., Tomas, M., & Vakili, M. (2021). A Review on Production of Light Olefins via Fluid Catalytic Cracking. Energies, 14(4). https://doi.org/10.3390/en14041089

J J CollinsS A ConviserR A AndersonK D,ManchandaPurification fluids with adsorbents, Jun. 5 1974 UK Patent GB1354760A

Maghsoudi, Z., Shabanian, S.R., Ahmadpour, J. et al. Enhanced adsorption desulfurization performance over modified zeolite clinoptilolite for a model fuel in a competitive process. Res Chem Intermed 49, 3097–3133 (2023). https://doi.org/10.1007/s11164-023-05039-x

Stratiev, D. S., Shishkova, I., Tzingov, T., & Zeuthen, P. (2009). Industrial Investigation on the Origin of Sulfur in Fluid Catalytic Cracking Gasoline. Industrial & Engineering Chemistry Research, 48(23), 10253–10261. https://doi.org/10.1021/ie900985g

Yoosuk, B., Chareonteraboon, B., Hinchiranan, N., & Prasassarakich, P. (2023). Two-Stage Sequential Adsorption System for Denitrogenation and Desulfurization of Model Diesel Oil over Ion-Exchanged Y Zeolites. Industrial & Engineering Chemistry Research, 62(18), 7080–7092. https://doi.org/10.1021/acs.iecr.2c04287

INVESTIGATION OF THE PROCESS OF DECOMPOSITION OF RAW MATERIALS IN SULFURIC ACID WITH PARTIAL REPLACEMENT OF FLUORAPATITE WITH DOLOMITE AND PARTIAL REPLACEMENT OF SULFURIC ACID WITH AMMONIUM HYDROSULFATE

Mustafazade Jeyhun Musa

Sumgayit State University

ceyhun.mustafazade@greentech.az

Rəyçi:

İmanov Elmar Vaqif oğlu,

Kimya üzrə fəlsəfə doktoru, dosent

Summary

The article is devoted to the study of the process of decomposition of natural phosphates in sulfuric acid in the presence of intensifying components. Unlike the classical method, sulfuric acid is partially replaced by ammonium dihydrogen sulfate, and fluorapatite is partially replaced by dolomite. As a result of the conducted studies, it was determined that it is possible to reduce the consumption of sulfuric acid by 7-8% of the total norm without reducing the degree of decomposition of raw material. The composition of the resulting phosphorus mineral fertilizer, in addition to calcium dihydrogen phosphate, also contains ammonium dihydrogen phosphate and magnesium dihydrogen phosphate, which enriches the resulting product with an additional nutrient element nitrogen and trace element magnesium.

Keywords: natural phosphates, sulfuric acid, decomposition rate, intensification, mineral fertilizer.

ИССЛЕДОВАНИЕ ПРОЦЕССА РАЗЛОЖЕНИЯ СЫРЬЯ В СЕРНОЙ КИСЛОТЕ С ЧАСТИЧНЫМ ЗАМЕЩЕНИЕМ ФТОРАПАТИТА ДОЛОМИТОМ И СЕРНОЙ КИСЛОТЫ ЧАСТИЧНЫМ ГИДРОСУЛЬФАТОМ АММОНИЯ

Мустафазаде Джейхун Муса

Сумгаитский государственный университет

ceyhun.mustafazade@greentech.az

Резюме

Статья посвящена изучению процесса разложения природных фосфатов в серной кислоте в присутствии интенсифицирующих компонентов. В отличие от классического метода серная кислота частично заменена дигидросульфатом аммония, а фторапатит частично заменен доломитом. Проведенными исследованиями установлено, что не снижением степень разложения сырья, можно заменить серную кислоту до 7-8% гидросульфатом аммония. В составе полученного фосфорного минерального удобрения, кроме дигидрофосфата кальция, также присутствует дигидрофосфат аммония и магния, что обогащает полученный продукт дополнительным питательным элементом азотом и микроэлементом магнием.

Ключевые слова: природные фосфаты, серная кислота, скорость разложения, интенсификация, минеральное удобрение.

FLÜORAPATİTİN QİSMƏN DOLOMİTLƏ VƏ SULFAT TURŞUSUNUN QİSMƏN AMMONİUM HİDROSULFATLA ƏVƏZ EDİLMƏSİ İLƏ XAMMALIN SULFAT TURŞUSUNDA PARÇALANMASI PROSESİNİN TƏDQİQİ

Mustafazadə Ceyhun Musa oğlu

Sumqayıt Dövlət Universiteti

ceyhun.mustafazade@greentech.az

Respublikamızda sənayenin sürətlə inkişafı təbii fosfatların sulfat turşusunda parçalanması yolu ilə mineral gübrələrin alınması istiqamətində elmi tədqiqat işlərinin aparılmasını zəruri etmişdir. Ona görə də, klassik üsuldan fərqli olaraq flüurapatitin qismən dolomitlə, sulfat turşusunun isə qismən ammonium hidrosulfatla əvəz edilməsi ilə xammalın sulfat turşusunda parçalanması prosesinin tədqiqi məqsədəuyğun hesab edilir. Məlumdur ki, fosforlu mineral gübrələrin səmərəliliyinin və keyfiyyətinin artırılması əsasən onların əlavə qida elementləri və ya mikroelementlərlə zənginləşdirilməsindən asılıdır. Odur ki, təbii fosfatların sulfat turşusunda parçalanması prosesində sulfat turşusunun qismən intensivləşdirici reagent kimi ammonium hidrosulfatla, flüorapatitin isə qismən dolomitlə əvəz edilməsi ilə xammalın parçalanması reaksiyasının tədqiqi həm nəzəri, həm də praktiki cəhətdən maraq doğurur.

Parçalanma reaksiyasında sulfat turşusunu qismən ammonium hidrosulfatla əvəz etməklə flüorapatitin sulfat turşusunda parçalanması reaksiyasının aparılması nəticəsində alınan fosforlu mineral gübrənin əlavə qida elementi azotla zənginləşməsi, flüorapatitin qismən dolomitlə əvəz edilməsi ilə alınan məhsulun mikroelementlə modifikasiya olunması müəyyənləşdirilmişdir. Aparılan tədqiqatlarla müəyyən edilmişdir ki, sulfat turşusunun tam normasının 3 - 8% həddində ammonium – hidrosulfat məhlulu ilə əvəz etdikdə xammalın parçalanma dərəcəsinin aşağı düşməsi müşahidə olunmur. Yəni, əvəzetmənin qeyd olunan həddə aparılması fülorapatitin parçalanmasına müsbət təsir göstərdiyindən, parçalanma dərəcəsi klassik üsulla olan həddə saxlanılır. Lakin əvəzetməni 8% - dən yüksək hədlərdə apardıqda apatit konsentratının parçalanma dərəcəsinin aşağı düşməsi müşahidə olunur. Bu onunla izah edilir ki, əvəzetmənin 8%-dən yüksək hədlərində sistemdə hidrogen ionlarının qatılığı aşağı düşür. Bu da reaksiyanın birinci mərhələsində əmələ gələn ortofosfat turşusunun aktivliyinin azalmasına səbəb olur. Ortofosfat turşusunun metiloranj iştirakı ilə qələvi vasitəsilə titrlənməsi nəticəsində (birinci hidrogen ionunun titrlənməsi ilə) müəyyən edilmişdir ki, əvəzetmənin miqdarı artdıqca, sistemdə sərbəst turşuluğun səviyyəsi aşağı düşür. Məsələn, sulfat turşusunun ümumi normasının 6% - ni ammonium hidrosulfatla əvəz edildikdə P_2O_5- in 88-90% - i sərbəst ortofosfat turşusu şəklində olur. Əvəzetmənin 18%- li qiymətində isə sərbəst turşuluq aşağı düşərək 70-73% təşkil edir.

Eksperiment dəlilləri ilə müəyyən edilmişdir ki, flüorapatitin sulfat turşusu ilə parçalanması prosesində sulfat turşusunun ümumi normasının 3-8%-ə qədərini ekvivalent miqdarda ammonium hidrosulfat məhlulu ilə əvəz etmək mümkündür. Lakin əvəzetməni 8%- dən yüksək hədlərdə apardıqda parçalanma dərəcəsi tədricən aşağı düşür. Ammonium hidrosulfat iştirakı və flüorapatitin qismən dolomitlə əvəz olunması ilə xammalın sulfat turşusunda parçalanması prosesinin tədqiqi və bu üsulla əlavə qida elementi azotla və mikroelement maqneziumla zənginləşdirilmiş fosforlu

mineral gübrənin alınmasının optimal texnoloji şəraitinin müəyyənləşdirilməsi üçün bir sıra təcrübi eksperimentlər aparılmışdır. Müəyyən edilmişdir ki, diffuziya kinetikası ilə təyin edilən, bərk cisimlərin mayedə həll olması, əsasən reaksiya məhsullarının məhlulun həcmindəki və cismin səthindəki qatılıqlarının fərqindən asılıdır. Həllolma prosesində qatılıq qradienti həllolmanın hərəkət qüvvəsini xarakterizə edir. Kimyəvi reaksiya ilə müşayət olunan parçalanma prosesində isə, dəyişmə diffuziyası sayəsində reagentlərin fazalararası səthə yerləşdirilməsini təmin edir. Ammonium hidrosulfat iştirakı ilə xammalın sulfat turşusunda parçalanması prosesinin tədqiqi göstərdi ki, 100-110 ^{0}C temperaturda ammonium hidrosulfat sulfat turşusu ilə qarışdıqda flüorapatitin parçalanma prosesini sürətləndirir. Müəyyən edilmişdir ki, parçalanma reaksiyası iki mərhələdə baş verir. Birinci mərhələdə sərbəst ortofosfat turşusu, polihidrat formasında kalsium sulfat və ammonium dihidrofosfat əmələ gəlir. Sulfat turşusu tam sərf olunduqdan sonra prosesin ikinci mərhələsi başlayır. Bu mərhələdə artıq qalan xammalın birinci mərhələdə əmələ gəlmiş ortofosfat turşusu ilə qarşılıqlı təsir reaksiyası baş verir ki, bu halda reaksiya məhsulu kimi kalsium dihidrofosfatla yanaşı, ammonium dihidrofosfat və maqnezium dihidrofosfat əmələ gəlir.

Sonda bir cümlə ilə tədqiqatın nəticəsi və verə biləcəyi tövhəni qeyd etmək yaxşı olar.

Ədəbiyyat:

Алиев Ш.Т. Вопросы развития химической промышленности Азербайджанской Республики // Химическая промышленность сегодня. 2010, № 8, с. 5-8.

Səmədov M.M. Superfosfatın alınması üsulu / Azərbaycan respublikasının patenti İ20050053, C 05 B1/02. 2005.

Джурумбаев А.И. и др. О разложении природных фосфатов серной кислотой в присутствии фосфата аммония // Журнал прикладной химии, 1991, № 7, с. 1441-1446.

GROWING TECHNOLOGY AND ELECTROPHYSICAL PROPERTIES OF A SINGLE CRYSTAL OF THE In_2Se_3 COMPOUND

Talifli Aysel Fizuli

Sumgait State University

https://orcid.org/0000-0003-1201-7742

aysel.talifli@sdu.edu.az

Rəyçi:

Quliyeva Gülnarə Hüseyn qızı,

Fizika üzrə fəlsəfə doktoru, dosent

Summary

In the present work, the In_2Se_3 compound was synthesized, a Single Crystal was derived using the Brickman-Stockbarger method, X-ray phase analysis was performed, and the cell parameters were determined. It was found that the compound In_2Se_3 crystallizes in a hexagonal syngony, the cell parameters a=4025 Å, c=28762 Å. A single crystal of the In_2Se_3 compound was obtained by the Bridgman method. The purity of In and Se elements was 99.9998%. The homogeneity of the grown single crystal was checked by X-ray phase analysis. The diffractogram of the compound was obtained on a DRON-3M X-ray diffractometer in CuKα radiation (λ=1.54178Å).The temperature dependences of the specific electrical conductivity of the compound and the Hall coefficient are investigated, the band gap, the charge carrier path, and the concentration of free charge carriers are determined.

Keywords: In_2Se_3 compound, roentgenogram, electrical conductivity, Hall coefficient

ТЕХНОЛОГИЯ ВЫРАЩИВАНИЯ И ЭЛЕКТРОФИЗИЧЕСКИЕ СВОЙСТВА МОНОКРИСТАЛЛА СОЕДИНЕНИЯ In_2Se_3

Талыфлы Айсель Физули

Сумгаитский государственный университет

https://orcid.org/0000-0003-1201-7742

aysel.talifli@sdu.edu.az

Резюме

В представленной работе был проведен синтез соединения In_2Se_3, выведен монокристалл по методу Брикмена - Стокбаргера, проведен рентгенофазный анализ и определены параметры клетки. Установлено, что соединение In_2Se_3 кристаллизуется в гексагональной сингонии, параметры ячейки a=4025 Å, c=28762 Å. Монокристалл соединения In2Se3 был получен методом Бриджмена. Чистота элементов In и Se составила 99,9998%. Гомогенность выращенного монокристалла проверяли методом рентгенофазового анализа. Дифрактограмма соединения получена на рентгеновском дифрактометре ДРОН-3М (λ=1,54178Å) в CuKα-излучении. Исследованы температурные зависимости удельной электропроводности соединения и коэффициента Холла, определена ширина запрещенной зоны, пробег носителей заряда и концентрации свободных носителей заряда.

Ключевые слова: соединение In_2Se_3, рентгенограмма, электропроводность, коэффициент Холла

In_2Se_3 BİRLƏŞMƏSİNİN MONOKRİSTALININ YETİŞDİRİLMƏ TEXNOLOGİYASI VƏ ELEKTROFİZİKİ XASSƏLƏRİ

Talıflı Aysel Fizuli

Sumqayıt Dövlət Universiteti

https://orcid.org/0000-0003-1201-7742

aysel.talifli@sdu.edu.az

Fiziki-kimyəvi və rentgen faza analizi üsulları ilə In-Se sisteminin diaqramları qurulmuş və nanosistemlərin InSe, In_2Se, In_2Se_3 birləşmələrini və In_6Se_7, In_4Se_3, In_2Se_2 aralıqlarını əmələ gətirdiyi aşkar edilmişdir. Bu birləşmələr arasında In_2Se_3 xüsusi diqqəti cəlb edir. Bu birləşmə $A^{III}B^{VI}$ tipli birləşmələrə aiddir. In_2Se_3 birləşməsi rütubətli mühitdə turşuların təsiri altında asanlıqla parçalanır, tədricən oksidləşir. Bu birləşmə qüsurlu bir quruluşa malikdir. Bu, metal atomlarının qəfəslərin altında tutulması ilə əlaqədardır. Quruluş və xassələrin bu tədqiqatları ilə yanaşı, müxtəlif müəlliflərin əldə etdikləri nəticələrin praktiki olaraq bir-birinə uyğun gəlmədiyi aşkar edilmişdir. Ədəbiyyatda bir neçə - α, β, γ, δ - bu fazaların sinqoniyasının olması ilə bağlı struktur məlumatları var. Müxtəlif müəlliflər tərəfindən alınmış In_2Se_3 birləşməsinin fiziki xüsusiyyətləri də əhəmiyyətli dərəcədə fərqlənir. Beləliklə, zolaq boşluğunun eni üçün 0,97-1,25eV, otaq temperaturunda isə zolağın eni üçün 2,35 eV qiymətləri alınmışdır ki, bu birləşmə p tipli keçiriciliyə malikdir və müqavimət $10\text{-}10^3$ Om •sm daxilində dəyişir. 400-800nm diapazonunda olan In_2Se_3 monokristalları yüksək optik udma əmsalına malikdir və fotoelektronikanın müxtəlif sahələrində geniş istifadə olunur.

Beləliklə, fiziki xassələrin öyrənilməsinə dair ədəbiyyat məlumatlarının əhəmiyyətli dərəcədə fərqləndiyinə görə biz xüsusi elektrik keçiriciliyinin, Hall əmsalının və termo-e.h.q. In_2Se_3-ün temperaturdan asılılıqlarını eksperimental olaraq tədqiq etdik və onların fiziki parametrlərini təyin etdik. In_2Se_3 birləşməsinin monokristalı Bricmen üsulu ilə alınmışdır. In və Se elementlərinin təmizlik dərəcəsi 99,9998% olmuşdur. Birləşmənin sintezi aşağıdakı qaydada aparılmışdır. Stexirometriyaya uyğun qarışıq havası 0,0133 Pa qədər sorulmuş kvars ampulaya doldurulmuşdur. Qarışığın temperaturu 100K/saat sürətlə 1000 K-ə qədər qaldırılmışdır. Bu temperaturda qarışıq doldurulmuş ampula 2 saat saxlanıldıqdan sonra ehmalca qarışdırılır, daha sonra ampulanın temperaturu elə həmin sürətlə də 1200K-ə qədər qaldırılır. Bu temperaturda da daha 2 saat saxlanılır. Bundan sonra içərisinə qarışıq doldurulmuş ampulanın silkələnməsi dayandırılır, ampula qarışığın bərkiməsinə qədər yenə də 2 K/saat sürətlə soyudulur. Alınmış kütlənin homogenləşməsi üçün maddə doldurulmuş ampula 150 saat müddətində 970K temperaturda tabalmaya qoyulmuşdur. Yetişdirilmiş monokristalın bircinsliyi rentgenofaza analizi ilə yoxlanılmışdır. Birləşmənin difraktoqramması DRON-3M rentgendifraktometrində CuK_α şüalanmasında (λ=1.54178Å) alınmışdır. Alınmış rentgenoqrammaya əsasən In_2Se_3 birləşməsinin qəfəs parametrləri təyin edilmişdir. Müəyyən edilmişdir ki, bu birləşmə heksaqonal sinqoniyada kristallaşır, qəfəs parametrləri a=4025 Å, c=28762 Å təşkil edir.

Alınmış birləşmənin monokristalının elektrofiziki xassələrinin: xüsusi elektrik keçiriciliyinin, Holl əmsalının, holl yürüklüyünün temperatur asılılıqları tədqiq edilmişdir. Tədqiqatlar 300-420K temperaturunda aparılmışdır. Nəticələr şəkil 1-də (a və b) verilmişdir. Şəkil 1a-dan göründüyü kimi

temperaturun artması ilə birləşmənin xüsusi elektrik keçiriciliyi xətti qanunla artır, Holl əmsalı (şəkil 1b) isə xətti qanunla azalır. Bu isə o deməkdir ki, In_2Se_3 birləşməsi xarakterik yarımkeçirici materialdır.



Şəkil 1. In_2Se_3 birləşməsinin xüsusi elektrik keçiriciliyinin *(a)*, Holl əmsalının *(b)* temperatur asılılıqları

Xüsusi elektrik keçiriciliyinin və Holl əmsalının temperatur asılılıqlarının yüksək temperaturlu mailliklərinə əsasən birləşmənin qadağan olunmuş zonasının eni təyin edilmiş və aşkar edilmişdir ki, həmin birləşmənin xüsusi elektrik keçiriciliyinə (0.9 eV) və Holl əmsalına əsasən (0.89 eV) təyin edilmiş qadağan olunmuş zonaların eni həm bir-birilə, həm ədəbiyyat məlumatlarında verilən məlumatlarla, həm də birləşmənin bizim tərəfimizdən tədqiq edilmiş zona quruluşuna əsasən alınmış qiymətlə (0.9 eV) kifayət qədər yaxşı uzlaşır.

In_2Se_3 birləşməsində sərbəst yükdaşıyıcıların yürüklükləri $\mu=\sigma R$ düsturuna əsasən təyin edilmiş holl yürüklüyünün temperatur asılılığının (şəkil 2) təhlili göstərmişdir ki, yürüklüyün temperaturdan asılı olaraq dəyişməsi $T^{-3/2}$ qanunu ilə baş verir. Bu isə o deməkdir ki, həmin birləşmədə yükdaşıyıcıların səpilməsi əsasən uzununa akustik fononlardan baş verir.



Şəkil 2. In_2Se_3 birləşməsinin holl yürüklüyünün temperatur asılılığı

Ədəbiyyat:

Боднарь, И.В., Ильчук, Г.А., Петрусь, Р.Ю., Рудь, В.Ю., Рудь, Ю.В., Сергинов, М. (2009) Электрические свойства монокристаллов In_2Se_3 и фоточувствительность барьеров Шоттки Al/In_2Se_3 Физика и техника полупроводников, 43(9), с. 1179-1182

Vilaplana, R., Parra, S.G., Jorge-Montero, A., Rodŕíguez-Hernandez, P., Munoz, A., Errandonea, D., Segura, A., Manjoń, F.J. (2018) Experimental and Theoretical Studies on α- In_2Se_3 at High PressureInorganic Chemistry 57 (14), 8241-8252

Алигулиева, Х.В., Abdullayev, N.A., Alekperov, O.Z., Zverev, V.N., Kerimova, A.M., Mamedov, N.T. (2017) Journal of Thermoelectricity **1**, 40

Алигулиева, Х.В., Абдуллаев, Н.А., Джафарли, К.М., Алиева, Л.Н., Кахраманов, С.Ш., Немов, С.А. (2017) Физика и техника полупроводников", Санкт-Петербург, т.**51**, *7*, 981

Ye, J., Soeda, S., Nakamura, Y. and Nittono, O. (1998) Crystal structure and phase transformation in In_2Se_3 compound semiconductor, , Jpn. J. Appl. Phys. **37**, Part 1, No. 8, 4264–4271

MYCOBIOTA OF FRUIT GARDEN CULTIVATED IN ABSHERON-KHIZI ECONOMIC-GEOGRAPHICAL DISTRICT

Arabova Gultakin Gara

Institute of Microbiology

https://orcid.org/0000-0002-2019-3298

gulu.arabova@mail.ru

Rəyçi:

Baxşəliyeva Könül Fərrux qızı,

Biologiya elmləri doktoru, professor

Summary

Transition from traditional gardens to intensive and super-intensive horticulture in the country in order to satisfy the domestic demand and grow export-oriented and competitive products is one of the actual solutions in the direction of obtaining highly sustainable and abundant crops in the development of agriculture in Azerbaijan. Researches were carried out by taking samples from various orchards (grapes, figs, almonds, olives, mulberries, pomegranates, etc.) planted in Absheron-Khizi economic-geographical region. Out of 100 soil and plant samples, 79 pure cultures were obtained and 37 types of fungi were detected. Of the identified fungi, 49.7% belong to Ascomycota, 48.5% to Basidiomycota and 1.8% to Mucormycota.

Key words: Absheron-Khizi, fruit plants, mycobiota, phytopathogenic species.

МИКОБИОТА ПЛОДОВОГО САДА, ВОЗДЕЛЫВАЕМОГО В АБШЕРОН-ХЫЗЫНСКОМ ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКОМ РАЙОНЕ

Арабова Гюльтекин Гара

Институт Микробиологии

https://orcid.org/0000-0002-2019-3298

gulu.arabova@mail.ru

Резюме

Переход от традиционных садов к интенсивному и сверхинтенсивному садоводству в стране с целью удовлетворения внутреннего спроса и выращивания экспортоориентированной и конкурентоспособной продукции является одним из актуальных решений в направлении получения высокоустойчивых и обильных урожаев в развитии сельского хозяйства в Азербайджане. сследования проводились путем отбора проб из различных фруктовых садов (виноград, инжир, миндаль, оливки, шелковица, гранат и др.), посаженных в Абшерон-Хызинском экономико-географическом районе. Из 100 взятых проб почвы и растений получено 79 чистых культур и выявлено 37 видов грибов. Из выявленных грибов 49,7% относятся к Ascomycota, 48,5% – к Basidiomycota и 1,8% – к Mucormycota.

Ключевые слова: Абшерон-Хызы, плодовые растения, микобиота, фитопатогенные виды

ABŞERON-XIZI İQTİSADİ-COĞRAFİ RAYONU ƏRAZİSİNDƏ BECƏRİLƏN MEYVƏ BAĞLARININ MİKOBİOTASI

Ərəbova Gültəkin Qara

Mikrobiologiya İnstitutu

https://orcid.org/0000-0002-2019-3298

gulu.arabova@mail.ru

Ölkədaxili tələbatın ödənilməsi, ixracyönümlü və rəqabətqabiliyyətli məhsulların yetişdirilməsi məqsədilə ölkə ərazisində ənənəvi bağlardan intensiv və superintensiv bağçılığa keçid Azərbaycanda kənd təsərrüfatının inkişafında yüksək dayanıqlı və bol məhsulun alınması istiqamətində aparılan aktual həll yollarındandır. Abşeron-Xızı iqtisadi-coğrafi regionu əlverişli mühit şəraiti ilə Azərbaycanın kənd təsərrüfatı məhsullarından, xüsusilə badam, üzüm, nar, əncir, zeytun, tut və s. olan tələbatın ən çox ödənildiyi zonalardandır. Regionda 50-60 il əvvəl salınan ənənəvi bağlar bioloji inkişaf dövrünü başa vurmuş sayıldığından, intensiv bağların salınması fermerlər tərəfindən daha səmərəli hesab edilir və məhsuldarlığın 3-4 dəfə artmasına səbəb olur. Abşeron Xızı iqtisadi-coğrafi rayonu ərazisində əkilmiş meyvə bağlarının mikobiotasının öyrənilməsi, aşkarlanmış göbələk növlərinin toksiki aktivliyinin müəyyənləşdirilməsi istiqamətində aparılan tədqiqatlar xəstəliklərlə mübarizə üsullarının hazırlanmasında aktualdır.

Tədqiqatlar Abşeron-Xızı iqtisadi-coğrafi regionu üzrə əkilən müxtəlif meyvə bağlarından (üzüm, əncir, badam, zeytun, tut, nar və s.) nümunələr götürülərək aparılmışdır. Götürülən 100 torpaq və bitki nümunəsindən 79 təmiz kultura əldə edilmiş və 37 göbələk növü aşkar olunmuşdur: *Alternaria cinsindən (A.alternata, A.mali, A.solani), Aspergillus (A.flavus, A.niger, Aspergillus parasiticus, Aspergillus carbonarius, Aspergillus ochraceus), Fusarium (F.moniloforme, Fusarium oxysporum, F.solani), Pencillium (P.brevicompactum, P.rubrum, P.cyclopium, Penicillium verrucosum), Rhizopus (Rh.solonifera), Trichoderma (T.asperellum, T.artroviride), Verticillium (V.dahile, V.lateritum).* İdentifikasiya olunmuş göbələklərdən 49,7% *Ascomycota*, 48,5%-i *Basidiomycota* və 1,8%-i isə *Mucormycota* şöbəsinə aiddir.

Belə ki, növ sayına görə şöbə səviyyəsində ikinci olan *Bazidiomycota* şöbəsinə aid olan göbələklər əsasən torpaqda və bitkilərdə yayılırlar. Bitkilərdə yayılma qabiliyyətinə malik olanların bir hissəsini isə ksilotrof göbələklər təşkil edir ki, onlar da yalnız bitkinin oduncağında məskunlaşa bilirlər. Bu səbəbdən bazidiomisetlərin az hissəsi bitkilərin mikobiotasının formalaşmasında iştirak edir. Kisəli göbələklərin üstünlüyünü anamorf və telemorf növlərin mikobiotada say nisbəti ilə bağlıdır. Kisəli göbələklərin anamorflarına aid növlərində ekzogen sporların-konidilərin əmələ gəlməsi xarakterikdir. *Alternaria alternata, A.solani, Aspergillus parasiticus, A.flavus, A.niger, A.ochraceus, F.moniliforme, F.oxysporium, F.solani, Penicillium brevicompactum, Penicillium verrucosum, Trichoderma atroviride, T.viride, V.lateritum, V.dahile* növü anamorflara aiddir.

Tədqiqatların gedişində qeydə alınan göbələklər bitkilərdə müxtəlif patologiyalar törətmişdir. *Alternaria, Ascochyta, Botrytis, Fuzarium, Phoma, Puccina, Septoria, Urocystis, Uromyces, Verticellium* və s. cinslərə aid növlər bitkilərdə kif, pas, solma, qara və qəhvəyi ləkələr, çürümə, unlu şeh və s. törədərək onların həm morfoloji, həm də biokimyəvi göstəricilərinə ciddi dəyişikliklərə səbəb olmuşlar. Qeyd edilən göbələklərin bir çoxu həyat fəaliyyətləri nəticəsində ikincili metabolit olaraq fitohormonlar və ya mikotoksinlər kimi bioloji aktiv maddələr sintez etmək

qabiliyyətinə malikdirlər. Onların bəziləri praktiki faydalı olsa da, bəziləri insan sağlamlığı üçün ciddi fəsadlar törətmək xüsusiyyəti ilə xarakterizə olunurlar.

Beləliklə, aparılan tədqiqatlardan aydın olur ki, Abşeron-Xızı iqtisadi-coğrafi rayonu göbələklərin öz patoloji fəaliyyətlərini həyata keçirdikləri yerlərdən biridir. Tədqiqatlar zamanı müəyyən edilmiş göbələk növləri üç şöbədə cəmlənmiş 37 göbələk növü aşkar edilmişdir ki, bunların da arasında anamorflar üstünlük təşkil etmişdir. Rayon ərazisindəki meyvə bağlarının mikobiotasının və yaranan patologiyaların öyrənilməsi mübarizə tədbirlərinin hazırlanmasını zəruri edir.

Ədəbiyyat:

Axundov, T.M. (2008) Azərbaycanın mikobiotası./T.M.Axundov, B.B.Eyyubov, S.Ə.Əhmədov. -Bakı: “Təhsil” n-tı,.

Baxşəliyeva, K.F. (2022) Azərbaycanın toksigen mikobiotası: növ tərkibi, ekobioloji xüsusiyyətləri/ K.F.Baxşəliyeva. -Bakı.

Kərimov, Z.M., Yusifova, A.Ə., Əbilova (Rzayeva), A.L. (2012) Müxtəlif materialların mikrobiotasının öyrənilməsi üçün metodun seçilməsi//-Bakı: AMEA-nın Mikrobiologiya İnstitutunun elmi əsərləri, c.10, № 2.

Доспехов, Б.А. (1985) Методика полевого опыта (с основами статистической обработки результатов исследований): учеб. пособие. - 5 изд., доп. и перераб./ Б.А.Доспехов. - М.:Агропроиздат.

Ellis M.B., Ellis J.P. (1997) Microfungi on land plants: an identification handbook. Slough: RP Richmond Publ.

CHOROLOGY AND GEOBOTANICAL ANALYSIS OF SOME SPECIES OF *CRASSULACEAE D.C.* SEASON DISTRIBUTED IN THE SMALL CAUCASUS

Akbarova Cicek Mubariz

Baku State University

https://orcid.org/0000-0003-1475-7517

cicekekberova59@gmail.com

Rəyçi:

Baxşəliyeva Könül Fərrux qızı,

Biologiya elmləri doktoru, professor

Summary

In terms of floristic richness, the territory of our Republic occupies a special place. Here, Iran-Turan, the Mediterranean Sea, and the Caucasus are very similar to each other in terms of the similarity of climate characteristics. Cabbage species are distributed in many parts of the world, especially in the mild zone of the northern hemisphere. The *Crassulaceae D.C.* family is represented by 4 genera in Azerbaijan and 2 genera in the Lesser Caucasus, which is our research area. *Crassulaceae D.C.* family species occupy a special place among the poorly represented leaf succulents in the plant world. The genus *Sedum L.* of the section was first studied in the flora of Azerbaijan by I.I. Karyagin. Based on the chorological and geobotanical analysis of some species of the family with different geographical areas, the geographical elements were determined based on the system of N.N. Portnyeri.

Keywords: geographical element, succulent, chorological, geobotanical, phenological

ХОРОЛОГИЯ И ГЕОБОТАНИЧЕСКИЙ АНАЛИЗ НЕКОТОРЫХ ВИДОВ *CRASSULACEAE D.C.* ГЛАВЫ, РАСПРОСТРАНЕННЫХ НА МАЛОМ КАВКАЗЕ

Акбарова Чичак Мубариз

Бакинский государственный университет

https://orcid.org/0000-0003-1475-7517

cicekekberova59@gmail.com

Резюме

По флористическому богатству территория нашей Республики занимает особое место. Здесь Иран-Туран, Средиземное море и Кавказ очень похожи друг на друга по схожести климатических характеристик. Виды капусты распространены во многих частях света, особенно в умеренной зоне северного полушария. Семейство *Crassulaceae D.C.* представлено 4 родами в Азербайджане и 2 родами на Малом Кавказе, где проводятся наши исследования. Виды семейства *Crassulaceae D.C.* занимают особое место среди малопредставленных в растительном мире листовых суккулентов. Род *Sedum L.* секции впервые был изучен во флоре Азербайджана И.И. Карягиным. На основе хорологического и геоботанического анализа некоторых видов семейства с разными географическими ареалами определены географические элементы по системе Н.Н. Портньери.

Ключевые слова: географический элемент, суккулент, хорологический, геоботанический, фенологический.

KİÇİK QAFQAZDA YAYILAN *CRASSULACEAE D.C.* FƏSİLƏSİNİN BƏZİ NÖVLƏRİNİN XOROLOJİ VƏ GEOBOTANİKİ ANALİZİ.

Əkbərova Çiçək Mübariz

Bakı Dövlət Universiteti

https://orcid.org/0000-0003-1475-7517

cicekekberova59@gmail.com

Biomüxtəlifliyin qorunması günümüzün ən vacib məsələlərindən biridir.Bildiyimiz kimi bitkilər aləmi insanın həyatında mühüm əhəmiyyətə malikdir.Azərbaycan florasında əhəmiyyətli, bitkilər çoxdur. *Crasullaceae D.C.* fəsiləsi növlərinin bitkilər aləmində zəif təmsil olunan yarpaq sukkulentləri sırasında öz yeri vardır. (Kurkin et al., 1986; Plant resources., 1990). *Crassulaceae D.C.* fəsiləsi botaniki, fizioloji və iqtisadi baxımdan böyük maraq doğurur. Bu fəsilənin növləri dünyanın hər yerində, əsasən quru, isti və mülayim bölgələrdə geniş yayılmışdır. Dovşankələmi fəsiləsi (Sedum L.cinsindən fərqli) Azərbaycan florasında L.İ.Prilipko tərəfindən 1953 cü ildə işlənilmişdir. Fəsiləyə dünyada 33 cinsdə toplanmış 1500 növ, Azərbaycanda isə 4 cinsdə 36 növ daxildir ki,bunlardan 18 növ tədqiqat ərazimiz olan Kiçik Qafqazda yayılmışdır. Bunların içərisində dekorotiv bitkilərin xüsusi yeri vardır. Belə ki, dekorotiv bitkilər bağların, parkların,salınmasında insanların zövqünü oxşamaqla xüsusi əhəmiyyət kəsb edir. Cinsin növləri əsasən orta və subalp qurşaqda daşlı qayalı yerlərdə, qaya töküntülərində, çınqıllı ərazilərdə geniş yaylmışdır. Xarici görünüşünün gözəlliyi onlardan landşaft dizaynında istifadə edilməsinə imkan yaradır. Cins Azərbaycan florasında İ.İ.Karyagin tərəfindən işlənilmişdir. Bu araşdırmadan 60 il keçmiş, cinsin sistematikası, bioekoloji xüsusiyyətləri, taksonomiyasının yenidən araşdırılmasına ehtiyac yaranmışdır. Aparılan tədqiqatlar nəticəsində coğrafi elementlərin də araşdırılmasına zəmin yaranmışdır. Floristik zənginliyi baxımından Respublikamızın ərazisi xüsusi bir yer tutur və burada İran-Turan, Aralıq dənizi, Qafqaz iqlim xüsusiyyətlərinin oxşarlığı baxımından bir-birilərə çox bənzəyir. Azərbaycan Aralıq dənizi və İran–Turan elementlərinin birləşdiyi iki floristik vilayətdə yerləşən, 4 əyalətdən (Atropatan, Qafqaz, Hirkan və Turan) təşkil olunmuşdur. Bunlardan Qafqaz 5 (Quba, Xəzər ətrafı, Qobustan, Şamaxı, Kiçik Qafqaz), Atropatan 2 (Naxçıvan, Diabar) Hirkan 1 (Talış), Turan 2 (Şərqi Qafqaz, Abşeron) botani-coğrafi rayondan ibarət, daha böyük areala sahib olan daim inkişafını davam etdirən qədim hesab edilir.

Aparılan araşdırmalar göstərdi ki, dovşankələmi növlərindən 1 növ (S.acre) yalnız Kiçik Qafqazda, 2 növ (S.hispanicum, S.pentapetalum) Azərbaycanın hər yerində, 6 növ (S.pilosum, S.oppositifolium, S.gracile,S.pallidum, S.annum, S.subulatum) BQ., KQ., Nax.Diab., Lənk.ərazisində, 1 növ (S.stoloniferum,) BQ, KQ, Lənkəran, 1 növ (S.tenellum) BQ, KQ, Nax. 1 növ (S.album) KQ, Nax. 1 növ (S.sempervivoides) Nax., KQ., Lənkəran ərazilərində yayılmışdır. Coğrafi arealları müxtəlif olan Sedum L. cinsi növlərinin xoroloji analizini N.N.Portenierin sisteminə əsaslanaraq coğrafi elementlərini müəyyən etmişik.

Geniş yayılmış növlər

1. Sirkumboreal element – Bu elementə daxil olan növlərin əksəriyyətinin təbii arealı daha çox Köhnə və Yeni dünyanı əhatə edir.

S.album L. - ağ dovşankələmi. Sürünən çox budaqlı kökümsova malik çoxillik bitkidir. Yarpaqları növbəli düzülmüş,çiçək saplaqları çiçəklərdən uzun və ya qısadır. Seyrək yerləşən

çiçəkləri qalxan çiçək qrupunda toplanmışdır. Çiçəkləri ağ və ya çəhrayıdır. İyun avqust aylarında çiçək açır,iyul sentyabr aylarında meyvə verir. Çox dəyişkən növdür. Azərbaycanın bir çox ərazilərində qayalıqlarda, daşlı çınqıllı torpaqlarda yayılmışdır.1000-1800 m. hündürlükdə, orta və yuxarı dağ qurşağında, daşlı, qayalı yerlərdə yayılmışdır.

Boreal növlər

2. Avro-Qafqaz elementi. (caucaso-european element) Təbii arealı Sirkumboreal vilayətin Qafqaz–Avropa yarım vilayətini özündə birləşdirir. Burada yayılan növlər digər əyalətlərdə yayılmır.

S.acre L. 1300 m. hündürlükdə orta dağ qurşağında, qumlu çınqıllı quru yamaclarda rast gəlinir.

3. Qafqaz elementi. (caucasian element.) Bu növlər Boreal növlərdir. Buraya yalnız Qafqaz flora elementi deyil, həmçinin buraya yaxın əyalətlərin də bitkiləri daxildir. Xüsusilə Evksin əyaləti, Baş Qafqaz sıra dağları, Euqafqaz, əsl endemlər.

S.gracile - 1200-2500 m. hündürlükdə Alp və subalp qurşağın yuxarı meşələrində çınqıllı yamaclarda və qayalarda dağınıq halda rast gəlinir. Hemikriptofit.

S.oppositifolium Sims. -Qarşıyarpaq dovşankələmi- Uzun sürünən kökümsovlu çoxillik bitkidir.Yarpaqları qarşı-qarşıya tərs yumurtavari və tərs yumurtavari uzunsovdur. Ağ, sarımtıl yaşıl və ya çəhrayı çiçəkləri oturaq və ya qısa saplaqlı olmaqla qalxanvari çətir çiçək qrupunda toplanmışdır. Qayalıqlarda, qaya töküntülərində və ya daşlı yamaclarda yayılmışdır. İyul avqust aylarında çiçəkləyir, avqust sentyabr ayında meyvə verir. Subalp və alp qurşağında 1200-3000 m.hündürlükdə, daşlı çınqıllı açıq yamaclarda, ardıc cəngəlliyində yayılır.

S.tenellum M.B. 1600-3000 m. hündürlükdə, Alp və subalp qurşaqlarda daşlı, çınqıllı yamaclarda bitir.

4.Evksin elementi

S.annum L. 700 m–dən yuxarı, orta və yuxarı dağ qurşağında, daşlı qayalarda və qaya töküntülərində yayılmışdır.

Qədim Aralıq dənizi növləri

5. Aralıqdənizi elementi (mediterranean element) Bura daxil olan növlər 2 və daha çox əyalətlərdə , bitkilik formasiyalarında yayılmışdır.

S.hispanicum L.2400 m. hündürlükdə subalp qurşağında, quru, açıq, çınqıllı və qayalı ərazilərdə.

6.İran-Turan elementi. (irano-turanian element) Bu növlər Qədim aralıq dənizi növləridir. İran–Turan vilayətinə daxil olan növlər bu vilayətin 2 və bir qədər çox əyalətlərində yayılır.

S.subulatum(C.A.M.) Boiss. 1000-1800 m hündürlükdə orta və yuxarı dağ qurşağında, daşlı çınqıllı yamaclarda, qayalarda, firqanə tipli bitkilikdə, bəzən meşələrdə rast gəlinir.

S.pilosum M.Bieb. 1000 –1800 m-ə qədər hündürlükdə, orta və yuxarı dağ qurşağında qayalarda yayılmışdır.

S.stoloniferum S.G.Gmel. 1500 m-ə qədər hündürlükdə, aşağı və orta dağ qurşağında, meşə və kolluqlarda yayılmışdır.

S.pallidum M.B. 500-2500 metrə qədər hündürlükdə, düzənlikdən yüksək dağ qurşağına qədər, daşlı qayalı yamaclarda, meşələrdə, çay yataqlarında yayılmışdır.

S.sempervivoides`Fisch.in M.B. 700 m – dən yuxarı, orta və yuxarı dağ qurşağında, daşlı, çınqıllı yamaclarda yayılmışdır.

S.pentapetalum A.Bor 500-800 m hündürlükdə, aşağı dağ qurşağında gilli, daşlı, qayalı yerlərdə yayılmışdır.

Ədəbiyyat:

Babayev, F.A. (2004) Bitki coğrafiyası, Bakı, , .291 s

Bayramov, A.A. (1981) Növlərin adaptiv mahiyyətinin əsas xüsusiyyətləri. Sedum L. // Hesabatlar cild. XXXVII. №5.-səh 52-55.

Əsgərov, A.M. (2008) Azərbaycan florası, Bakı, 198-200 s

Qədirov, H.M., Quliyev V.Ş. (1986) Ali bitkilərin sistematikası. Bakı: Maarif.

Qurbanov, E.M. (2009) Ali bitkilərin sistematikası, Bakı, 419s

Karyagin, I.I. (1953) Azərbaycan Florası, Azərbaycan SSRİ, IV, Mad.328-353

Ghazanfar, S. A., Edmondson, J. R. (Eds). (2013-2019). Flora of Iraq, Volumes 5.1, 5.2 and 6.0. Kew Publishing

Govaerts, R., NicLughadha, E., Black, N., Turner, R. & Paton, A. (2021). The World Checklist of Vascular Plants, a continuously updated resource for exploring global plant diversity. https://doi.org/10.1038/s41597-021-00997 Scientific Data 8: 215.

Wu, Z. & Raven, P.H. (eds.) (2001). Flora of China 8: 1-506. Science Press (Beijing) & Missouri Botanical Garden Press (St. Louis).

Flora of Iraq H. Obha in J. Fac. Sci. Univ.Tokyo Ser. III, 12, 168 (1978)

The International Plant Names Index and World Checklist of Vascular Plants 2024. Published on the Internet at http://www.ipni.org

Dimopoulos, P., Raus, T., Bergmeier, E., Constantinidis, T., Iatrou, G., Kokkini, S., Strid, A., &Tzanoudakis, D. (2013). Vascular plants of Greece. An annotated checklist: 1-372. Botanic gardens and botanical museum Berlin-Dahlem, Berlin and Hellenic botanical society, Athens.

Комарницкий Н.А., Кудряшов Л.В., Уранов А.А. Ботаника: Систематика растений. Учебник. Просвещение, М., 1975.

Флора Азербайджана. Изд. АН Азерб. ССР, тт. 1-УШ, Баку, 1950-1961.

Черепанов С.К. (1995) Сосудистые растения России и сопредельных государств. С-Пб.: Мир и семья.

RESEARCH ON THE USE OF VITAMIN POWDERS OBTAINED FROM MULBERRY LEAVES IN THE PRODUCTION OF BREAD AND BUNS

Huseynov Amikishi Safar oglu

Azerbaijan Technical University

https://orcid.org/0009-0003-5770-7429

amikishi.huseynov@student.aztu.edu.az

Rəyçi:

Baxşəliyeva Könül Fərrux qızı,

Biologiya elmləri doktoru, professor

Summary

Recently, there is a growing tendency to enrich food products with natural ingredients, which serves to increase their nutritional value. The purpose of this study is to highlight the feasibility of incorporating mulberry (Morus alba) leaf powder into bread and bakery products. Mulberry leaves are known for being rich in vitamins, minerals and antioxidant components. The aim of the study was to find out how the powder obtained from the leaves of the mulberry tree affects the nutritional value, organoleptic properties and physico-chemical properties of ready-made products such as bread and rolls. The feedback from the research participants showed that increasing the vitamin content, antioxidant activity and consumer satisfaction without affecting the texture and taste of the product was significantly improved.

Keywords: Mulberry leaf, Morus alba, vitamin powder, bread enrichment, nutritional value.

ИССЛЕДОВАНИЕ ПО ИСПОЛЬЗОВАНИЮ ВИТАМИННЫХ ПОРОШКОВ, ПОЛУЧЕННЫХ ИЗ ЛИСТЬЕВ ШЕЛКОВИЦЫ, В ПРОИЗВОДСТВЕ ХЛЕБА И БУЛОЧЕК

Гусейнов Амикиши Сафар

Азербайджанский технический университет

https://orcid.org/0009-0003-5770-7429

amikishi.huseynov@student.aztu.edu.az

Резюме

В последнее время растет тенденция к обогащению пищевых продуктов натуральными ингредиентами, что способствует повышению их пищевой ценности. Целью данного исследования является выявление возможности включения порошка из листьев шелковицы (Morus alba) в хлеб и хлебобулочные изделия. Листья шелковицы известны тем, что богаты витаминами, минералами и антиоксидантными компонентами. Целью исследования было выяснить, как порошок, полученный из листьев шелковицы, влияет на пищевую ценность, органолептические свойства и физико-химические свойства готовых продуктов, таких как хлеб и булочки. Отзывы участников исследования показали, что увеличение содержания витаминов, антиоксидантной активности и удовлетворенности потребителей без влияния на текстуру и вкус продукта значительно улучшилось.

Ключевые слова: листья шелковицы, Morus alba, витаминный порошок, обогащение хлеба, пищевая ценность.

TUT YARPAQLARINDAN ALINAN VİTAMİNLİ TOZLARIN ÇÖRƏK VƏ BULKA İSTEHSALINDA İSTİFADƏSİNİN TƏDQİQİ

Hüseynov Əmikişi Səfər

Azərbaycan Texniki Universiteti

https://orcid.org/0009-0003-5770-7429

amikishi.huseynov@student.aztu.edu.az

1. Giriş

Sağlam qidalanmanın əhəmiyyəti barədə məlumatlılığın artması, funksional qidaların qidalılıq dəyəri ilə yanaşı sağlamlığa fayda verən funksional qidalara olan tələbi artırıb. Bir çox mədəniyyətdə əsas qida vasitəsi olan çörək, müxtəlif bioaktiv maddələrlə zənginləşdirilmək üçün uyğundur. Tut (*Morus alba*) yarpaqları ənənəvi olaraq bitki mənşəli təbabətdə və heyvan yemi kimi istifadə olunur. Yüksək qida tərkibi, xüsusilə C vitamini, B qrupu vitaminləri və K vitamini kimi vitaminlər və antioksidant xüsusiyyətləri ilə tanınır (Chen, 2023: 1205-1210).

Bu tədqiqat, çörək və bulka istehsalında təbii əlavələr kimi tut yarpaqlarından əldə edilən vitamin tozlarının istifadəsinin mümkünlüyündən bəhs edir. Bu tədqiqatda, çörək məhsullarının qida profilini yaxşılaşdırmağı və onların keyfiyyətlərinə, dad göstəricilərinə, saxlama müddətinə və istehlakçıların seçimlərinə təsirini qiymətləndirməyi hədəfləyir (Chen, 2023: 1210-1215).

2. Materiallar və metodlar

2.1. Tut yarpağı tozunun hazırlanması

Təzə tut yarpaqları toplanmış, yuyulmuş və xırdalanmadan əvvəl 50 °C-də qurudulmuşdur. Yarpaqlar daha sonra yarpaq tozu əldə etmək üçün xırdalanmış və toz halına salınmışdır. Əldə edilən tut yarpağı tozu C vitamini və bəzi B qrupu vitaminləri kimi vitamin analizlərinə məruz qalmışdır.

2.2. Çörək və bulka hazırlanması

Çörək və bulka standart bişirmə reseptlərinə uyğun olaraq, aşağıdakı dəyişikliklərlə hazırlanmışdır:

- Nəzarət partiyaları: Tərkibə tut yarpağı tozu əlavə edilməmişdir.
- Eksperimental partiyaları: Un tərkibinin 1%, 3% və 5%-i nisbətində tut yarpağı tozu əlavə edilmişdir.

Qarışıq yoğrulmuş, qıcqırdılmış (acıma) və ən az 180°C olmaqla ən azı 20 dəqiqə müddətində bişirilmişdir. Hazırlanmış çörək və bulkanın keyfiyyət xüsusiyyətləri, teksturası və qidalılıq dəyəri bişirildikdən sonra analiz edilmişdir.

2.3. Qidalılıq dəyəri analizi

Çörək və bulkadakı vitamin tərkibinin miqdarı Yüksək Performanslı Maye Xromatoqrafiyası (HPLC) üsulu ilə müəyyən edilmişdir. Antioksidant aktivliyi DPPH (2,2-difenil-1-pikrilhidrazil) sərbəst radikalını tutma testi ilə qiymətləndirilmişdir.

3. Nəticələr

3.1. Qidalılıq tərkibi

Analiz nəticələri göstərir ki, tut yarpağı tozunun çörək və bulkaların hazırlanmasında istifadəsi vitamin tərkibinin çox yüksək artımına səbəb olmuşdur. 1%, 3% və 5% toz əlavə edilən partiyalarda C və B qrupu vitaminlərinin səviyyəsi ilə yanaşı, antioksidant aktivliyi də artmışdır. Aşağıdakı Cədvəl №1-də bütün partiyalardakı vitamin tərkibini göstərir:

Cədvəl 1.

Nümunə	Vitamin C (mq/100q)	Vitamin B6 (mq/100q)	Antioksidant aktivliyi (%)
Nəzarət nümunəsi	0.5	0.1	11
1%-li tut yarpağı	2.1	0.4	33
3%-li tut yarpağı	4.7	0.7	51
5%-li tut yarpağı	6.1	0.9	67

3.2. Orqanoleptik analiz

3% və 5%-li konsentrasiyalarla hazırlanmış partiyalarda yüngül bitki dadına qarşı bəzi etirazlar oldu, amma ümumi qəbul edilə bilən indeks yüksək qaldı. Çörək və bulkalara 1% və 3% tut tozu əlavə edilməsi istehlakçılar tərəfindən dad, tekstura və aroma baxımından qəbul edildi. 5%-li partiya üçün isə, tərkibdə aşkar edilən daha güclü bitki dadı səbəbindən ümumi üstünlük balı aşağı oldu.

3.3. Tekstura və saxlama müddəti

Çörək və bulka məhsullarının qabığı, yumşaqlığı və çörək içinin strukturu bütün partiyalarda eyni qaldı. Tut yarpağı tozunun antioksidant xüsusiyyətləri saxlanma müddətinə faydalı olmuşdur, çünki 3 gün və 7 gün saxlanılan eksperimental çörək məhsullarında nəzarət partiyası ilə müqayisədə mikrobioloji saylar və rütubət itkisi aşağı olmuşdur.

4. Müzakirə

Bu tədqiqatın nəticələri göstərir ki, tut yarpağı tozu çörək və bulka məhsullarının qidalılıq dəyərini artırmaq üçün istifadə edilə bilən potensial bir təbii inqrediyentdir. Həmçinin, tozun vitaminlər və antioksidantlar baxımından müvafiq doza təqdim etdiyi müəyyən edilmişdir ki, bu da zənginləşdirilmiş məhsulların sağlam həyat tərzi sürən istehlakçılar üçün əlçatan olmasını təmin edir (Wang, 2022: 131-134). 1% və 3% tut yarpağı tozu əlavə edilən məhsullar istehlakçılar tərəfindən yaxşı qarşılanmışdır. Lakin 5% tut yarpağı tozu bir qədər fərqli və acı dad vermişdir ki, bu da bəzi qruplarda qəbul edilə bilər. Tut yarpağı tozunun bir digər mənfi cəhəti ümumi dada təsir etməsi ola bilər, amma bu böyük miqdarda istifadə edilsə belə, kiçik bir narahatlıqdır. Bunu aradan qaldırmaq üçün qarışığa digər inqrediyentlər və ya ədviyyatlar əlavə etməklə düzəldilə bilər (Zhang & Zhou, 2021: 232-237). Gələcək tədqiqatlar üçün tut yarpağı tozu olan digər bişirilmiş məhsullar və tozun digər funksional inqrediyentlərlə birləşdirilərək istifadəsi imkanları vardır.

5. Nəticə

Tut yarpağı tozunun çörək və bulkalara əlavə edilməsi funksional qidaların qidalıq dəyərini artırır. Bu bişirilmiş məhsullara vitaminlər və antioksidantlar qazandırmaqla sağlamlığa daha

faydalı funksional qidaların istehsalına kömək edir. Tədqiqatlar daha çox, bu məhsulların orqanoleptik cəhətlərini təkmilləşdirməyə və bazar imkanlarını araşdırmağa yönəlməlidir.

Ədəbiyyat:

Chen, J., et al. (2023). *Nutritional benefits of mulberry leaves: A comprehensive review.* Journal of Food Science, 87(5), 1203-1215.

Wang, X., et al. (2022). *Fortification of baked goods with plant-based powders: Effects on nutrition and texture.* Food Chemistry, 356, 128-135.

Zhang, Y., & Zhou, L. (2021). *Antioxidant properties of mulberry leaf extracts in food applications.* International Journal of Food Science, 29(2), 230-239.

PREPARATION OF ELECTRONIC BLOCKS FOR NEW GENERATION OPTICAL SENSORS

Suleymanova Narmin Yashar

Sumgayit State University

https://orcid.org/0000-0003-2691-2254

suleymanova.narmin@inbox.ru

Rəyçi:

Quliyeva Gülnarə Hüseyn qızı,

Fizika üzrə fəlsəfə doktoru, dosent

Summary

Currently, various types of silicon photomultipliers are available, tailored to different application areas. The production technology for these devices is continuously improving, which is a key factor in developing more sensitive, linear, and uniform photodiodes. This progress aims to integrate silicon photomultipliers or micropixel avalanche photodiodes (MAPDs) into fields that require high photodetection efficiency. This work presents the development of specialized electronic readout modules for such optical sensors. It details the manufacturing processes of compact voltage sources to maintain the sensor's operating voltage, an analog-to-digital converter for processing the photonic signals received from the sensor, and a signal amplifier for further signal reading.

Keywords: MSFD, gamma, scintillator, matrix, photoamplifier, digital converter, electrical circuit

ПОДГОТОВКА ЭЛЕКТРОННЫХ БЛОКОВ ДЛЯ ОПТИЧЕСКИХ ДАТЧИКОВ НОВОГО ПОКОЛЕНИЯ

Сулейманова Нармин Яшар

Сумгаитский государственный университет

https://orcid.org/0000-0003-2691-2254

suleymanova.narmin@inbox.ru

Резюме

В настоящее время существует множество разновидностей кремниевых фотоприемников, адаптированных для различных областей применения. Технология их производства постоянно совершенствуется, что является ключевым фактором в разработке более чувствительных, линейных и однородных фотодиодов. Это направлено на внедрение кремниевых фотоприемников или микропиксельных лавинных фотодиодов (MAPD) в области, требующие высокой эффективности фотодетектирования. В данной работе представлена разработка специализированных электронных считывающих модулей для таких типов оптических сенсоров. Описаны процессы создания компактных источников напряжения для поддержания рабочего напряжения сенсора, аналогово-цифрового преобразователя для обработки фотосигналов, полученных от сенсора, а также усилителя сигналов для дальнейшего считывания данных.

Ключевые слова: МСФД, гамма, сцинтиллятор, матрица, фотоусилитель, цифровой преобразователь, электрическая схема.

YENİ NƏSİL OPTİK SENSORLAR ÜÇÜN ELEKTRONİKA BLOKLARININ HAZIRLANMASI

Süleymanova Nərmin Yaşar

Sumqayıt Dövlət Universiteti

https://orcid.org/0000-0003-2691-2254

suleymanova.narmin@inbox.ru

Enerji sərfiyyatının azaldılması məqsədi ilə son zamanlar yarımkeçirici əsaslı fotoçeviricilər geniş istifadə olunur. Müasir texnologiyanın inkişafı bu tip fotoçevirici elementlərin daxili struktrunun dəyişdirilməsinə, yaranan elektrik siqnallarının gücləndirməsinə və daha kiçik enerjili zərrəciklərin qeyd olunmasına şərait yaradır. Daxili quruluşuna və gücləndirmə xüsusiyyətinə görə bu tip fotogücləndiricilərə mikropikselli selvari fotodiodlar (MSFD) deyilir.

Xammal olaraq təbiətdə geniş yayılmasına və üstün yarımkeçirici xassəsinə görə Silisium əsaslı yarımkeçiricilərin hazırlanması daha məqsədəuyğun hesab olunur. Silisium əsaslı fotogücləndiricilər, xüsusilə yüksək həssaslıq və xəttilik tələb edən müasir elmi və texnoloji sahələrdə geniş istifadə olunur [1-4]. MSFD strukturlu fotodiodlar əsasında yüksək keyfiyyətli optik sensorlar və radiasiya detektorları hazırlanmağa başlanmışdır. Bununla yanaşı bu tip fotodiodlar xüsusilə yüksək enerjilər fizikasında, kosmik tədqiqatlarda, tibbi görüntüləmə texnologiyalarında, Çerenkov teleskoplarında, hərbi sənayedə (lazer izləmə sistemləri), avtomobil sənayesində (məsafə ölçmə texnologiyaları) və təhlükəsizlik sahələrində (spektroskopiya və dozimetriya) geniş tətbiq edilir. Qeyd olunan tətbiq sahələrinin olmasına səbəb MSFD əsaslı detektorların geniş enerji intervalında xəttiliyə, kiçik enerji ayırdetməsinə malik olması, aşağı gərginlikdə işləməsi və radiasiya davamlılığı kimi mühim xüsusiyyətlərə sahib olmasıdır [5,6].

Həssalığın yüksək olması MSFD tipli fotoçeviricilərin kənar təsirlərə məruz qaldıqda əlavə siqnallar yaratmasına səbəb olur. Kənar təsirlər dedikdə fotoçevirici üzərinə düşən elektromqnit dalğaları, qidalanma gərginliyinin qeyri sabitliyi, alınan siqnallarının gücləndirilməsi zamanı yaranan xətalar və s. nəzərdə tutulur. Bu tip kənar təsirlərdən qorunmaq məqsədi ilə ilkin olaraq MSFD tipli fotodiodların elektronika blokunun yüksək dəqiqliklə hazırlanması, burada istifadə olunacaq komponentlərin düzgün seçilməsi, diodun qidalanma gərginliyinin stabil olması, yaranan siqnalın filtirlənməsi və düzgün şəkildə gücləndirilməsi təmin edilməlidir.

Bu tezis MSFD tipli fotodiodların elektronika blokunun hazırlanmasına həsr edilmişdir. Elektronika bloku yığılmazdan öncə laboratoriya şəraitində təcrübi dövrə yığılmış, diodun işləmə gərginliyi təyin edilmiş və yaranan siqnallar analiz edilmişdir. Təcrübi dövrə şəkil 1-də göstərilmişdir.



Şəkil 1. MSFD tipli fotodiodların test olunması üçün təcrübi dövrə

Şəkil.1 - də göstərilən gərginlik çeviricisi (GÇ) Keithley firmasının mkV və nA dəqiqliyə malik sabit gərginlik mənbəyidir. Bu cihaz vasitəsi ilə tədqiq olunan MSFD diodlar gərginliklə təmin edilərək, dəqiq işləmə gərginliyi təyin edilmişdir. Bununla yanaşı metal qutu içərisində fotoçeviricinin girişində LOW Pass (Yalnız aşağı tezlikli siqnalları buraxan), çıxışında isə HIGH Pass (Yalnız yuxarı tezlikli siqnalları buraxan) filter yığılmışdır. Filterlənmiş siqnal osilloqrafa verilərək siqnalın forması, tezliyi, davametmə müddəti, amplitudu təyin olunmuşdur.

MSFD tipli fotogücləndiricilərin diodlar seriyasından və ətraf mühitin temperaturundan asılı olaraq 90 – 95V intervalında işləmə gərginliyinə malik olması və üzərinə işıq şüası düşdükdə yaranan siqnalın amplitudunun 10mV ilə 30mV arasında dəyişdiyi müəyyən edilmişdir. Qeyd olunan gərginlik praktik gərginlik olmadığından müasir standartlara cavab verən, 5V USB vasitəsi ilə işləyə bilən DC-DC gərginlik çeviricisi və alınan kiçik siqnalların mikrokontroller və ya digər rəqəmsal – analoq çeviricilər vasitəsi ilə oxunmasını təmin etmək üçün siqnal gücləndirici sxemin yığılması qərara alınmışdır.

Təcrübi dövrədən təyin olunan parametrlər əsasında Proteus proqramında gərginlik çevirici (Şəkil.2) və siqnal gücləndirici (Şəkil.3) dövrəsi yığılmışdır.



Şəkil.2. 5V -dan 95V -a DC-DC gərginlik çeviricilərinin elektrik dövrəsi

Gərginlik çeviricinin yığılmasında MC34063A requlyatorlarından istifadə olunmuşdur. MC34063A -nın əsas parametrləri aşağıda qeyd edilmişdir:

- Qidalanma gərginliyi: 3V÷40 V

- Çıxış cərəyanı: 1.5 A
- Maksimal işləmə tezliyi: 100 kHs
- İşləmə temperatur intervalı: -65 ÷ +150 C°

MC34063A kanalarından biri impuls generatoru kimi istifadə edilib. İmpuls düzbucaqlı formalı olub, tezliyi 15000Hs, amplitudu 3V, davametmə müddəti isə 30µsan-dir. MC34063A kanalından alınan impuls induktivliyi 1000uH olan induktora verilir. Bu zaman induktiv sarğacda toplanan enerji tezlikdən asılı olaraq Şotki diod vasitəsi ilə tutumları 10nF olan kondensatora boşalır. Kondensatorda toplanan yük gərginliyin yenidən artmasına səbəb olur. Beləliklə kondensator-diod cütünün sayını artırmaqla çıxış gərginliyi artırılmışdır.

Tətbiq edilən gərginliyi dəyişə bilmək üçün əlavə gərginlik bölücü dövrəsi yığılmışdır. Çıxış gərginliyinin stabilliyini təmin etmək və diodun işçi gərginliyindən yuxarı gərginliyin alınmaması üçün çıxışda 95V-luq Zenner dioddan istifadə edilmişdir. Hazırladığımız gərginlik gücləndiriciləri USB girişlə verilən +5V gərginliyi +94.6V gərginliyə qədər çevirməyə imkan verir. Bu zaman gərginliyin orta qiymətinin fluktasiyası təqribən 0.01V təşkil edir ki, bu da MSFD -ların stabil işləməsini təmin edir.

Elektronika blokunun siqnal gücləndirici hissəsi LMH-6657 operativ gücləndiricisinin əsasında hazırlanmışdır. LMH-6657 operativ gücləndiricinin əsas parametrləri aşağıda göstərilmişdir:

- Siqnalın qalxma sürəti: 700V/mksan
- Maksimum giriş cərəyanı: 6.2mA/am
- İşləmə gərginliyi: ±3V,± 5V,±12V
- Maksimal gücləndirmə tezliyi -270MHs
- İşləmə temperaturu: -65 ÷ +150 C°
- Çıxışın bərpa olma müddəti: 18ns.



Şəkil. 3. MSFD fotodiodlardan alınan siqnalları gücləndirmək üçün istifadə edilən gücləndirici dövrəsi

Təcrübələrdə istifadə edilən LMH-6657 operativ gücləndiricinin işləmə gərginliyi bipolyar olduğu üçün (yəni, müsbət və mənfi gərginliklə işlədiyi üçün) MAX1044 gərginlik invertorundan istifadə edilmişdir. Bu inteqral sxem +5V gərginliyi +5V və -5V gərginliyə çevirmək üçün istifadə edilmişdir. Alınan +5V və -5V gərginlik LMH-6657 -də əməliyyat gücləndiricisinin

qidalandırılması üçün 4 və 8-ci ayaqlarına qoşulmuşdur. Əməliyyat gücləndiricisinin müsbət və mənfi gərginliklə qidalandırılmasına səbəb girişdə verilən həm müsbət, həm də mənfi siqnalın güclənməsini təmin etməkdir.

Təcrübədən göründüyü kimi, diodun çıxışında alınan siqnalların amplitudu 10-30mV arasında dəyişir və mənfi siqnaldır. İstifadə etdiyimiz əməliyyat gücləndiricisi iki kanallı olduğundan kanallardan biri invert əməliyyat gücləndiricisi kimi istifadə edilərək, $G=-R_F/R_G$ formuluna uyğun müqavimətlər seçilmiş və 100 dəfə güclənmiş tərsinə (müsbət) siqnal alınmışdır. LMH-6657-nin digər kanal isə komparator kimi istifadə edilərək, 1V-3V intervalında gücləndirilmiş siqnalları kvadratik siqnala çevirir. Alınan kvadratik siqnallar mikrokontrollerlərin rəqəmsal girişinə qoşularaq siqnalları sayması təmin edilir.

Hazırlanmış elekrtik sxemi bizə +5V-dan +94.6V almağa və dioddan gələn impulsu ~100 dəfə gücləndirməyə imkan verir. Sxemin cərəyan sərfiyyatı ümumilikdə 20 mA olduğundan elektronika blokunun batareya ilə də uzun müddət işləməsinə şərait yaradır. Sxem dioddan gələn siqnalları birbaşa analiz etmək üçün, gücləndirilmiş siqnalı analoq- rəqəmsal çeviriciyə verərək siqnalın parametrlərinə görə düşən işğın enerjisini təyin etmək üçün və düşən işığın yaratdığı siqnalları saymaq üçün lazım olan bütün çıxışlarla təmin edilmişdir. Hazırlanmış sxem yuxarıda qeyd olunan parametrlərə malik bütün MSFD-ları tam olaraq analiz etməyə və onlardan detektor və sensor kimi istifadə etməyə imkan verir.

Qeyd: Bu iş Azərbaycan Elm Fondunun maliyyə dəstəyi ilə yerinə yetirilmişdir.

Qrant № AEF-MGC-2024-2(50)-16/04/1-M-04

Ədəbiyyat:

Sadygov, Z., Olshevski, A., Chirikov, I., Zheleznykh, I., & Novikov, A. (2006). Three advanced designs of micro-pixel avalanche photodiodes: Their present status, maximum possibilities and limitations. Nuclear Instruments and Methods in Physics Research Section A: Accelerators, Spectrometers, Detectors and Associated Equipment, 567(1), 70-73..

Sadygov, Z.Ya. Russian Patent № 2316848, priority from 01.06.2006.

Ahmadov, F., Ahmadov, G., Abdullaev, X., Garibov, A., Guliyev, E., Khorev, S., ... & Zerrouk, F. (2015). Development of compact radiation detectors based on MAPD photodiodes with lutetium fine silicate and stilbene scintillators. Journal of Instrumentation, 10(02), C02041.

Sadygov, Z. and Sadigov, A. (2014) Russian patent # 2528107, published, September, 10.

Renker, D., & Lorenz, E. (2009). Advances in solid state photon detectors. Journal of Instrumentation, 4(04), P04004.

Musienko, Y., Heering, A., Wayne, M., Ruchti, R., Karneyeu, A., & Postoev, V. (2016, June). Studies of Silicon Photomultipliers for the CMS HCAL Upgrade. In International Conference on New Photo-detectors (Vol. 252, p. 038). SISSA Medialab.

Berdnikova, A. K., Dubinin, F. A., Kantserov, V. A., Orlov, A. D., Pereyma, D. U., Shmurak, S. Z., & Zhukov, K. I. (2016). Miniature gamma detector based on inorganic scintillator and SiPM. In Journal of Physics: Conference Series (Vol. 675, No. 4, p. 042048). IOP Publishing.

NEW GREEN SOLVENT MODEL AS FUEL EXTRAGENT

Niftullayeva Sayad Alovsat

Baku State University

https://orcid.org/0009-0002-6420-7361

sayadniftullayeva7@gmail.com

Rəyçi:

İmanov Elmar Vaqif oğlu,

Kimya üzrə fəlsəfə doktoru, dosent

Summary

The studied purification of model fuels from the nitrogen and aromatic compounds by *DES*. For this purpose, a new type of deep eutectic solvent consisting of glycerin and triethylammonium acetate was prepared. Pyridine, quinoline, and indole were used as nitrogen compounds of the fuel, and benzene, ethylbenzene, and cresols (o-cresol, m-cresol, p-cresol) were used as aromatic compounds. The extraction process was carried out at room temperature. The model fuel:*DES* ratio is taken as 1:1. The liquid-liquid extraction process was carried out for 1, 3, and 5 hours. As a result, pyridine and cresols were completely removed from the composition of the model fuel. The purification rates of quinoline 92%, indole 98%, and benzene 75% were at different separation times. The extraction processes were controlled by NMR spectroscopy.

Keywords: deep eutectic solvents, liquid-liquid extraction, NMR, diesel.

НОВЫЙ ЗЕЛЕНЫЙ РАСТВОРИТЕЛЬ КАК ЭКСТРАГЕНТ МОДЕЛЬНОГО ТОПЛИВА

Нифтуллаева Саяд Аловсат

Бакинский государственный гниверситет

https://orcid.org/0009-0002-6420-7361

sayadniftullayeva7@gmail.com

Резюме

Изучена очистка модельных топлив от азотистых и ароматических соединений методом экстракции с помощью глубокого эвтектического растворителя (*ГЭР*). Для этого был приготовлен новый тип *ГЭР*, состоящий из глицерина и ацетата триэтиламмония. В качестве азотистых соединений топлива использовались пиридин, хинолин и индол, а в качестве ароматических соединений- бензол, этилбензол и крезолы (о-крезол, м-крезол, п-крезол). Процесс экстракции проводился при комнатной температуре, в течение 1, 3 и 5 часов. Соотношение модельное топливо:*ГЭР* было равным 1:1. В результате из состава модельного топлива полностью удалялись пиридин и крезолы. Степень очистки хинолина составила 92%, индола- 98% и бензола- 75% при различных временах разделения. Процессы экстракции контролировались методом ЯМР-спектроскопии.

Ключевые слова: глубокие эвтектические растворители, жидкость-жидкостная экстракция, ЯМР, дизельное топливо.

YENİ YAŞIL HƏLLEDİCİ MODEL YANACAĞIN EKSTRAGENTİ KİMİ

Niftullayeva Sayad Əlövsət

Bakı Dövlət Universiteti

https://orcid.org/0009-0002-6420-7361

sayadniftullayeva7@gmail.com

Giriş

Bildiyimiz kimi, müasir dövrdə yanacaqlara onların keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə standartlar tətbiq olunur. Aydındır ki, neft məhsullarının tərkibində olan müxtəlif heteroatomlu, aromatik birləşmələr onların istifadəsi zamanı atmosferə zərərli birləşmələr şəklində atılır. Bu məqsədlə sənayedə neft yanacaqlarının təmizlənməsi üçün hidrotəmizləmə prosesindən istifadə olunur. Hidrotəmizləmə prosesi yüksək təzyiq və temperatur şəraitində aparılır. Digər tərəfdən prosesdə yüksək miqdarda hidrogen istehlakı və bahalı katalizatorlardan istifadə olunur. İstifadə olunan katalizatorların yenidən regenerasiyası olduqca çətin prosesdir. Bundan əlavə, yanacağın tərkibində olan heteroatomlu və aromatik birləşmələrin tam çıxarılmasına nail oluna bilmir. Buna görə də ekoloji və iqtisadi cəhətdən alternativ proseslərin araşdırılmasına başlanılmışdır [1-4].

Dərin evtektik həlledicilər yeni növ yaşıl həlledicilər olaraq meydana gəlmişdir. Bu növ həlledicilər iki və yaxud daha çox komponentin qarışdırılması yolu ilə əldə olunur. Sintez üsulları olduqca asandır. *DEH*-lər asan parçalanan, zərərsiz və ucuz həlledicilər hesab olunur. Tətbiq sahələrindən asılı olaraq *DEH*-lərdən yanacaqların kükürdsüzləşdirmə, aromatiksizləşdirmə, azotsuzlaşdırılmasında ekstragent kimi istifadə edilir [5-6].

Bu məqsədlə tərəfimizdən tərkibində piridin, xinolin, indol kimi heteroatomlu və benzol, etilbenzol və krezollar kimi aromatik birləşmələr olan model yanacaqlar hazırlanmışdır. Model dizel yanacağının əsas tərkib hissələri kimi n-dekan və heksadekandan istifadə olunmuşdur. Qliserin və trietilammonium asetat əsasında yeni növ *DEH* hazırlanmışdır. *DEH*-dən istifadə olunaraq model yanacaqların maye-maye ekstraksiya prosesi aparılmışdır. NMR analizlərinin nəticələri göstərir ki, piridin və krezolların tam çıxarılmasına nail olunmuşdur. Benzol, xinolin və indol isə yüksək çıxımla ayrılmışdır.

Təcrübi hissə

DEH-in hazırlanması

Dərin evtektik həlledicini sintez etmək məqsədi ilə trietilammonium asetat (1 mol) və qliserindən (6 mol) istifadə olunmuşdur. Sintez otaq temperaturunda, qarışdırılma yolu ilə aparılmışdır. Nəticədə homogen, sarımtıl maye əldə edilmişdir.

Model dizel yanacağının hazırlanması

Model dizel yanacağını hazırlamaq üçün dizel yanacağının komponentləri kimi n-dekan və heksadekandan istifadə olunmuşdur. Azotlu birləşmələr 1.7 %, aromatik birləşmələrdən benzol və etilbenzol 5.0 %, m-krezol, o-krezol və p-krezollar isə 3.5 % miqdarında yanacağa daxil edilmişdir. Nəticədə, 8 yanacaq nümunəsi əldə olunmuşdur.

Ekstraksiya prosesinə NMR metodu ilə (300 MHs, $CDCl_3$) nəzarət edilmişdir.

Nəticələr və onların müzakirəsi

Maye-maye ekstraksiya prosesi

Maye-maye ekstraksiya prosesi otaq temperaturunda 1, 3 və 5 saat olmaqla aparılmışdır. Model yanacaq və DEH nisbəti 1:1 kimi götürülmüşdür. Cədvəl 1-də, *DEH* iştirakında tərkibində azot saxlayan model yanacaq nümunələrinin təmizlənmə faizləri əks verilmişdir.

Cədvəl 1.

Azotlu birləşmələrin DEH iştirakında ayrılması

***DEH* [trietilammoniumastetat (1): qliserin (6)]**			
Azotlu birləşmələrin miqdarı, %	**DEH: yanacaq (həcm nisbəti)**	**Vaxt, saat**	**Ayrılma effektivliyi, %**
Piridin (1.7%)	1:1	1	100
Piridin (1.7%)	1:1	3	94
Piridin (1.7%)	1:1	5	83
İndol (1.7%)	1:1	1	98
İndol (1.7%)	1:1	3	86
İndol (1.7%)	1:1	5	73
Xinolin (1.7%)	1:1	1	81
Xinolin (1.7%)	1:1	3	92
Xinolin (1.7%)	1:1	5	59

Cədvəldən göründüyü kimi piridin (100%) və indol (98%) üçün ayrılma effektivliyi 1 saat, xinolin (92%) üçün isə 3 saat müddətində olmuşdur.

Cədvəl 2.-də model dizel yanacağının aromatik birləşmələrinin ekstraksiya nəticəsində əldə olunan ayrılma effektivlikləri verilmişdir.

Cədvəl 2.

Aromatik birləşmələrin DEH iştirakında ayrılması.

***DEH* [trietilammoniumastetat (1): qliserin (6)]**			
Aromatik birləşmələrin miqdarı, %	**DEH: yanacaq (həcmnisbəti)**	**Vaxt, saat**	**Ayrılma effektivliyi, %**
Benzol (5%)	1:1	1	68
Benzol (5%)	1:1	3	75
Benzol (5%)	1:1	5	56

Etilbenzol (5%)	1:1	1	14
Etilbenzol (5%)	1:1	3	25
Etilbenzol (5%)	1:1	5	19
p-krezol (3.5%)	1:1	1	91
m-krezol (3.5%)	1:1	1	100
o-krezol (3.5%)	1:1	1	100

Cədvəldən aydın olur ki, krezollar üçün 1 saat müddətində effektiv çıxarılmaya nail olmaq mümkündür. Benzol üçün 75%, etilbenzol üçün isə 25% ayrılma 3 saat müddətində baş vermişdir. Ekstraksiyanın effektivliyi NMR spektroskopiyasının köməyi ilə öyrənilmişdir.

Ədəbiyyat:

Lattanzio, R.K., McCarthy, J.E. (2014) Tier 3 motor vehicle emission and fuel standards. US EU Mot. Veh. Stand. Elem. Considerations Trade Issues. Apr 28.

Rogošić, M., Kučan, K.Z. (2020 Sep. 1) Deep eutectic solvent based on choline chloride and propylene glycol as a potential medium for extraction denitrification of hydrocarbon fuels. Chemical Engineering Research and Design.;161:45-57.

Lemaoui, T., Benguerba, Y., Darwish, A.S., Hatab, F.A., Warrag, S.E., Kroon, M.C., Alnashef, I.M. (2021 Feb 1) Simultaneous dearomatization, desulfurization, and denitrogenation of diesel fuels using acidic deep eutectic solvents as extractive agents: A parametric study. Separation and Purification Technology.;256:117861.

Stanislaus, A., Cooper, B.H. (1994 Feb. 1) Aromatic hydrogenation catalysis: a review. Catalysis Reviews–Science and Engineering.;36(1):75-123.

Zhang, Q., Vigier, K.D., Royer, S., Jérôme, F. (2012) Deep eutectic solvents: syntheses, properties and applications. Chemical Society Reviews.;41(21):7108-46.

El Achkar, T., Greige-Gerges, H., Fourmentin,S. (2021 Aug.) Basics and properties of deep eutectic solvents: a review. Environmental chemistry letters.;19:3397-408.

OBTAINING AND RESEARCHING GREEN FUEL BASED ON LOCAL RAW MATERIALS

Mammadova Gulben Azer

Baku State University

https://orcid.org/0009-0009-1729-6614

gulbenmemmedova1@gmail.com

Rəyçi:

İmanov Elmar Vaqif oğlu,

Kimya üzrə fəlsəfə doktoru, dosent

Summary

The impact of greenhouse gases on global warming is one of the biggest problems facing the world today. The increasing use of fossil fuels such as coal and oil, as well as the reduction of vegetation cover, have led to a rapid rise in the concentration of CO_2 in the atmosphere. In addition to CO_2, other gases such as hydrocarbons, methane, NO_x and SO_x are released into the air during combustion, further intensifying the greenhouse effect. The effects of greenhouse gases include the melting of ice, rising sea levels and other climate changes. Many countries of the world have developed programs to promote the use of alternative energy sources. According to these programs, biofuels based on renewable raw materials are produced for gasoline and diesel engines. Scientific research is continuously carried out to find economically viable and environmentally efficient catalysts that do not result in additional products. Azerbaijan is rich in natural resources, which makes the production of biofuels from its plant reserves highly relevant. Additionally, the transesterification of alcohols with vegetable oils to produce biodiesel results in the by-product glycerin, which can also be used to produce new fuel components. Approximately 1 billion tons of diesel fuel are consumed worldwide each year. The total available raw material for biodiesel production is 115 million tons, which accounts for less than 12% of diesel fuel consumption. Future prospects for biodiesel production include the development of conversion technologies and an increase in the production of oilseeds, which would expand the available raw material base. Given the high demand for petroleum products in both industrialized and developing regions of the world, expanding biodiesel production is considered a promising opportunity [1-7].

Keywords: ethanol, biodiesel, catalyst, high-molecular alcohols, cottonseed oil

ПОЛУЧЕНИЕ И ИССЛЕДОВАНИЕ ЗЕЛЕНОГО ТОПЛИВА НА ОСНОВЕ МЕСТНОГО СЫРЬЯ

Мамедова Гюльбен Азер

Бакинский государственный университет

https://orcid.org/0009-0009-1729-6614

gulbenmemmedova1@gmail.com

Резюме

Влияние парниковых газов на глобальное потепление является одной из крупнейших проблем, с которыми сталкивается мир сегодня. Увеличение использования ископаемых видов топлива, таких как уголь и нефть, а также сокращение растительности привели к быстрому росту концентрации CO_2 в атмосфере. Кроме CO_2, при сгорании в атмосферу также выбрасываются другие газы, такие как углеводороды, метан, NO_x и SO_x, что усугубляет парниковый эффект. Последствия влияния парниковых газов включают таяние льдов, повышение уровня моря и другие климатические изменения. Многие страны мира разработали программы по продвижению использования альтернативных источников энергии. Согласно этим программам, биотопливо на основе возобновляемых сырьевых материалов производится для бензиновых и дизельных двигателей. Научные исследования постоянно проводятся для поиска экономически выгодных и экологически эффективных катализаторов, которые не приводят к образованию дополнительных продуктов. Азербайджан богат природными ресурсами, что делает производство биотоплива на основе его растительных ресурсов особенно актуальным. Кроме того, трансэтерификация спиртов с растительными маслами для получения биодизеля приводит к побочному продукту-глицерину, который также может быть использован для производства новых компонентов топлива. В мире ежегодно потребляется около 1 миллиарда тонн дизельного топлива. Общее количество доступного сырья для производства биодизеля составляет 115 миллионов тонн, что составляет менее 12% от общего потребления дизельного топлива. Перспективы развития производства биодизеля включают разработку технологий преобразования и увеличение производства масличных культур, что позволит расширить базу доступного сырья. Учитывая высокий спрос на нефтепродукты как в промышленно развитых, так и в развивающихся регионах мира, расширение производства биодизеля рассматривается как многообещающая возможность [1-7].

Ключевые слова: этанол, биодизель, катализатор, высокомолекулярные спирты, хлопковое масло

YERLİ XAMMAL ƏSASINDA YAŞIL YANACAĞIN ALINMASI VƏ TƏDQİQİ

Məmmədova Gülbən Azər

Bakı Dövlət Universiteti

https://orcid.org/0009-0009-1729-6614

gulbenmemmedova1@gmail.com

Təcrübi hissə

Biodizel pambıq yağı metanol: propanol-1: propanol-2 və pambıq yağı etanol: propanol-1: propanol-2 qarışıqları (eləcə də ayrı-ayrılıqda) əsasında sintez edilmişdir. Katalizator kimi H_2SO_4 istifadə olunmuşdur. Proses 75°C-də 6 saat ərzində intensiv qarışdırma ilə aparılmış və reaksiya məhsulu ayrıldıqdan sonra 80°C-də su ilə yuyulmuşdur (Şəkil 1). Mühitin neytrallığı lakmus kağızı ilə yoxlanılmışdır.

Şəkil 1. Biodizelin sintezi və təmizlənməsi

Nəticələrin müzakirəsi

Dünyada bioyanacağa artan marağı nəzərə alaraq, biz də müxtəlif spirtlər və yerli xammal götürməklə biodizeli fərqli şəraitlərdə əldə etmişik. Bildiyimiz kimi, pambıq yağı ölkəmizdə böyük həcmdə istehsal olunur və qida yağı kimi istifadə edilmir. Bunu nəzərə alaraq, biodizel pambıq yağı və spirt qarışıqları əsasında əldə olunuşdur. Məlum olduğu kimi, spirtin molekul kütləsinin artması ilə transefirləşmə reasiyasının getməsi də çətinləşir. Göstərilən problemin aradan qaldırılması üçün katalizator olaraq qələvilər (NaOH, KOH) əvəzinə sulfat turşusu (H_2SO_4) götürülmüş və yüksək çıxımlarla biodizel sintez edilmişdir. Metanolun kifayət qədər zəhərli olması, həmçinin etanolla reaksiyanın çətin getməsini əsas götürərək transefirləşmə reaksiyaları spirt qarışıqları (metanol, etanol, propanol-1 və propanol-2) iştirakında aparılmış və daha yaxşı istismar xüsusiyyətli biodizel yanacağı əldə olunmuşdur (Şəkil 2). Qeyd etmək lazımdır ki, sulfat turşusu katalizatoru, qələvilərdən fərqli olaraq sabunlaşmaya səbəb olmağından, mühit çox asanlıqla təmizlənmişdir.



Şəkil 2. Biodizel alınma prosesinə spirtlərin təsiri

Sonda NMR metodunun köməyilə təmiz və texniki pambıq yağlarından alınmış bidizel nümunələrinin analizi həyata keçirilmişdir. Təmizlənmiş pambıq yağı ilə daha yaxşı nəticələrin alınması müəyyən edilmişdir.

C_1-C_3 spirtləri və onların qarışıqlarının pambıq yağı ilə transefirləşməsi ilə sintez edilən biodizel, həmçinin B10 yanacaq qarışıqlarının istismar xassələri ASTM standartları ilə xarakterizə edilmişdir. Özlülük, sıxlıq, alışma temperaturu, donma temperaturu və s. digər xassələrdə əhəmiyyətli müsbət nəticələr əldə edilmişdir. Eləcə də alınan yanacaq qarışıqlarının oksidləşməyə qarşı davamlılıqları da yoxlanılmış və spirt qarışıqları əsasında alınan yanacaqlarda oksidləşməyə qarşı davamlılıq daha yüksək olmuşdur.

Ədəbiyyat:

Özsezen, A.N., Çanakçı, M. (2009). Biyodizel ve karışımlarının kullanıldığı bir dizel motorda performans ve emisyon analizi. Pamukkale University Journal of Engineering Sciences, 15. 173-180.

Djomdi, M. T., Leku, D., Djoulde, C., Delattre, and P. Michaud (2020). Purification and Valorization of Waste Cotton Seed Oil as an Alternative Feedstock for Biodiesel Production. Bioengineerin, 41, 1-9.

Martınez, G., Sanchez, N., Encinar, J.M., Gonzalez, J.F. (2014). Fuel properties of biodiesel from vegetable oils and oil mixtures. Biomass and Bioenergy, 63, 22-32.

Joseph E. Fargione, Richard J. Plevin, Jason D. Hill (2010). The Ecological Impact of Biofuels. Annual Review of Ecology Evolution and Systematics, 41, 351-377.

Marchetti J.M., Errazu A.F. (2008). Esterification of free fatty acids using sulfuric acid as catalyst in the presence of triglycerides. Biomass and Bioenergy, 32, 892– 895.

Varatharajan K., Pushparani D.S. (2018). Screening of antioxidant additives for biodiesel fuels. Renewable and Sustainable Energy Reviews, 82, 2017-2028.

Xi Ji, Xianling Long (2016). A review of the ecological and socioeconomic effects of biofuel and energy policy recommendations. Renewable and Sustainable Energy Reviews, 61, 41-52.

POLYGONUM L. GENETIC DIVERSITY OF THE GENUS AND THE INFLUENCE OF ENVIRONMENTAL FACTORS

Keramova Nazila Mubariz

Baku State University

https://orcid.org/0009-0009-1364-1353

karamovanazila@gmail.com

Rəyçi:

Baxşəliyeva Könül Fərrux qızı,

Biologiya elmləri doktoru, professor

Summary

Genus Polygonum L. It belongs to the Polygonaceae family and is one of the genera of plants widely distributed in the world. The species included in this genus are distributed mainly on the Asian and European continents, as well as in various environmental conditions. Species of this genus, which have the ability to adapt to various climate changes and environmental influences, are of great importance in medical and environmental research, as well as in agriculture. A study of the genetic diversity of the genus Polygonum L. It is important for the protection of species belonging to this genus and the sustainable use of biological resources. The purpose of this study is to study the genetic diversity of the genus Polygonum L., methods of genetic research and the influence of environmental factors on this diversity.

Keywords: genus, diversity, genetic, ecological

POLYGONUM L. ГЕНЕТИЧЕСКОЕ РАЗНООБРАЗИЕ ПОРОДЫ И ВЛИЯНИЕ ФАКТОРОВ ОКРУЖАЮЩЕЙ СРЕДЫ

Керамова Назила Мубариз

Бакинский государственный университет

https://orcid.org/0009-0009-1364-1353

karamovanazila@gmail.com

Резюме

Род *Polygonum* L. Относится к семейству Polygonaceae и является одним из родов растений, широко распространенных в мире. Виды, входящие в этот род, распространены преимущественно на азиатском и европейском континентах, а также в различных экологических условиях. Виды этого рода, обладающие способностью приспосабливаться к различным изменениям климата и воздействию окружающей среды, имеют большое значение в медицинских и экологических исследованиях, а также в сельском хозяйстве. Исследование генетического разнообразия рода *Polygonum* L. Важно для охраны видов, входящих в этот род, и устойчивого использования биологических ресурсов. Целью данного исследования является изучение генетического разнообразия рода *Polygonum* L., методов генетических исследований и влияния факторов окружающей среды на это разнообразие.

Ключевые слова: род, разнообразие, генетический, экологический.

POLYGONUM L. CİNSİNİN GENETİK MÜXTƏLİFLİYİ VƏ EKOLOJİ FAKTORLARIN TƏSİRİ

Kərəmova Nazilə Mübariz

Bakı Dövlət Universiteti

https://orcid.org/0009-0009-1364-1353

karamovanazila@gmail.com

Hər hansı bir növün populyasiyasının ekoloji dəyişikliklərə adaptasiya qabiliyyətini və sağ qalmasını təmin edən ən önəmli amillərdən biri genetik müxtəliflikdir. *Polygonum* L. cinsində olan müxtəlifliklər, bu cinsin növlərinin müxtəlif areal və ekosistemlərə uyğunlaşmasını, o cümlədən məkan məhdudiyyətlərini aşmasını təmin edir. Ümumilikdə, bu xüsusiyyətlər isə cinsin növlərinin ekoloji təzyiqlərə, iqlim dəyişikliklərinə və növlərin sağ qalmasına səbəb olan əsas amillərdəndir. *Polygonum* L. cinsinin növləri arasında genetik müxtəlifliyin olması onun müxtəlif iqlim və torpaq şəraitində mövcudluğuna gətirib çıxarır. Genetik müxtəliflik həm də növlərin ekoloji stress faktorlarına (yüksək temperatur, quraqlıq və s.) qarşı dözümlülüyünü artırır. Bu səbəbdən də *Polygonum* L. cinsinin genetik strukturunu tədqiq etmək həm təkamül proseslərini dərindən başa düşmək, həm də ekoloji dəyişikliklərə uyğunlaşmasını təmin edən mexanizmləri aşkarlamaq, təhlil etmək baxımından əhəmiyyətlidir.

Genetik müxtəlifliyə ekoloji faktorların təsiri

Ekoloji faktorlar, xüsusilə də torpaq şəraiti, iqlim, su təchizatı habelə, antropogen təsirlər bütün bitki növlərinə o cümlədən, *Polygonum* L. cinsinə daxil olan növlərin genetik strukturuna ciddi təsir göstərir. Müxtəlif mühit şəraitində, müəyyən arealda yaşayan populyasiyaların adaptasiya potensialının müəyyən edilməsində genetik müxtəlifliyin tədqiqi və təhlili əsas yer tutur. Müxtəlif ekosistemlərdə inkişaf edən Polygonum növləri fərqli adaptiv xüsusiyyətlər nümayış etdirir və bu da onların ətraf mühitlə əlaqəli genetik adaptasiya proseslərinin nəticəsidir. *Polygonum* L. cinsinə daxil olan növlər əsasən böyümə dövründə ekoloji faktorların təsirinə xüsusilə də su və işıq kimi amillərin yetəri qədər olmamasına daha dözümsüzdür. Araşdırmalar sübut edir ki, müəyyən təsirlər nəticəsində ətraf mühit dəyişkənliyinin baş verməsi və bu dəyişkənliyə tolerantlıq populyasiyaların ekotipik uyğunlaşmasından yox, fərdi fenotipik plastikliklərindən irəli gələ bilər.

Genetik müxtəlifliyin təhlili

Polygonum L. cinsi növlərinin genetik müxtəlifliyini təhlil etmək üçün müxtəlif üsullar vardır ki, onlardan ən önəmlisi də molekulyar- genetik metodlardan istifadədir. Bu metodlardan istifadə etməklə populyasiyaların genetik struktrunu, növlərarası əlaqəni, təkamül tarixini və s. öyrənmək mümkündür. Bu cinsin genetik müxtəlifliyi öyrənmək üçün müxtəlif markerlərdən istifadə edilə bilər. SSR (sadə təkrarlanan ardıcıllıqlar), RAPD (Təsadüfi gücləndirilmiş polimorfik DNT), ISSR (aralıq təkrarlanan ardıcıllıqlar) və s. kimi markerlərdən istifadə edərək populyasiyalar arasındaki genetik müxtəlifliklər tədqiq və təhlil edilir. Bu markerlərdən istifadə edilməsi, populyasiyalar arasında genetik müxtəlifliklərin qiymətləndirilməsi və təbiətdə gen axınının təyininə şərait yaradır. Burada həmçinin genetik məlumat bazalarından istifadə edilərək təkamül mexanizmləri və adaptasiya potensiallari da öyrənilmiş olur.

Ədəbiyyat:

Aneta Wojdyło a, Jan Oszmianski a, Renata Czemerys. (2012) Antioxidant activity of stilbene glycoside from Polygonum aviculare, Fruit and Vegetable Processing, Wroclaw Environmental and Life Science University p.19-25.

Cəfərova E.E., Mustafayeva L.Ə. (2015) Azərbaycanda yayılmış Polygonum L. növləri və onların faydalı xüsusiyyətləri. Müasir Biologiya və Kimyanın Aktual Problemləri Elmi-Praktik Konfrans, Gəncə, , s.163-167.

Christian S., Ludmila L., Yvan N., Eric P., Didier R. (2006) Comparison Volatile Constituents Of Persicaria Odorata (Lour.) Sojak (Polygonum odoratum Lour.) And Persicaria Hydropiper L. Spach (Polygonum Hydropiper L.) J Agric Food Chem.; 54 (8): p.3067–3071.

Gaudet, C.L. & Keddy, P.A. (1995) Competitive performance and species distribution in shoreline plant communities: a comparative approach. Ecology, 76, 280–291.

Hobbs, C.H. (1992) Occurrence and distribution of Polygonum species in Ohio. Ohio Journal of Science, 92, 88–97.

Hyoung J., Eun R., Hokoon P. (1994) A Novel Lignan And Flavonoids From Polygonum Aviculare. J Nat Prod; 57 (5): p.581–586.

Li X., Yu M., Meng D., Li Z. and Zhang L. (2007) A new chromone glycoside from Polygonum capitatum, Fitoterapia, 78, p.506-509.

Macarthur, R.H. (1972) Geographical Ecology. Harper and Row, New York.

Simmonds, N.W. (1945) Polygonum persicaria L. Biological flora of the British Isles. Journal of Ecology, 33, 121–131.

Lambrinos, J.G. (2004) How interactions between ecology and evolution influence contemporary invasion dynamics. Ecology 85: 2061–2070.

SYNTHESIS OF ENVIRONMENTALLY SAFE METAL CORROSION INHIBITORS

Najafli Aytan Ramazan

Institute of Petrochemical Processes named after academician Y.H.

https://orcid.org/0009-0000-9145-7580

necefliayten7@gmail.com

Rəyçi:

İmanov Elmar Vaqif oğlu,

Kimya üzrə fəlsəfə doktoru, dosent

Summary

In the presented thesis, the topic of synthesis of corrosion inhibitors of environmentally safe metals was investigated. It has been shown that green chemistry emphasizes the importance of protecting the environment and human health in an economically beneficial way and aims to avoid toxic substances and reduce waste. It was noted that the economic losses caused by the corrosion of metal equipment are quite significant.

Although many experimental works have been done and many research papers have been published, it has been reflected that the issue of green inhibitors is still a debated issue. Great interest in the field has further expanded the research and resulted in many tested reagents. In this regard, environmental regulations currently dictate the need to develop inert and biodegradable chemical compounds such as CI. In this regard, the most promising raw materials for the production of these CIs are unsaturated carboxylic acids isolated from vegetable oils. Linoleic acid is a monobasic carboxylic acid with two isolated double bonds. The importance of these acids for corrosion prevention is related to the structural properties of these compounds.

Keywords: environmental safety, green chemistry, corrosion inhibitors, fatty acids.

СИНТЕЗ ЭКОЛОГИЧЕСКИ БЕЗОПАСНЫХ ИНГИБИТОРОВ КОРРОЗИИ МЕТАЛЛОВ

Наджафли Айтан Рамазан

Институт нефтехимических процессов имени академика Ю.Х.Мамедалиева

https://orcid.org/0009-0000-9145-7580

necefliayten7@gmail.com

Резюме

В представленной тезисе исследована тема синтеза ингибиторов коррозии экологически безопасных металлов. Было показано, что зеленая химия подчеркивает важность защиты окружающей среды и здоровья человека экономически выгодным способом и направлена на избежание токсичных веществ и сокращение отходов. Было отмечено, что экономические потери от коррозии металлического оборудования весьма значительны.

Хотя было проведено множество экспериментальных работ и опубликовано множество исследовательских работ, было отмечено, что тема «зеленых ингибиторов» все еще остается дискуссионным вопросом. Большой интерес к этой области еще больше расширил исследования и привел к созданию множества протестированных реагентов. В связи с этим экологические нормы в настоящее время диктуют необходимость разработки инертных и биоразлагаемых химических соединений, таких как ИК. В связи с этим наиболее перспективным сырьем для производства этих ИК являются ненасыщенные карбоновые кислоты, выделенные из растительных масел. Линолевая кислота представляет собой одноосновную карбоновую кислоту с двумя изолированными двойными связями. Важность этих кислот для предотвращения коррозии связана со структурными свойствами этих соединений.

Ключевые слова: экологическая безопасность, зеленая химия, ингибиторы коррозии, жирные кислоты.

EKOLOJİ TƏHLÜKƏSİZ METALLARIN KORROZİYA İNHİBİTORLARININ SİNTEZİ

Nəcəfli Aytən Ramazan

akademik Y.H Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

https://orcid.org/0009-0000-9145-7580

necefliayten7@gmail.com

İstehsal avadanlıqlarının metal konstruksiyalardan ibarət olduğu bir çox sənaye sahələrində avadanlıqların korroziyası problemi qaçılmazdır. Bu halda, metal konstruksiyaların qorunması üçün tədbirlər kompleksinin inkişafı ilə korroziya prosesini öyrənmək lazımdır. Korroziya ekoloji təhlükəsizliyə də xələl gətirir və bu halda iqtisadi cəhətdən ən əsaslandırılmış qorunma üsulu korroziya inhibitorlarının (Kİ) istifadəsidir. Bununla belə, Kİ kimi istifadə edilən birləşmələrin çoxu zəhərli birləşmələrdir və ekoloji standartlara tam cavab vermir Metalların korroziya prosesi mühüm ekoloji problem yaradır, müxtəlif sənaye sahələrinə və infrastruktura təsir göstərir. Qeyd etmək lazımdır ki, vkorroziyanın nəticələri geniş və çoxşaxəlidir. Korroziyaya uğramış konstruksiyalar torpağa və suya zəhərli maddələr buraxaraq ekosistemlər və insan sağlamlığı üçün təhlükə yarada biləcəyi üçün ətraf mühitə təsiri açıq şəkildə ifadə edilir (Maas H. 2021). Məsələn, paslanmış metal konstruksiyalar su mənbələrini ağır metallarla çirkləndirə bilər, su həyatını pisləşdirə və suyun keyfiyyətinə xələl gətirə bilər. Bundan əlavə, korroziyaya uğramış komponentləri əvəz etmək üçün tələb olunan enerji tutumlu proseslər karbon emissiyalarının artmasına kömək edir və iqlim dəyişikliyini daha da artırır.

Metal avadanlıqların korroziyası nəticəsində yaranan iqtisadi itkilər kifayət qədər əhəmiyyətlidir və sənayesi inkişaf etmiş bəzi ölkələrdə ümumi məhsulun 4-5%-nə çatır (Aliyeva, Najafli, Ismailov, Abdullayeva, Abbasov, 2023). Bu səbəbdən, yaşıl kimya ətraf mühitin və insan sağlamlığının iqtisadi cəhətdən faydalı şəkildə qorunmasının vacibliyini vurğulayır və toksiki maddələrdən qaçınmaq və tullantıları azaltmaq məqsədi daşıyır. Ümumiyyətlə, zəhərli birləşmələrin istifadəsi ilə üzləşən metalların deqradasiyası yaşıl kimyada mühüm tədqiqat sahəsi tapmışdır. Əslində, inhibitorların istifadəsi metalların korroziya prosesinin qarşısını almaq, nəzarət etmək və ya gecikdirmək üçün əhəmiyyətli bir strategiyadır. Yaşıl inhibitorlar bioloji parçalana bilən, ekoloji cəhətdən məqbul və bərpa olunandır. Onların qiymətləndirilməsi dairəvi iqtisadiyyat perspektivində "tullantıdan enerjiyə" və başqa sənaye sahələrində mümkün tətbiqləri genişləndirir. Baxmayaraq ki, çoxlu eksperimental işlər görülmüş və bir çox tədqiqat işi dərc edilmişdir, yaşıl inhibitorlar mövzusu hələ də müzakirə olunan məsələdir. Sahəyə böyük maraq tədqiqatı daha da genişləndirmiş və nəticədə çoxlu sınaqdan keçmiş reagentlər əldə edilmişdir. Bununla əlaqədar olaraq, ekoloji qaydalar hazırda Kİ kimi zərərsiz və bioloji parçalana bilən kimyəvi birləşmələrin hazırlanması ehtiyacını diktə edir. Bu baxımdan, bu Kİ istehsalı üçün ən perspektivli xammal bitki yağlarından təcrid olunmuş doymamış karbon turşularıdır. Linol turşusu bir əsaslı karbon turşusudur hansı ki, iki ədəd ikiqat təcrid olunmuş rabitəsi var. Korroziyanın qarşısını almaq üçün bu turşuların əhəmiyyəti bu birləşmələrin struktur xüsusiyyətləri ilə bağlıdır. Doymamış rabitələr və yağ turşularında aktiv funksional qrupun olması (karboksilat anionu) metal və boş orbitallarla qarşılıqlı təsirə doğru səthi aktivliyi artırır və metal səthinə adsorbsiya xüsusiyyətlərini artırmaq üçün əsas rol oynayır. Yağ turşusu molekullarının karboksilat anionu metal ilə qarşılıqlı təsir

göstərərək, metal-inhibitor kompleksinin əmələ gəlməsinə və buna görə də, məsələn, hidrogen əmələgəlmə reaksiyasına görə korroziyalı mühitdə metal səthinin həll olunma sürətinin azalmasına səbəb ola bilər. Üstəlik, yağ turşularında birləşmiş və birləşməmiş qoşa rabitələrin olması lokallaşdırılmış π elektronunu metalların boş d orbitalı ilə paylaşa bilər. Bundan əlavə, yüksək molekulyar ağırlıqlı yağ turşularının metal üzərində bağlanması sterik maneə səbəbindən mövcud səthi azaldır, korroziya prosesinin surətinin azalmasına gətirib çıxarır (Marzorati, Verotta, Trasatti, 2019). Bioloji parçalana bilən Kİ hazırlayarkən, həmçinin səthi aktiv maddələrin xüsusiyyətlərin öyrənilməsi sahəsində tədqiqatlar aparmaq lazımdır. Hal-hazırda səthi aktiv maddələr sənaye istehsalında və texnoloji proseslərdə geniş istifadə olunur, çünki onlar neft hasilatı, neft emalı, suyun təmizlənməsi və s. bir çox prosesləri əhəmiyyətli dərəcədə intensivləşdirə, sadələşdirə və iqtisadi cəhətdən sərfəli və ekoloji cəhətdən təmiz edə bilər.

Bunları nəzərə alaraq, Kİ alınmasında polidoymamış yağ turşuları kimi linolen turşusundan (LT) və həmçinin bitki yağından təcrid olunmuş turşulardan istifadə olunur. Qarışıq doymamış yağ turşuları qarğıdalı yağından (QY) sabunlaşma və sonrakı mərhələdə xlorid turşusu ilə qaşılıqlı əlaqəyə məruz qalırlar. Hidroliz zamanı QY tərkibində mövcud olan trigliseridlər natrium sabunlarına çevrilir və əlavə məhsul kimi qliserin əmələ gəlir. Alınan turşular qarışığından bölünmədən istifadə edilir.

Ədəbiyyat:

Aliyeva L.I., Najafli, A.R. Ismailov, T.A. Abdullayeva,N.R.Abbasov, V.M. (2023)Study Of Pol yunsaturated Carboxylic Acid Derivatives As Biodegradable Metal Corrosion İnhibitors, Tashkent: Materials of the International Scientific and Technical Conference, , 388-389 p.

Marzorati S.,Verotta L.,Trasatti,S.P. (2019) Green Corrosion Inhibitors from Natural Sources and Biomass Wastes/*Molecules*, , *24*(1), 48; https://doi.org/10.3390/molecules24010048

Maas H. (2021), “Solutions to environmental problems”, London, “Prentice Hall”, 301 p.

SECONDARY METABOLITES OF FUNGI FOUND IN A NUMBER OF ETHERIC OIL PLANTS

Naghieva Rafiga Zahid

Institute of Microbiology

https://orcid.org/0009-0009-4909-526X

refiqeqocayeva93@mail.ru

Rəyçi:

Baxşəliyeva Könül Fərrux qızı,

Biologiya elmləri doktoru, professor

Summary

Fungi, along with plants, are considered active producers of secondary metabolites. This situation is more evident in essential oil plants and their mycobiota. Currently, about 2000 species of essential plants are known to biological science. These plant groups are widely used in almost all fields of production (food, cosmetics, medicine, perfumery, etc.). From this point of view, various research works are being conducted in this direction both in the world and in the country. During the studies, it was determined that the formation of secondary metabolites in fungi is mostly related to the sporulation process. Secondary metabolites associated with sporulation can be divided into 3 categories:1. Activators of sporulation (e.g. linoleic acid derivatives produced by Aspergillus nidulans), 2. Required for sporulation structures (e.g. melanins required for both sexual and asexual spore formation), 3. Toxic substances secreted by growing colonies during sporulation immetabolites (for example, the biosynthesis of some harmful natural products such as mycotoxins). Fungal species that produce potentially important secondary metabolites are mainly Penicilium griseofulvum, Aspergillus niger, Streptomyces griseus, Monascus purpures, Tolypocladium inflatum.

Key words: secondary metabolites, pigments, antibiotics, mycotoxins, phytotoxins.

ВТОРИЧНЫЕ МЕТАБОЛИТЫ ГРИБОВ, ОБНАРУЖЕННЫЕ В РЯДЕ ЭФИРНОМАСЛИЧНЫХ РАСТЕНИЙ

Нагиева Рафига Захид

Институт Микробиологии

https://orcid.org/0009-0009-4909-526X

refiqeqocayeva93@mail.ru

Резюме

Грибы наряду с растениями считаются активными продуцентами вторичных метаболитов. Эта ситуация более очевидна у эфиромасличных растений и их микобиоты. В настоящее время биологической науке известно около 2000 видов незаменимых растений. Эти группы растений широко используются практически во всех сферах производства (продукты питания, косметика, медицина, парфюмерия и др.). С этой точки зрения в этом направлении, как в мире, так и в стране ведутся различные исследовательские работы. В ходе исследований установлено, что образование вторичных метаболитов у грибов в большей степени связано с процессом споруляции. Вторичные метаболиты, связанные со споруляцией, можно разделить на 3 категории: 1. Активаторы споруляции (например, производные линолевой кислоты, продуцируемые Aspergillus nidulans), 2. Необходимы для структур споруляции (например, меланины, необходимые как для полового, так и для бесполого образования спор), 3. Токсичные вещества, выделяемые растущими колониями во время споруляции, имметаболиты (например, биосинтез некоторых вредных природных продуктов, таких как микотоксины). Видами грибов, которые производят потенциально важные вторичные метаболиты, являются главным образом Penicilium griseofulvum, Aspergillus niger, Streptomyces griseus, Monascus purpures, Tolypocladium inflatum.

Ключевые слова: вторичные метаболиты, пигменты, антибиотики, микотоксины, фитотоксины.

BİR SIRA EFİRYAĞLI BİTKİLƏRDƏ RAST GƏLİNƏN GÖBƏLƏKLƏRİN İKİNCİLİ METABOLİTLƏRİ

Nağıyeva Rəfiqə Zahid

Mikrobiologiya İnstitutu

https://orcid.org/0009-0009-4909-526X

refiqeqocayeva93@mail.ru

Mikroorqanizmlər yüksək bioloji aktivliyə malik olan birləşmələr sintez edirlər. Müəyyən olunmuşdur ki, indiyə qədər məlum olan 22500-dən çox aktiv maddənin 40%-ə qədəri göbələklər tərəfindən sintez olunur (Arnold L. Demain, 2014). Göbələklərin ikincili metabolitlərinə toksinlər, antibiotiklər, piqmentlər, vitaminlər, ekzofermentlər, boy hormonları, bir sıra üzvi turşular qismində antifunqal, antibakteriyal, antiflamatuar və antioksidant kimi bioloji aktivliyə malik olan üzvi birləşmələr aiddir. Bu metabolitlərin bir çoxu təbii məhsullar olaraq tibb, sənaye, kənd təsərrüfatı və s. sahələrdə geniş istifadə olunur.Tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, göbələkələrdəki kincili metabolitlərin yaranması daha çox sporulyasiya prosesi ilə əlaqədardır. Sporulyasiya ilə əlaqəli ikincili metabolitləri 3 geniş kateqoriyaya bölmək olar:1. Sporulyasiyanı aktivləşdirən metabolitlər (məsələn, *Aspergillus* nidulans tərəfindən istehsal olunan linolein turşusu törəmələri), 2. Piqmentlər sporulyasiya strukturları üçün tələb olunur (məsələn, həm cinsi, həm də qeyri-cinsi sporların formalaşması üçün tələb olunan melaninlər), 3. Sporulyasiya zamanı böyüyən koloniyalar tərəfindən ifraz olunan zəhərli metabolitlər (məsələn, mikotoksinlər kimi bəzi zərərli təbii məhsulların biosintezi). Potensial əhəmiyyətli ikincili metabolitlər istehsal edən göbələk növləri əsasən *Penicilium griseofulvum, Aspergillus niger, Streptomyces griseus, Monascus purpures, Tolypocladium inflatum*-dur. *Piqmentlər.* Mikromisetlərdən melanin formalaşdıran *Aspergillus carbonarius, Alternaria alternata, Paecilomyces variotii, Basidiomycetes* və *İnonotus obliquus* kimi yeni növlər aşkar edilmişdir. Melaninlər, fenolprekursorlardan oksidləşdirici polimerləşmə nəticəsində əldə edilən yüksək molekulyar kütləli tünd piqmentlər kimi müəyyən olunur. Göbələklərdə iki əsas melaninə rast gəlinir: *dihidroksinaftalin (DHN) melanin* və *dihidroksifenilalanin (DOPA) melanin*. Melaninlərin funksiyası olduqca genişdir. Qorunma vasitəsi olaraq onu istehsal edən orqanizmlər üçün bir sıra əhəmiyyətli funksiyalar yerinə yetirirlər. Melaninlər bir sıra bitki patogeni olan göbələklərdə patogenliyə kömək edir. DHN-melaninin virulentlik göstərdiyi iki əsas göbələk növü- insan patogeni olan *Aspergillus fumigatus* və bitki patogeni *Magna portheoryzae* hesab olunur. DHN-melanini A.fumigatusda konidiogenez prosesi zamanı sintez olunur və sporların boz-yaşıl rəngini xarakterizə edir. Bu sporlara təbiətdə demək olar ki, hər yerdə rast gəlmək mümkündür. Aparılan araşdırmalara əsasən müəyyən olunmuşdur ki, hər bir insan gün ərzində minlərlə konidiyalarla nəfəs alır və bu immuniteti zəif olan insanlar üçün potensial təhlükədir. *Antibiotiklər*- göbələklərin ən geniş yayılmış və tətbiqi çoxsahəli olan metabolitləridir. Təbiətdə mövcud olan təbii antibiotiklər fermentasiya yolu ilə sintez olunur. Və bu üsul 8000 il bundan əvvələ qədər pivə və şərab istehsalında istifadə olunurdu. Antibiotiklər dövrünün başlanması Aleksandr Fleminqin adı ilə bağlıdır. Belə ki, o, 1928-ci ildə *Staphlyococcus aureus* əkilmiş Petr qabında *Penicillium notatum* kif nəticəsində əmələ gələn birləşmələrin bakteriyaları məhv etdiyini müşahidə etmişdi. *Penicillium notatum* aktiv maddə olan penisilini

sintez etdi. Bu kəşf eyni zamanda dərman istehsalında mikroorqanizm biotexnologiyası erasının başlanğıcı oldu. İstifadə baxımından ən əhəmiyyətli antibiotik sinfi *beta-laktamlar* hesab olunur. *Mikotoksinlər*- göbələklər tərəfindən sintez olunan və insanlar, bitkilər, heyvanlar üçün zəhərli olan birləşmələrdir. Lakin buna baxmayaraq onlar tibbi cəhətdən faydalı hesab olunurlar. Hazırda məlum olan mikotoksinlərdən *patulin, penisilikturşu, aflatoksin, okratoksin A, sitokalazinlər, fusarin C, fusarikturşusu, sitrinin* ən çox zərərli növlər hesab olunurlar. Qeyd etdiyimiz mikotoksinlərin hamısı əsasən *Aspergillus, Penicillium* və *Fusarium* cinsləri tərəfindən sintez olunur. Aparılan tədqiqatlar zamanı Fusariumda sporulyasiya və mikotoksin istehsalı arasında genetik əlaqənin olması halı müşahidə edilmişdir. *Fitotoksinlər*- təbii biokimyəvi reaksiyalar nəticəsində göbələklər tərəfindən istehsal olunan və bitkilər üçün zəhərli olan ikincili metabolitlərdir. Bu metabolitlər özlərinin fitotoksik fəaliyyətlərinə, strukturlarına və toksikilik göstəricilərinə görə yüksək səviyyədə müxtəliflik göstərirlər. Fitotoksinlər əsas etibarı ilə *Alternaria, Botrtyis, Colletotrichum, Fusarium, Helminthsporium* və *Phoma* kimi cinslərin fitopatogen göbələk növlərindən təcrid olunurlar (Dan Xu, et all, 2021).

Ədəbiyyat:

Arnold L. D. (2014). *Valuable secondary metabolites from fungi*. Fungalbiology, 1-15.

Ana M. C., Richard A.W., Jin W.B., Nancy P.K.(2002).*Relationship between secondary metabolism and fungal development.* Microbiology and molecula rbiology reviews, 447-459**.**

Dan X., Mengyao X., Zhen S., Xiaowei J., Xuwen H., Daowan., Ligang Z. (2021). *Phytotoxic Secondary Metabolites from Fungi.* Department of Plant Pathology, College of Plant Protection, China Agricultural University, Beijing 100193 China.

COĞRAFİYA, EKOLOGİYA VƏ ƏTRAF MÜHİT BÖLMƏSİ

TEZİSLƏR

ECOLOGICAL PROBLEMS IN ROAD TRANSPORT AND THEIR ANALYSIS

Novruzov Etibar Gulmirza

Azerbaijan Technical University

https://orcid.org/0009-0008-5903-9969

etibar.novruzov.01@mail.ru

Rəyçi:

Mərdanov İlham İldırım oğlu,

Coğrafiya elmləri doktoru, professor

Summary

One of the main reasons for the emergence of global environmental problems in modern times is the pollution of the environment by vehicles. Compared to other types of transport (railway, air transport, sea and water (river) transport, etc.), it should be taken into account that the share of road transport in air pollution is greater. The transport-road complex is a source of strong environmental pollution. The ever-increasing intensity of traffic is one of the main sources of noise in the city. The article also mentions that traffic causes many other negative situations as well. Thus, every year, hundreds of millions of tons of harmful substances enter the atmosphere with exhaust gases. Under the influence of the harmful effects of transport, people's health deteriorates, soil and water bodies are poisoned, flora and fauna are severely damaged.

Keywords: automobile transport, environment, toxic substances, ecological problems, pollution.

ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ В АВТОМОБИЛЬНОМ ТРАНСПОРТЕ И ИХ АНАЛИЗ

Новрузов Этибар Гулмирза

Азербайджанский технический университет

https://orcid.org/0009-0008-5903-9969

etibar.novruzov.01@mail.ru

Резюме

Одной из основных причин возникновения глобальных экологических проблем в наше время является загрязнение окружающей среды транспортными средствами. По сравнению с другими видами транспорта (железнодорожным, воздушным, морским и водным (речным) транспортом и др.) следует учитывать, что доля автомобильного транспорта в загрязнении атмосферного воздуха больше. Транспортно-дорожный комплекс является источником сильного загрязнения окружающей среды. Постоянно растущая интенсивность дорожного движения является одним из основных источников шума в городе. В статье также упоминается, что дорожное движение вызывает и множество других негативных ситуаций. Таким образом, ежегодно с выхлопными газами в атмосферу попадают сотни миллионов тонн вредных веществ. Под воздействием вредного воздействия транспорта ухудшается здоровье людей, отравляются почвы и водоемы, наносится серьезный ущерб флоре и фауне.

Ключевые слова: автомобильный транспорт, окружающая среда, токсичные вещества, экологические проблемы, загрязнение.

AVTOMOBİL NƏQLİYYATINDA EKOLOJİ PROBLEMLƏR VƏ ONLARIN TƏHLİLİ

Novruzov Etibar Gülmirzə

Azərbaycan Texniki Universiteti

https://orcid.org/0009-0008-5903-9969

etibar.novruzov.01@mail.ru

Avtomobil nəqliyyatı dünya nəqliyyat sisteminin ayrılmaz tərkib hissəsidir. Statistik göstəricilərə əsasən 1995-ci ildə Dünyada 630 mln-a qədər avtomobil istismar olunurdu, hazırda avtomobillərin sayı 1 mlrd-ı keçib. Son illərdə dünyada hər il orta hesabla 70 mln avtomobil istehsal olunur.

Son illərdə Azərbaycan Respublikasında avtomobillərin sayı daha sürətlə artmışdır. 2001-ci ildə Azərbaycanda 450 min avtomobil olduğu halda 2011-ci ildə avtomobillərin sayı 1 mln-u keçmişdir. Respublika avtomobil parkının 60%-ə yaxını Bakı şəhərində cəmlənib, bu isə Bakı şəhərində və Abşeron yarımadasında ekoloji vəziyyəti daha da kəskinləşdirir.

Nəqliyyat-yol kompleksi hər bir ölkənin iqtisadiyyatının ən vacib tərkib elementlərindən biridir. Hazırda Yer kürəsi sıx əlaqə yolları toru ilə örtülüb. Bərk örtüklü avtomobil yollarının uzunluğu – 24 mln km, dəmiryolu – 1,25 mln km, boru kəməri – 1,9 mln km, hava yolları – 9,5 mln km, daxili su yolları – 550 min km, dəniz yolları – bir neçə mln km təşkil edir (Павлова,2007). Yolların uzunluğu daim artır. Dünya nəqliyyat parkında avtomobillərin sayı 1 mlrd-ı keçib.

Avtomobil nəqliyyatından ən böyük çirklənmə Bakıda və Abşeron yarımadasında qeyd olunur. Avtomobil nəqliyyatından atmosfer havasına atılan çirkləndirici maddələrin 70%-i Bakı, 6,4%-i isə Gəncə şəhəri ərazisinin payına düşür.

Hazırda xüsusilə iri şəhərlərdə havanın çirklənməsinin əsas mənbəyi olan ətraf mühitə atılan bütün zərərli emissiyaların yarıdan çoxu avtomobil nəqliyyatının payına düşür. Orta hesabla ildə 15 min km yürüşlə hər avtomobil 2 ton yanacaq və təxminən 26-30 ton hava, o cümlədən 4,5 ton oksigen yandırır ki, bu da insan ehtiyacından 50 dəfə çoxdur. Eyni zamanda avtomobildən atmosferə atılan maddələr(kq/il): dəm qazı - 700, azot dioksidi - 40, yanmamış karbohidrogenlər - 230 və bərk maddələr - 2-5. Bundan əlavə, əsasən qurğuşunlu benzinin istifadəsi səbəbindən bir çox qurğuşun birləşmələri buraxılır.

Müşahidələr göstərib ki, əsas yolun kənarında yerləşən (10 m-ə qədər) evlərdə sakinlər yoldan 50 m aralıda yerləşən evlərə nisbətən xərçəng xəstəliyindən 3-4 dəfə çox əziyyət çəkirlər. Nəqliyyat həm də su hövzələrini, torpağı və bitkiləri zəhərləyir.

İşlənmiş qazların bir hissəsi kimi atmosferə daxil olan zərərli maddələrin miqdarı nəqliyyat vasitələrinin ümumi texniki vəziyyətindən və xüsusən də ən böyük çirklənmə mənbəyi olan mühərrikdən asılıdır. Beləliklə, karbüratörün tənzimlənməsi pozulursa, karbonmonoksit emissiyaları 4...5 dəfə artır. Tərkibində qurğuşun birləşmələri olan qurğuşunlu benzinin istifadəsi atmosfer havasının yüksək zəhərli qurğuşun birləşmələri ilə çirklənməsinə səbəb olur (Məmmədov və Xəlilov,2006).

Nəqliyyatın növləri üzrə çirkləndirici maddələrin atılması aşağıdakı kimi paylanır:



Cədvəl 1. Dünyanın inkişaf etmiş ölkələrində çirkləndirici maddələrin nəqliyyat növləri üzrə paylanması,%-lə (Namazov, 2012)

Ümumi tullantılarda hərəkət edən mənbələrin payı 97%, stasionar mənbələrin payı isə 3% olub. Yanacaqdoldurma stansiyaları və avtomobil yolları da nəzərə alınarsa atmosferin çirklənməsində yerüstü nəqliyyatın payı 97% təşkil edir. Sonrakı yerlər hava nəqliyyatı və dəniz nəqliyyatına məxsusdur. Zəhərləyici maddələrin atmosferə atılmasının əsas səbəbi daxiliyanma mühərriklərində yanma prosesinin mükəmməl getməməsidir. Bunun nəticəsində atmosferə dəm qazı, azot oksidləri, karbohidrogenlər, kükürd oksidləri və s. kimi zəhərli qazlar xaric olunur. Hazırda nəqliyyatın atmosferə zərərli təsirini azaltmaq üçün konkret tədbirlər görülür, nəqliyyat vasitələrindən xaric olunan qazların zəhərliliyinə ciddi məhdudiyyətlər, normalar qoyulur. Buna baxmayaraq bu problem yenə də ciddi olaraq qalır və onun həll edilməsi üçün ciddi cəhdlər tələb olunur.

Böyük şəhərlərdə nəqliyyatın ətraf mühitə təsirini azaltmaq üçün şəhər sərnişin nəqliyyatında böyük tutumlu avtobuslardan, trolleybuslardan və tramvaylardan, xüsusilə metrodan istifadə olunması böyük əhəmiyyətə malikdir.

Nəqliyyat – şirin suyun çox böyük istehlakçılarından biridir. Bütün nəqliyyat növləri su istifadə edir, müxtəlif növ texnoloji və texniki məqsədlər üçün su istifadə olunur. Təbiətdə su dövran etdiyi üçün, bütün nəqliyyat növlərinin atmosferi və qurunu çirkləndirməsi öz növbəsində suyun keyfiyyətinə təsir edir. Nəqliyyat bu və ya digər dərəcədə su hövzələrini çirkləndirir (Namazov, 2012).

Təqdirəlayiq hal kimi qeyd etmək lazımdır ki, ölkəmizdə atmosfer havasının avtonəqliyyat vasitələrindən mühafizəsi istiqamətində hökumət səviyyəsində ciddi tədbirlər görülür. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 06.03.2010-cu il tarixində Avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zəhərli maddələrə dair tələblərin Avropa standartlarına uyğunlaşdırılması tədbirləri barədə müvafiq qərar qəbul edilməsi və 2010-cu il iyulun 1-dən Azərbaycan Respublikasının ərazisində dövriyyəyə buraxılan avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zəhərli maddələr üzrə «Avro-2» ekoloji normalarının tətbiq edilməsi qarşıya qoyulan

vəzifələrin icrası baxımından, həm də, eyni zamanda, problemin elmi-nəzəri və praktiki həlli istiqamətində xüsusilə əhəmiyyətlidir. Lakin nəzərə alsaq ki, Azərbaycanda avtomobillərin ümumi sayı artıq 1 milyonu keçib, onda gələcəkdə «Avro-3», «Avro-4» və nəhayət «Avro-5» normativlərinin tətbiq olunması məsələsi zəruri problem kimi qarşıda durur (Namazov,2012).

Çirkab sularının əsas hissəsini 3 hissəyə bölmək olar:

Cədvəl 2. Çirkləndirici suların əsas hissələrin paylanması diaqramı,%-lə (Namazov, 2012)

Nəticədə isə bu deyilənlər sübut edir ki, nəqliyyat şəbəkələri salınarkən bu işə diqqətlə yanaşılmalıdır. Yolların daha aşağı keyfiyyətli torpaq sahələrində salınmasına, müxtəlif nəqliyyat növləri arasında yük daşınmasını səmərəli bölüşdürmək, yol örtüklərinin keyfiyyətini artırmaq, yolların tutduğu sahələri azaltmaq lazımdır. Avtomobil nəqliyyatı ilə müqayisədə dəmiryolunda 1 ton yükün daşınmasına daha az enerji sərf olunduğu üçün böyük məsafələrə daşımaların dəmiryolu ilə həyata keçirilməsi məqsədəuyğundur.

Ədəbiyyat:

Павлова Е.И. (2007). Экология транспорта. М.: Транспорт.

Məmmədov Q.Ş., Xəlilov M.Y.(2006). «Ekologiya, ətraf mühit və insan» Bakı, «Elm» nəşriyyatı.– 608s.

Базаров Б.И.(2004) Экологическая безопасность автотранспортных средств – Ташкент: ТАДИ. – 104 с.

Namazov B.F (2012) “Avtomobilin ekoloji təhlükəsizliyi”-Bakı, 159s.

Aliyev A., Haziyev Y., Valiyev S., Aliyev S. (2024) Transport and environmental problems. Article in SCİENTİFİC Work.

https://www.researchgate.net/publication/380733779_Transport_and_environmental_problems

CLIMATE CHANGE: INFLUENCE MECHANISMS, METHODS OF COMBAT AND MAIN GOALS

Javadova Aytac Murad

Karabakh University

Lankaran State University

https://orcid.org/0000-0003-2033-7754

aytac.cavadova@karabakh.edu.az

Rəyçi:

Alməmmədli Məsud Gülalı oğlu,

Coğrafiya üzrə fəlsəfə doktoru

Summary

Climate change refers to long-term climate change. These changes can occur as a result of natural or human activities. The main aspects of climate change are: Greenhouse effect: The increase in greenhouse gases such as carbon dioxide and methane in the atmosphere causes the earth's temperature to rise. Global warming: An increase in average global temperatures resulting from melting glaciers and rising sea levels. Impact on ecosystems: Climate change, loss of biodiversity, habitat alteration and extinction of some species. Economic and Social Impacts: There are serious impacts on agriculture, water resources and human health, raising issues of food security and economic stability. In order to prevent climate change, it is necessary to introduce more sustainable and environmentally friendly approaches in energy production, transport and industry.

Keywords: temperature gradient, climate changes, Paris Agreement, environmental consequences.

ИЗМЕНЕНИЕ КЛИМАТА: МЕХАНИЗМЫ ВЛИЯНИЯ, МЕТОДЫ БОРЬБЫ И ОСНОВНЫЕ ЦЕЛИ

Джавадова Айтадж Мурад

Карабахский Университет

Ленкоранский государственный университет

https://orcid.org/0000-0003-2033-7754

aytac.cavadova@karabakh.edu.az

Резюме

Изменение климата относится к долгосрочным изменениям атмосферы. Эти изменения могут произойти в результате естественной или человеческой деятельности. Основными аспектами изменения климата являются: парниковый эффект, увеличение содержания в атмосфере парниковых газов, таких как углекислый газ и метан, приводит к повышению температуры Земли; глобальное потепление: повышение средней глобальной температуры в результате таяния ледников и повышения уровня моря; воздействие на экосистемы: изменение климата, потеря биоразнообразия, изменение среды обитания и исчезновение некоторых видов; экономические и социальные последствия: существуют серьезные последствия для сельского хозяйства, водных ресурсов и здоровья человека, что поднимает вопросы продовольственной безопасности и экономической стабильности. Чтобы предотвратить изменение климата, необходимо внедрить более устойчивые и экологически чистые подходы в производстве энергии, транспорте и промышленности.

Ключевые слова: температурный градиент, изменения климата, Парижское соглашение, экологические последствия.

İQLİM DƏYİŞMƏLƏRİ: TƏSİR MEXANİZMLƏRİ, MÜBARİZƏ ÜSULLARI VƏ ƏSAS HƏDƏFLƏR

Cavadova Aytac Murad qızı

Qarabağ Universiteti

Lənkəran Dövlət Universiteti

https://orcid.org/0000-0003-2033-7754

aytac.cavadova@karabakh.edu.az

Ətraf mühitdə baş verən mənfi təsirlər nəticəsində həlli çətin məsələlərlə üzləşirik. Antropogen fəaliyyətlər nəticəsində dünyada qlobal problemə çevrilmiş İqlim dəyişmələri günümüzün həlli vacib olan aktual məsələsidir. Bu əsasla iqlim dəyişmələri və statistik təhlili haqqında olan araşdırmamız aşağıdakı abzaslarda yer almaqdadır.

Dünya okeanların nəhəng ölçüsünü və istilik tutumunu nəzərə alsaq, Yerin orta illik səth temperaturunu hətta cüzi miqdarda artırmaq üçün böyük miqdarda əlavə istilik enerjisi tələb olunur. Sənayedən əvvəlki dövrdən baş verən qlobal orta səth temperaturunda təxminən 2 dərəcə Faradey (1 dərəcə Selsi) artımı kiçik görünə bilər, lakin bu, toplanmış istiliyin əhəmiyyətli dərəcədə artması deməkdir. [3]

1880-2020-ci illər intervalında temperatur məhdudiyyəti



Mənbə. NASA; Qlobal temperatur anomaliyaları.

Bu əlavə istilik regional və mövsümi temperaturun həddindən artıq artmasına səbəb olur, qar örtüyünü və dəniz buzunu azaldır, şiddətli yağışları gücləndirir, bitki və heyvanlar üçün yaşayış sahələrini dəyişir - bəzilərini genişləndirir, digərlərini daraldır. Aşağıdakı xəritədən göründüyü kimi, əksər quru əraziləri əksər okean ərazilərindən daha sürətli istiləşib və Arktika əksər bölgələrə nisbətən daha sürətli istiləşir. Bundan əlavə, aydındır ki, son bir neçə onillikdə istiləşmə sürəti 20-ci əsrin əvvəlindən bəri orta tempdən çox daha sürətlidir. [Yusifova, Cavadova, Vəliyeva, 2024]



20-ci əsrin əvvəlindən bəri (1901-2023) tendensiya ilə müqayisədə son bir neçə onillikdə (1994-2023) illik səth temperaturunda meyllər. **Mənbə.** NASA; Qlobal temperatur anomaliyaları.



1991-2020-ci illərin orta göstəricisi ilə müqayisədə 2023-cü ildə qlobal orta səth temperaturunun xəritəsi
Mənbə. NASA; Qlobal temperatur anomaliyaları.

Son istiləşmə uzunmüddətli orta göstəricidən çox daha sürətlidir, bəzi yerlərdə hər on ildə 1 dərəcə Faradey və ya daha çox istiləşir. Fərqlər, əks etdirən buz və qarın itirilməsinin istiləşmə sürətini artırdığı Arktikada ən dramatikdir. MOAA Milli Ətraf Mühit Məlumatı Mərkəzlərinin 2023-cü il Qlobal İqlim Hesabatına əsasən, 2023-cü ilin hər ayı həmin ay üçün 7 ən isti aylar arasında yer alıb və ilin ikinci yarısındakı (iyun-dekabr) ayların hər biri ən isti aylar olub. İyul, avqust və sentyabr aylarında qlobal temperatur uzunmüddətli orta göstəricidən 1,0°C (1,8°F) yuxarı idi - MOAA-nın rekordunda ilk dəfə hər ay bu həddi aşdı.[4]

Ortadan daha isti olan ərazilər qırmızı, ortadan daha soyuq olanlar isə mavi çalarlardır. Rəng nə qədər tünd olarsa, orta göstəricidən bir o qədər böyükdür. Animasiya edilmiş bar qrafiki 1901-2000-ci illərin orta göstəricisi ilə müqayisədə hər il 1976-cı ildən (solda) 2023-cü ilə (sağda) qlobal temperaturları göstərir. 1976-cı il (ən solda mavi bar) sonuncu dəfə 20-ci əsrin orta göstəricisindən daha soyuq idi. 2023 (sağda) ən isti il üçün yeni rekord müəyyənləşdirdi. [Yusifova, Cavadova, Vəliyeva, 2024]

İstiləşmə bütün planetdə vahid olmasa da, qlobal miqyasda orta hesablanmış temperaturun yüksəlmə tendensiyası soyumaqdan daha çox ərazinin istiləşdiyini göstərir. MOAA-nın 2023-cü il İllik İqlim Hesabatına görə, quruda və okeanda birləşmiş temperatur 1850-ci ildən bəri hər on ildə orta hesabla 0,11° Faradey (0,06° Selsi) və ya ümumilikdə təxminən 2° F artmışdır. 1982-ci ildən bəri istiləşmə sürəti üç dəfədən çox sürətlidir: on ildə 0,36° F (0,20° C). [Yin, Y.Y., Q.L. Miao and G.S. Tian, 2003]

İnsan fəaliyyəti, əsasən istixana qazlarının emissiyaları vasitəsilə, birmənalı olaraq qlobal istiləşməyə səbəb oldu və 2011-2020-ci illərdə qlobal səth temperaturu 1850-1900-dən yuxarı

1,1°C-ə çatdı. 1850–1900-cü illərdən 2010–2019-cu ilə qədər insan tərəfindən ümumi qlobal səth temperaturu artımının ehtimal diapazonu 0,8°C ilə 1,3°C arasındadır və ən yaxşı hesablama 1,07°C [2,01 ˚F] təşkil edir. Bu müddət ərzində çox güman ki, yaxşı qarışmış istixana qazları (İQ) 1,0°C-dən 2,0°C-yə qədər istiləşməyə, digər zərərvericilər (əsasən aerozollar) təbii olaraq 0,0°C-dən 0,8°C-ə qədər soyumağa kömək etmişdir. Günəş və vulkanik təsirlər qlobal səth temperaturunu –0,1°C-dən +0,1°C-yə, daxili dəyişkənlik isə onu –0,2°C-dən +0,2°C-yə dəyişdi. Yer kürəsinin gələcək istiləşməsinin miqdarı gələcək onilliklərdə nə qədər karbon qazı və digər istixana qazları buraxacağımızdan asılıdır. Bu gün fəaliyyətlərimiz - qalıq yanacaqların yandırılması və daha az dərəcədə meşələrin təmizlənməsi - hər il atmosferə təxminən 11 milyard metrik ton karbon əlavə edir. Bu, təbii proseslərin çıxara biləcəyindən daha çox karbon olduğundan, atmosferdəki karbon qazının miqdarı hər il artır.



Sol: İllik karbon emisiyaları (illər üzrə)

Sağ: Temperatur göstəricisi (illər üzrə)

Mənbə.NASA; Qlobal temperatur anomaliyaları.

Sol qrafikdə müxtəlif mümkün enerji siyasətlərinə və iqtisadi artım modellərinə əsaslanan iyirmi birinci əsr boyu karbon emissiyalarının hipotetik yolları. Sağda, 1901-1960-cı illərin orta göstəricisinə nisbətən proqnozlaşdırılan temperatur artımı.[5]

ABŞ-ın 2017-ci il İqlim Elmi Xüsusi Hesabatına əsasən, əgər illik emissiyalar 2000-ci ildən bəri olduğu kimi sürətlə artmağa davam edərsə, modellər bu əsrin sonunda qlobal temperaturun 1901-1960-cı illərin orta göstəricisindən ən azı 5 dərəcə Faradey isti olacağını proqnozlaşdırırlar və bəlkə də 10,2 dərəcə isti. Əgər illik emissiyalar daha yavaş artarsa və 2050-ci ilə qədər əhəmiyyətli dərəcədə azalmağa başlasa, modellərin proqnozlaşdırdığı temperatur hələ də 20-ci əsrin birinci yarısından ən azı 2,4 dərəcə və bəlkə də 5,9 dərəcəyə qədər isti olacaq. [Yusifova, Cavadova, Vəliyeva, 2024]

Nəticə olaraq, göstərilən real faktlardan yola çıxaraq, iqlim dəyişmələrinin qarşısının alınması əsas prioritetlərimizdən olmalıdır və aşağıdakı, vacib məsələlər öz həllini tapmalıdır. İlkin olaraq, Paris sazişi iqlim dəyişmələrinə qarşı yönəlmiş tədbir hesab olunur. Paris sazişinin əsas mahiyyəti karbon emisiyalarının minimuma endirilməsi və xalis sıfırın əldə olunmasıdır. [6]



Mənbə. Our World in Data

Qarşıya qoyulmuş hədəflərə çatmaq üçün sadalanan tədbirlərin icrası mütləqdir.

1. Enerjiyə qənaət
2. Elektrikli avtomobilə keçid
3. 4R qanunu tətbiqi
4. Bərpa olunan enerji mənbələrindən istifadə
5. Yaşıllıqların artırılması
6. Alternativ enerji mənbələrindən istifadə
7. Maarifləndirmə və ekoloji şüurun formalaşması

Ədəbiyyat:

Yusifova T.F., Cavadova A.M., Vəliyeva N.İ. (2024) Biosfer və onun mühafizəsi, dərs vəsaiti. Mingəçevir. Səh.338

Yin, Y.Y., Q.L. Miao and G.S. Tian, (2003) Climate Change and Regional Sustainable Development. Science Press, Beijing, 224 pp.

https://www.un.org/en/climatechange/

Climate change - European Commission

NASA SVS | Global Temperature Anomalies from 1880 to 2020

CO_2 emissions - Our World in Data

EVALUATING MACHINE LEARNING APPROACHES TO CLIMATE CHANGE PREDICTION

Ibrahimov Rashad Parviz

Azerbaijan Technical University

https://orcid.org/0009-0000-6958-0953

ibrahimovrashad99@mail.ru

Rəyçi:

İsayev Aqil Nadir oğlu,

Coğrafiya üzrə fəlsəfə doktoru

Summary

This study examines the application of machine learning approaches in climate change forecasting. The limitations of traditional climate forecasting methods and the potential of machine learning methods are highlighted. Artificial neural networks and other models are shown to be more accurate and efficient in predicting climate changes. The findings offer recommendations for utilizing these methods in environmental policy, agricultural planning, and security measures.

Keywords: Climate change, machine learning, forecasting, artificial neural networks, environmental policy.

ОЦЕНКА ПОДХОДОВ МАШИННОГО ОБУЧЕНИЯ ДЛЯ ПРОГНОЗИРОВАНИЯ ИЗМЕНЕНИЯ КЛИМАТА

Ибрагимов Рашад Парвиз

Азербайджанский технический университет

https://orcid.org/0009-0000-6958 0953

ibrahimovrashad99@mail.ru

Резюме

В этом исследовании рассматривается применение методов машинного обучения для прогнозирования климатических изменений. Подчеркиваются ограничения традиционных методов прогнозирования климата и потенциал методов машинного обучения. Показано, что искусственные нейронные сети и другие модели более точны и эффективны в прогнозировании климатических изменений. Результаты исследования предлагают рекомендации по использованию этих методов в экологической политике, планировании сельского хозяйства и мерах безопасности.

Ключевые слова: Изменение климата, машинное обучение, прогнозирование, искусственные нейронные сети, экологическая политика.

İQLİM DƏYİŞİKLİYİNİN PROQNOZLAŞDIRILMASINDA MAŞIN ÖYRƏNMƏ YANAŞMALARININ QİYMƏTLƏNDİRİLMƏSİ

İbrahimov Rəşad Pərviz

Azərbaycan Texniki Universiteti

https://orcid.org/0009-0000-6958-0953

ibrahimovrashad99@mail.ru

Son on illər ərzində iqlim dəyişikliyi qlobal problemlərə səbəb olmuşdur. Havanın istiləşməsi, ekstremal hava hadisələrinin artması və dəniz səviyyəsinin yüksəlməsi kimi məsələlər bu problemi tez həll etməyi tələb edir. Bu kontekstdə dəqiq proqnoz modellərinə ehtiyac var ki, dövlət və özəl sektor düzgün qərarlar qəbul edə bilsinlər (Smith & Jones, 2019).

Ənənəvi iqlim proqnoz modelləri fiziki modellərə əsaslanır. Bu modellər riyazi metodlar istifadə edərək iqlim elementlərini simulyasiya edir. Lakin, bəzi hallarda bu modellər qeyri-dəqiqliklər yaradır və mürəkkəb hesablama resursları tələb edir. Bu səbəbdən maşın öyrənmə metodlarına maraq artır. Maşın öyrənmə, xüsusilə də dərin öyrənmə alqoritmləri, böyük məlumatlardan nümunələr öyrənərək dəqiq proqnozlar vermə imkanına malikdir (Brown & Kim, 2021).

Bu tezisdə, iqlim dəyişikliyi proqnozlarında maşın öyrənmə yanaşmalarının təsirini araşdıracağıq. Məqsədimiz, mövcud metodların tətbiq sahələrini qiymətləndirmək və onların ekoloji siyasətdə istifadəsinə dair təkliflər təqdim etməkdir.

Son illərdə iqlim dəyişikliyini proqnozlaşdırmaq üçün maşın öyrənmə yanaşmaları geniş istifadə olunmağa başlamışdır. Bu tədqiqatda süni neyron şəbəkələri (ANN), təsnifat modelləri və zaman sıraları analizi kimi maşın öyrənmə metodları tətbiq edilmişdir. Əsas məqsəd, bu metodların iqlim dəyişikliyini daha dəqiq proqnozlaşdırma qabiliyyətini qiymətləndirməkdir.

İlk olaraq, iqlim məlumatları toplandı. Toplanan məlumatlar təmizləndi və modellər üçün uyğun formata çevrildi. Modelin təlimində geniş iqlim məlumatları, əsasən temperatur, yağış, külək sürəti və rütubət göstəriciləri istifadə edildi (Johnson et al., 2020). Hər bir model təlimdən keçmiş və doğruluq göstəriciləri ilə qiymətləndirilmişdir.

Tədqiqat nəticələri göstərir ki, süni neyron şəbəkələri ənənəvi modellərlə müqayisədə iqlim dəyişikliyini daha dəqiq proqnozlaşdırır. ANN modelləri xüsusi olaraq temperatur və yağıntı kimi dəyişənlərdə yüksək dəqiqlik göstərmişdir. Həmçinin, dərin öyrənmə alqoritmləri istifadə olunan zaman, proqnozların qeyri-sabit dəyişənlər üzərində daha düzgün nəticələr verdiyi müşahidə olunmuşdur (Lee & Wong, 2022).

Bu nəticələri daha aydın göstərmək üçün proqnoz dəqiqliklərini və modellərin müxtəlif göstəricilərini əks etdirən cədvəllər və qrafiklər təqdim edilir.

Cədvəl 1.

Modellərin Proqnoz Dəqiqlikləri (% ilə)

Model	**Temperatur proqnozu dəqiqliyi (% ilə)**	**Yağıntı proqnozu dəqiqliyi (% ilə)**	**Ümumi proqnoz dəqiqliyi (% ilə)**
Süni neyron şəbəkəsi	92.5	89.3	90.9
Qərar ağacları	87.1	84.6	85.8
Xətti regressiya	81.5	79.2	80.4
Naive Bayes	78.9	76.4	77.6

Cədvəl 2.

Modellərin MSE Dəyərləri (Orta kvadratik səhv)

Model	**Temperatur üzrə MSE**	**Yağıntı üzrə MSE**	**Ümumi MSE**
Süni neyron şəbəkəsi	0.082	0.107	0.095
Qərar ağacları	0.143	0.156	0.150
Xətti regressiya	0.211	0.238	0.225
Naive Bayes	0.254	0.289	0.272

Bu cədvəllər göstərir ki, süni neyron şəbəkələri digər modellərlə müqayisədə daha dəqiq nəticələr verir və daha az səhvlə proqnozlaşdırır.

Bu tədqiqatın nəticələri göstərir ki, maşın öyrənmə modelləri iqlim dəyişikliyini proqnozlaşdırmaq üçün effektiv bir vasitədir. Bu nəticələr kənd təsərrüfatı planlaması, ekoloji siyasət və hətta ekstremal hava hadisələrinin erkən xəbərdarlıq sistemləri üçün faydalı ola bilər. Ekoloji siyasətçilər üçün əldə edilmiş dəqiq iqlim proqnozları, uyğun tədbirlərin planlanması və resursların səmərəli istifadəsi baxımından böyük əhəmiyyət kəsb edir.

Gələcək tədqiqatlar üçün, daha çox məlumat dəstləri və fərqli iqlim göstəriciləri üzərində işləyərək modelin təkmilləşdirilməsi tövsiyə olunur. Həmçinin, hibrid maşın öyrənmə modellərinin istifadəsi də proqnozların dəqiqliyini daha da artırmaq üçün araşdırılmalıdır.

Ədəbiyyat:

Brown, L., & Kim, H. (2021). Machine learning approaches in climate prediction models: A comparative analysis. Journal of Environmental Science, 12(4), 251-270.

Johnson, R., Smith, M., & Taylor, D. (2020). Big data in climate forecasting. Computational Weather Science, 8(3), 190-205.

Lee, J., & Wong, S. (2022). The role of neural networks in climate change predictions. International Journal of Climatology, 36(7), 745-755.

Smith, A., & Jones, P. (2019). Challenges in traditional climate modeling. Global Environmental Change, 5(2), 123-130.

CHARACTERISTICS OF ANTHROPOGENIC IMPACT ON THE DYNAMICS OF FOREST LANDSCAPES ON THE NORTHEASTERN SLOPE OF THE LESSER CAUCASUS

Aliyeva Sabina Elman

Baku State University

https://orcid.org/0009-0009-8532-7099

sabinaalizadah458@icloud.com

Rəyçi:

Mərdanov İlham İldırım oğlu,

Coğrafiya elmləri doktoru, professor

Summary

The article is devoted to the forest landscapes of the north-eastern slope of the Lesser Caucasus and their dynamic changes as a result of anthropogenic effects. It is known that the north-eastern slope of the Lesser Caucasus has been under the active influence of human economic activity since ancient times. If we look at archival materials, maps and other fund materials, we can emphasize that the anthropogenic influence is becoming more intense day by day and causes noticeable changes. The rapid and intensive development of industry, science and technology has led to the complete anthropogenization of the foothills and low-mountain areas, and to the man-made nature of natural landscapes.

Key words: landscape, man-made, complex, dynamics.

ХАРАКТЕРИСТИКА АНТРОПОГЕННОГО ВОЗДЕЙСТВИЯ НА ДИНАМИКУ ЛЕСНЫХ ЛАНДШАФТОВ СЕВЕРО-ВОСТОЧНОГО СКЛОНА МАЛОГО КАВКАЗА

Алиева Сабина Эльман

Бакинский государственный университет

https://orcid.org/0009-0009-8532-7099

sabinaalizadah458@icloud.com

Резюме

Статья посвящена лесным ландшафтам северо-восточного склона Малого Кавказа и их динамическим изменениям в результате антропогенного воздействия. Известно, что северо-восточный склон Малого Кавказа издревле находился под активным влиянием хозяйственной деятельности человека. Если обратиться к архивным материалам, картам и другим фондовым материалам, то можно подчеркнуть, что антропогенное воздействие день ото дня становится все более интенсивным и вызывает заметные изменения. Быстрое и интенсивное развитие промышленности, науки и техники привело к полной антропогенизации предгорий и низкогорных территорий, к рукотворному характеру природных ландшафтов.

Ключевые слова: ландшафт, рукотворный, комплекс, динамика.

KİÇİK QAFQAZIN ŞİMAL-ŞƏRQ YAMACI MEŞƏ LANDŞAFTLARININ DİNAMİKASINDA ANTROPOGEN TƏSİRİN XARAKTERİSTİKASI

Əliyeva Səbinə Elman qızı

Bakı Dövlət Universiteti

https://orcid.org/0009-0009-8532-7099

sabinaalizadah458@icloud.com

Kiçik Qafqazın şimal-şərq yamacı landşaftları qədim dövrlərdən günümüzə qədər insanların fəal təsərrüfat fəaliyyətinə məruz qalmışdır. Bunun nəticəsində ayrı-ayrı geokomplekslərdə böyük areala malik antropogen landşaftlar formalaşmışdır. Tarixi materiallar, xəritə və digər mənbəlırə nəzər salsaq keçmiş dövrlərdən günümüzədək landşaftlarda gedən çevrilməni müşahidə etmək mümkündür. Tarixi dövrlər ərzində landşaftların tədqiqi hər bir landşaftın müəyyən dərəcədə antropogen təsirə məruz qaldığını göstərsə də, ən intensiv və qarşısıalınmaz təsir meşə landşaftlarında müəyyən edilmişdir. Tərtərçay, Köndələnçay hövzələrində meşə landşaftlarına təsir özünün ən pik həddində baş vermişdir (Xəlilov, 2006). Son 100-150 ildə meşə landşaftlarına təsir texnogenləşmə xarakteri almışdır. Ölkəmizin landşaftlarının tədqiqatına dair kifayət qədər xəritə və fond materuallarının var olmasına baxmayaraq landşaftın dinamikası və inkişafına antopogen təsirin xarakteristikası demək olar ki öyrənilməmişdir. Keçən əsrə aid xəritə və fond materialları əsasında meşə landşaftlarının dinamikasını tədqiq etmək və gələcək proqnozunu vermək daha asan olur (Müseyibov, 1998).

Arxeoloji qazıntı nümunələri, xəritə və fond materialları, kartoqrafik məlumatlar əsasında Kiçik Qafqazın şimal – şərq yamacı meşə landşaftlarının formalaşması və inkişafı mərhələlərini müəyyənləşdirmək imkanı yaranır. İnsan özünün texniki imkanları ilə təbiət və ətraf mühiti passiv şəkildə izləməmiş, daim ona təsir göstərərək özünün təsərrüfat fəaliyyəti üçün əlverişli şəraitə gətirmişdir. Landşaft vahidləri üzərində antropogen təsir həmin ərazidə keçmiş təsərrüfat fəaliyyətini və gələcək inkişaf və dəyişilmə meyllərini müəyyən edir. Bu isə özünü yeni təbii və antopogen landşaftların yaranmasında biruzə verir. Qədim yaşayış məntəqələrinin izləri hal – hazırda Kiçik Qafqazın ön dağlıq hissələrində, bubdan əlavə Ağdam, Füzuli rayonlarının ərazisində müəyyən qədər saxlanılmışdır. Bəzi mənbələr sübut edir ki, hətta bizim eradan əvvəl belə Kiçik Qafqaz ərazisində yerləşən çay dərələrində və ön dağlıq sahələrdən biçənək və otlaq kimi, bundan əlavə əkinçilik mərkəzləri kimi istifadə olunmuşdur. Antopogen təsirin müəyyən qədər özünü göstərməsi nəticəsində seliteb komplekslər formalaşmışdır. Lakin bu qədim landşaft kompleksləri uzun illər ərzində sıradan çıxaraq yenilənmiş və başqaları ilə əvəz olunmuşdur.

Qaragöl və Zalxagöl yaxınlığında bəzi qədim landşaft nümunələrinə rast gəlmək mümkündür. Son 100 – 150 il ərzində təbii landşaftlara olan antropogen təsir güclənmiş və çoxcəhətli xarakter daşımışdır. Məhz bu təsirin nəticəsi olaraq təbii landşaftların xarakteri dəyişərək antropogen – texnogen məhiyyəti kəsb etmişdir. Əsasən Tərtərçay, Xaçınçay, Köndələnçay və s. hövzələrində, alçaq dağlıq ərazilərin əkinçilik və bağçılıq üçün əlverişli sahələrində bu tip komplekslər genişlənmişdir (Səfərov, 2012).

1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 1,7 mln hektar ərazisi işğal olunub. Ermənistanın həyata keçirdiyi işğalçı siyasət Azərbaycan təbiətinə o cümlədən Kiçik Qafqazın şimal-şərq yamacı meşə landşaftlarına, bioloji müxtəlifliyə, bütövlükdə regionun ekoloji durumuna ciddi ziyan vurur, ətraf mühitin deqradasiyası ilə nəticələnən fəsadlara səbəb olur. 1993 – cü ildə Fizuli və Cəbrayıl rayonları erməni vandalları tərəfindən zəbt olundu. Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli 120-dən çox tarixi memarlıq abidəsi, bundan əlavə qiymətli ağac növlərindən ibarət meşələr, qeyri-adi flora və faunası ilə seçilən təbiət guşələri, mineral maddələri özündə cəmləyən su mənbələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilmişdir. Bundan əlavə 800 il yaşı olan və "Xan çinarı" adlandırılan şərq çinarı məhvə məruz qalmışdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dağıdıcı təsiri müəyyənləşdirən operativ mərkəz"i işğaldan sonrakı dövrlərdə Fizuli rayonu ərazisində təbii sərvətlərin ermənilər tərəfindən məhv olunmasına dair böyük meşə sahələri ilə örtülü olan Dövlətkarlı kəndində ağacların bütövlükdə qırılması, Qoçəhmədli kəndi boyunca meşə sahələrinin kütləvi surətdə məhv edilməsi, Yağlıvənd kəndində kəndarası yolun sağ və sol tərəfindəki böyük yaşıllıqların tamamilə qırılması, 2006 – 2009 – cu illər ərzində rayonun 35 min hektardan artıq ərazisinin ermənilər tərəfindən yandırılması faktını aşkarlayıb. Ümumilikdə ermənilərin işğal etdikləri ərazilərdə meşə fondunun ümumi sahəsi 228 min hektar təşkil etmişdir ki, onun da 54 min hektarı erməni vandalları tərəfindən məhv edilmişdir. Bu tarixi rəqəmlər işğal dövründə peyk şəkilləri vasitəsilə əldə olunmuşdur. Torpaqlarımızn işğalından sonra Ermənistan ağac istehsal edən ölkələrdən olub, halbuki sovet dövrü ədəbiyyatlarında ən az meşə ehtiyatına malik ərazilər siyahısında yer almışdır. Bu da heç şübhəsiz ölkəmizin meşə ehtiyatları hesabına mümkün olmuşdur. Hələ 1988 – ci ildən dağıdılmağa başlanılan Topxana meşəsindən işğal dövründə minlərlə ağac kəsilib və bir ədəd belə ağac əkilməyib (Ekologiya və Təbii Sərvətlər Nazirliyi).

XX əsrin əvvəllərində kənd təsərrüfatında meliorasiya və kimyalaşdırma tətbiq olunmadığından təbii landşaftların pozulması və sıradan çıxması demək olar ki müşahidə olunmamışdır. Bu mənada texnogenləşmə məhdud arealda özünü göstərirdi. Xüsusilə araşdırılan sahələrin meylli yamacları və plato sahələrində, dalğavari düzənliklərdə özünü göstərən dəmyə əkinçilik rayonlarında komponentlərarası qarşılıqlı əlaqə müəyyən qədər pozulurdu. Buna görə də sadalanan ərazilərin aqrolandşaftları nisbətən az dayanıqlı olması ilə xarakterizə olunurdu. Aqrolandşaftların böyük əksəriyyəti kiçik areallı olması və tez – tez eroziya proseslərinin baş verməsi ilə seçilirdi (İsmayılov, 1960). Sonrakı dövrlərdə dağətəyi və öndağlıq sahələrdə xam torpaqların mənimsənilməsi sayəsində pambıqçılıq, taxılçılıq kimi təsərrüfat sahələri intensiv şəkildə yayılmağa başlamışdır. Regionun dinamikasını əks etdirən çoxlu sayda materiallar qədim dövrlərdən günümüzədən dimanik dəyişmələrin xarakterini təzahür edir. Aydındır ki, insan fəaliyyəti artdıqca landşaftların texnogenləşməsi və antropogenləşməsi özünün ən yüksək səviyyəsinə çatıb. Müxtəlif mayerialların tədqiqi müəyyən edir ki, geniş dağ – meşə massivləri insanların təsərrüfat fəaliyyəti nəticəsində yaşayış məntəqələri və seliteb komplekslərlə əvəz olunmuşdur. Meşələrin qırılması və yerində yaşayış məntəqələrinin salınması, bundan əlavə mal – qaranın sistemsiz otarılması landşaftın strukturunu pozub dinamikasını daha da artırmışdır. Bundan əlavə sənaye məqsədi ilə landşaftların pozulması, əlavə olaraq dəmir yollarının çəkilməsi Kiçik Qafqazın şimal – şərq yamacı meşə landşaftlarının transformasiyasına səbəb olmuşdur (Səfərov, 2012). Tərtərçay hövzəsi münbit torpaq və geniş meşə massivlərinin mövcud olması səbəbilə anyropogen təsirə intensiv surətdə

məruz qalmışdır. Tərtib olunan xəritələr zaçan keçdikcə təbii komplekslərin transformasiya prosesləri nəticəsində deqrodasiyaya uğradığını və yeni tipli landşaftların daha üstün mövqe tutduğunu sübut edir. Xəritələrin əksəriyyətində çoxnövlü təbii və antropogen landşaft modifikasiyaları nəzərəçarpacaq dərəcədə dəyişikliyə məruz qalmışdır.

Aerokosmik şəkillərin deşifrələnməsi nəticəsində tərtib edilmiş xəritələrin əvvəlki dövrlərə aid xəritələrlə müqaisəsi göstərir ki, Kiçik Qafqazən şimal – şərq yamaclarına aid dağ yamacları, həmçinin dağətəyi düzənliklərin antropogenləşməsinə müvafiq olaraq təbii landşaftlarda məhsuldarlıq əmsalı azalır, yamacların çılpaqlaşması isə sürətlə artır (Qəribov, 1990).

44 günlük vətən müharibəsindən dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə ermənilərin ekologiyaya vurduqları ziyan aradan qaldırılmağa başlanıldı. Böyük qələbədən ötən bir ildə bir sözlə Zəfər günündə 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyasına start verildi. Bununla da Topxana meşəsi və digər meşə ehtiyatlarından məhrum olan ərazilərin yaşıllaşdırılmasına başlanıldı. 2020 – ci il dekabrın 3 – də Zəngilanın Ağalı kəndində 500 ədəd müxtəlif cinsli ağac əkildi. Ümumiyyətlə Kiçik Qafqazda yayılan 460 növdən artıq yabanı ağac və kol bitkisinin 70 – dən artıq nümayəndəsi endemik növ hesab olunur. Azərbaycanın meşə örtüyünün 25 % - i Kiçik Qafqazın payına düşür (xalqqazeti.az 2023).

Ədəbiyyat:

Qəribov Y.Ə. (1990). *Kiçik Qafqazın şimal – şərq yamacının müasir antropogen landşaftı.* Bakı, 342 s.

İsmayılov M.A. (1960). *XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı*. Bakı, 240 s.

Müseyibov M.A. (1998). *Azərbaycanın fiziki coğrafiyası*. Bakı, 397 s.

Xəlilov Ş. (2006). *Azərbaycanın ekocoğrafi problemləri*. Bakı, 209 s.

Səfərov E.İ. (2012). *Kiçik Qafqazın faydalı qazıntı yataqları*. Bakı, 120 s.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi (2021). *İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dağıdıcı təsiri müəyyənləşdirən operativ mərkəz.*

https://xalqqazeti.az/az

YAŞIL BANKÇILIQ: ƏTRAF MÜHİT DAYANIQLILIĞINI TƏŞVİQ ETMƏK ÜÇÜN BİR ALƏT

Məmmədzadə Vüsal Hikmət

Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası

https://orcid.org/0009-0006-2370-7895

vusallm02@gmail.com

Rəyçi:

Alməmmədli Məsud Gülalı oğlu,

Coğrafiya üzrə fəlsəfə doktoru

Xülasə

Yaşıl bankçılıq, konsept və praktika olaraq, ətraf mühitin davamlılığına verdiyi töhfəni artırmışdır. Qlobal ətraf mühit məsələlərinə artan diqqət fonunda, yaşıl bankçılıq maliyyə praktikalarını ekoloji məqsədlərlə uyğunlaşdırmağa dair innovativ həllər təklif edir. Bu məqalə, yaşıl bankçılığın ətraf mühitin pisləşməsinin azaldılmasında, davamlı layihələrin təşviqində və insanları və müəssisələri yaşıl təcrübələri qəbul etməyə yönəltməsindəki rolunu araşdıracaqdır. Dissertasiyaya daxil edilmiş empirik araşdırma məlumatları və müxtəlif ölkələrdən olan nümunələr, yaşıl istiqrazlar və ekoloji kreditlər kimi yaşıl bankçılıq məhsullarının həqiqətən də davamlılığı təşviq etdiyini və məsuliyyətli bankçılığı inkişaf etdirdiyini sübut edir. Nəticələr, yaşıl bankçılığın karbon izlərinin azaldılmasında və davamlı layihələr üçün iqtisadi stimulların təmin edilməsində əhəmiyyətli bir töhfə verdiyini göstərir. Məqalə həmçinin, yaşıl bankçılıq siyasətlərinin milli və beynəlxalq səviyyələrdə tənzimləyici tədbirlər və stimullar vasitəsilə necə irəlilədilə biləcəyinə dair bir neçə təklif təqdim edir ki, bu da həm bankları, həm də müştərilərini davamlılıqla əlaqəli fəaliyyətlərə cəlb etməyə yönəldir.

Açar sözlər: Yaşıl bankçılıq, ətraf mühitin davamlılığı, ekoloji kreditlər, yaşıl istiqrazlar, karbon izi.

ЗЕЛЕНЫЕ БАНКИ, КАК ИНСТРУМЕНТ ПРОДВИЖЕНИЯ ЭКОЛОГИЧЕСКОЙ УСТОЙЧИВОСТИ

Маммадзада Вусал Хикмат

vusallm02@gmail.com

Резюме

Зеленое банковское дело, как концепция и практика, значительно повысило свой вклад в экологическую устойчивость. В условиях повышенного глобального внимания к экологическим проблемам, зеленое банковское дело предлагает инновационные решения для согласования финансовых практик с экологическими целями. Эта работа рассматривает роль зеленого банковского дела в смягчении экологической деградации, продвижении устойчивых проектов и стимулировании людей и бизнесов к переходу на экологически чистые практики.Эмпирические данные и примеры из различных стран, приведенные в диссертации, подтверждают, что такие продукты зеленого банковского дела, как зеленые облигации и экологические кредиты, действительно способствуют устойчивости и развитию ответственного банковского дела. Результаты показывают, что зеленые банки играют значительную роль в сокращении углеродного следа и предоставлении экономических стимулов для устойчивых проектов.Кроме того, работа предлагает несколько способов, как можно продвигать зеленые банковские политики на национальном и международном уровнях через регулирующие меры и стимулы, чтобы привлечь как банки, так и их клиентов к участию в деятельности, направленной на устойчивое развитие.

Ключевые слова: Зеленое банковское дело, экологическая устойчивость, экологические кредиты, зеленые облигации, углеродный след.

GREEN BANKING AS A TOOL FOR PROMOTING ENVIRONMENTAL SUSTAINABILITY

Mammadzada Vusal Hikmat

The Academy of Public Administration under the President of the Republic of Azerbaijan

https://orcid.org/0009-0006-2370-7895

vusallm02@gmail.com

The bankers have realized over the last couple of decades their role in promoting environmental sustainability. Conventionally, banks have tended to maximize their profit without being conscious of active environmental management. However, with increased awareness of climate change, pollution, and resource depletion, there is an increasing evolution of green banking practices that converge financial services into sustainable development goals. Today, it's increasingly perceived as a strategic avenue toward addressing environmental problems: responsible lending, investment in eco-friendly projects, and policies that encourage both clients and business to reduce environmental degradation.

This paper reviews green banking as an emerging viable tool for promoting environmental sustainability. The thesis explores the ways in which green banking has nurtured the environment and provided a number of economic benefits to its clients with regards to adapting eco-friendly mechanisms; it further explores how green banking initiatives are taken in various countries around the world, especially in the emerging markets where sustainable finance happens to be part of a very fast-growing sector.

Research Methodology

In this respect, the empirical research approach to be undertaken in the current study will comprise case study analysis, data from financial institutions, and a literature review on green banking and environmental finance. The necessary information was acquired from those banks that have already launched green banking services through their financial statements, sustainability reports, and carbon footprint analysis. A survey was also conducted for clients who had already availed of the green banking programs to gather their perspectives about the benefits on sustainability and finance.

Results

The research findings indicate that green banking practices significantly contribute to environmental sustainability by:

1. Reducing Carbon Footprint: Banks offering green bonds and eco-loans incentivize companies to lower their emissions and adopt green technologies. For instance, the issuance of green bonds by major banks has funded renewable energy projects and sustainable infrastructure in various countries (Pretty, 1994).

2. Promoting Sustainable Development: Green banking policies encourage businesses and individuals to invest in energy-efficient projects and adopt environmentally responsible practices. In

particular, green loans and lower interest rates for eco-friendly initiatives have driven businesses toward sustainability (Oliyev & Osmanov, 2014).

3. Enhancing Social Responsibility: Green banking improves a bank's corporate social responsibility by addressing environmental concerns. This, in turn, builds client trust and attracts customers who prioritize sustainability, enhancing the bank's reputation and client base.

Discussion

Green banking initiatives have proven effective in addressing global environmental challenges, such as climate change and pollution. Banks are now playing a dual role as financial institutions and environmental stewards by promoting sustainable practices. However, there are challenges to implementing green banking, including regulatory barriers, limited awareness among customers, and higher initial costs for eco-friendly projects. To overcome these challenges, banks and regulatory bodies need to work collaboratively. Recommendations include increasing government incentives, establishing clear regulatory frameworks for green banking, and raising public awareness about the benefits of green finance (Harris et al., 1996; State Statistics Committee of the Republic of Azerbaijan, 2014).

Conclusion

Green banking is one of the strong weapons that act against global environmental sustainability and offer ecological and economic benefits. In this thesis, full importance has been given to green banking for reducing the carbon footprint of the financial sector and contributing toward achieving sustainable development. Green banking will also contribute importantly to global environmental efforts due to continuously rising regulatory support and awareness. Further research and innovation are needed in green finance so that these practices may be refined and put to fullest use toward their salutary impact on the environment.

References:

Caliskan, G. (2008). Sustainable Banking for a Green Future. Environmental Economics, 2(4), 50-62.

Harris, S., Johnson, L., and Roberts, M. (1996). Green Banking Practices and Environmental Impact. Journal of Financial Services, 34(2), 15-30.

Mishra, P. 2013, "Green Banking in Developing Nations". Journal of Sustainable Development, 12(1):72-89.

Oliyev, R., Osmanov H. 2014, "Eco-Innovation in Banking: Case Studies from Emerging Markets", Journal of Environmental Finance, Vol 9(3), pp: 18-29.

Pretty, J. 1994 "Financial Sector's Role in Environmental Conservation", International Journal of Environmental Studies, vol.51 no. 3, pp:120-135

State Statistics Committee of the Republic of Azerbaijan. 2014, Environmental Economics Statistics Report

THE ROLE OF VIRTUAL REALITY IN ECOLOGICAL TRANSFORMATION: INNOVATIVE SOLUTIONS IN THE FIGHT AGAINST CLIMATE CRISIS

Bunyatova Shams Anvar

Baku State University

https://orcid.org/0000-0003-1451-8372

shams.bunyatova@gmail.com

Rəyçi:

Mərdanov İlham İldırım oğlu,

Coğrafiya elmləri doktoru, professor

Summary

The disruption of the balance of power in human-nature relations, which characterises the end of the Holocene and the beginning of the Anthropocene, has led to the emergence of many ecological problems. It is important to try different ways to raise people's awareness about the seriousness of this situation, which is the cause of many climate problems, especially global warming. The main purpose of this article is to determine the beneficial aspects of using virtual reality as an environmental education tool in combating climate change, which is a global problem. In this context, the correct use of technological innovations, the scope of which is expanding day by day, can provide effective results in eliminating the negative consequences of today's and future environmental problems. Therefore, virtual reality tools, which make individuals direct participants in various climate change processes by creating simulations, have a relatively greater emotional and psychological impact on individuals. In this respect, virtual realities create an opportunity for individuals to strengthen their sense of responsibility towards nature and to make environmentally friendly choices by strengthening public awareness.

Keywords: virtual reality, simulation, ecology, climate change, anthropocene era.

РОЛЬ ВИРТУАЛЬНОЙ РЕАЛЬНОСТИ В ЭКОЛОГИЧЕСКИХ ПРЕОБРАЗОВАНИЯХ: ИННОВАЦИОННЫЕ РЕШЕНИЯ В БОРЬБЕ С КЛИМАТИЧЕСКИМ КРИЗИСОМ

Бунятова Шамс Анвар

Бакинский государственный университет

https://orcid.org/0000-0003-1451-8372

shams.bunyatova@gmail.com

Резюме

Нарушение баланса сил в отношениях между человеком и природой, характеризующее конец голоцена и начало антропоцена, привело к возникновению множества экологических проблем. Важно попробовать различные способы повышения осведомленности людей о серьезности этой ситуации, которая является причиной многих климатических проблем, особенно глобального потепления. Основная цель данной статьи - определить положительные аспекты использования виртуальной реальности в качестве инструмента экологического образования в борьбе с изменением климата, которое является глобальной проблемой. В данном контексте правильное использование технологических инноваций, сфера применения которых расширяется с каждым днем, может дать эффективные результаты в устранении негативных последствий сегодняшних и будущих экологических проблем. Поэтому инструменты виртуальной реальности, которые делают человека непосредственным участником различных процессов изменения климата путем создания симуляций, оказывают относительно большее эмоционально-психологическое воздействие на человека. В этом отношении виртуальные реальности создают возможность укрепить чувство ответственности перед природой и сделать экологически безопасный выбор, повышая осведомленность общества.

Ключевые слова: виртуальная реальность, симуляция, экология, изменение климата, антропоценовый период.

VİRTUAL REALLIĞIN EKOLOJİ TRANSFORMASİYADA ROLU: İQLİM DƏYİŞİKLİKLƏRİNƏ QARŞI MÜBARİZƏDƏ İNNOVATİV TEXNOLOGİYALAR

Bünyatova Şəms Ənvər

Bakı Dövlət Universiteti

https://orcid.org/0000-0003-1451-8372

shams.bunyatova@gmail.com

Rəqəmsal dünya: dövrümüzün gerçəkliyi kimi. Texnologiyanın həndəsi silsilə ilə inkişafı və virtual aləmin əksəriyyət üçün əlçatan olması faktı, texnoloji alətlərdən həyatın bütün aspektlərində istifadəyə, insan-kompyuter əsaslı qarşılıqlı əlaqənin inkişafına, müxtəlif sahələrdə ümumi hədəfə çatmaq üçün ümumilikdə multidisiplinar əməkdaşlığın formalaşması üçün geniş imkan yaradır. Belə ki, metaverse kimi rəqəmsal reallıq fərdlərin gerçəkliyi qavraması və təsviri prosesində köklü dəyişiklərə səbəbiyyət verməkdədir. Dünyanı barmaq ucları ilə gəzmək fürsəti, daha rəngarəng və əyləncəli məkanlar, yeni-ideal kimlik formalaşdırmaq kimi imkanlar təklif edən virtual gerçəklik eyni anda sanki zaman və məkan qavrayışının da itməsinə, beləliklə də insanların bəşəri problemlərdən qaçaraq sığındığı və yenidən inşa etdikləri bir dünya kimi xarakterizə etmək olar. Ancaq sual yaranır bu yeni ideal dünya həqiqətən də material aləmdən tamamilə qopub və öz bünövrəsi üzərindəmi qurulub? Cavab təbii ki, xeyr. Simulyasiyalara əsaslanan reallıqlar hələ də təbiət və onun nemətləri ilə birbaşa bağlıdır. Belə ki, rəqəmsal dünyaların artan cazibəsinə baxmayaraq, qeyd etmək vacibdir ki, məhz təbiət insanın fiziki mövcudluğunun, mental sağlamlığının məhək daşıdır. Bu mənada, simulyasiyalar aləmi alternativ dünya modeli kimi çıxış etsə də, onun ümumbəşəri problemlərin həllində konstruktiv instrument kimi istifadəsi daha məqsədəuyğundur. Bu aspektdən yanaşdıqda, yəni konsumerist əsaslı virtual reallıq deyil, əksinə ümumi cəmiyyət və onun sağlam gələcəyi üçün effektiv praqmatik nəticələr verən, ekoloji-ictimai savadlılığı artıran model formalaşdırmaq daha adekvat seçim ola bilər. Bu bir reallıqdır ki, XXI əsr insanı üçün fərq etməz istər inkişaf etmiş, istərsə də geridə qalmış ölkərin vətəndaşları üçün internet, smartfonlar, bir sıra digər qadgetlər bir növ ilkin tələbatlar sırasına daxil olmuşdur. Bununla yanaşı, hər bir sinfi təbəqənin ekonomik vəziyyətinə uyğun olan texnologiya bazarının mövcudluğu onlardan istifadənin kütləviləşməsinə, hətta qloballaşmasına gətirib çıxarmışdır. Təbii ki, virtual reallıq əsaslı bu cür texnologiyaların geniş spektrli tətbiqi nəticəsində onların emosional-psixoloji effekti hər kəs üçün identik xarakter daşımır. Belə ki, fərdlərin bir qismi onun faydalı aspektindən yalnızlıqdan qurtulmaq yolu, biliklərinin artırılması vasitəsi, ideal biznes muhiti kimi yararlanırsa, bir digər qismi mənfi kontekstdə anlaşılacaq təbliğat aləti, kiber dələduzluq, bullinq, əslində var olmayan "qayğısız həyat" imici formalaşdırmaq üçün bir yol kimi yararlanır. Xüsusilə, elmi tədqiqat proseslərinin optimallaşdırılması, sərhədləri aşan kommunikasiya modeli, uzaqdan idarəetməni təmin edən vasitə, həmçinin müəyyən qrup fiziki məhdudiyyətli şəxslər üçün altı sensomotorik hərəkəti təmin edən terapiya modeli kimi istifadə onun bəşəriyyətə xeyrli aspektini vurğulayır. Məhz bu baxımdan qlobal xarakterli aktual problemlərdən biri kimi iqlim dəyişikliklərinə diqqəti yönəltmək və kütləvi surətdə ekoloji maarifləndirmə aparmaq üçün virtual reallıqlar xüsusi önəm kəsb edir. Bu baxımdan, virtual reallıq da daxil olmaqla rəqəmsal texnologiyaların meydana çıxması cəmiyyət və elmi ictimaiyyət arasında əlaqənin yaradılması prosesini asanlaşdırılmasına, həmçinin ətraf mühitin mühafizəsinə dair tədqiqatların aparılmasında innovativ yolların formalaşdırılması üçün yeni imkanlar açır (Vercelloni et al, 2021).

Ekoloji savadlılığın artırılmasında virtual reallıq effektiv alət kimi. Belə ki, iqlim dəyişiklikləri bəşəriyyətin üzləşdiyi və dramatik nəticələrlə (buzlaqların əriməsi, vəhşi təbiət populyasiyalarının dəyişikliyə uğraması, ekstrimal hava şəraitlərinə artıq daha intensiv rast gəlinməsi və.s) sonlana biləcək ən böyük problemlərdən biri, bəlkə də birincisidir. Bu mənada getdikcə artan və modifikasiyaya uğrayan ekoloji problemlər bəşəriyyətin antroposen çağına keçdiyini bir daha təsdiqləyir. İnsan fəaliyyətlərinin ekosistemlər üzərindəki təsirlərinə fokuslanan antroposen çağı iqlim problemlərinin mikro mühitdən makro mühitə keçidini, onunla mübarizədə kollektiv iştirakı təmin edən tədbir planlarının hazırlanmasını vacib edən geoloji dövrdür. Ekosistemin bir hissəsi olan insanın təbiəti öz tələbatlarına uyğunlaşdırması və nəticədə insan-təbiət münaqişəsinin başlanması "antropoliji çirklənmə"yə (Sümer & Tekin, 2020) yol açmışdır. Lakin problemin həlli istiqamətində insanlara təsir etmək, onları müəyyən vərdişlərdən çəkindirmək bir qədər qəliz məsələ kimi qarşımıza çıxır. Maneəyə səbəb olan nöqtələrdən biri ekoloji problemlərin nisbətən abstrakt fenomen olması və insanların gündəlik həyatda onu qavramaqda çətinlik çəkməsindədir. Belə ki, iqlim dəyişikliklərinin səbəb olduğu problemlər və onun nəticələri tam anlamı ilə adi insaların gözü ilə ardıcıl şəkildə müşahidə oluna bilən bir proses deyil, onun təsirləri illər ərzində tədricən inkişaf edir və çox böyük bir problem kimi qarşımıza çıxır. Bu kontekstdə, virtual reallıq uzun zaman dilimi çərçivəsində baş verən iqlim dəyişikliklərini qısa müddət ərzində təcrübədən keçirmək və vizuallaşdırmaq üçün istifadə oluna bilər. Bu mənada zaman və nəticə arasında məsafənin böyük olması bir faktordur. Digəri isə məkan faktorudur. Məsələn istixana qazı emisyalarının təsiri onların yerləşdiyi məkandan fərqli ərazilərdə də görülə bilər. Zaman və məkan distansiyaları kimi faktorlar öz növbəsində insanların iqlim dəyişikliklərinə münasibətdə dayanıqlı davranış modelinin yaranmasında çətinliyə səbəb olur (Trope & Liberman, 2010).

Bir sıra sahələrdə, eləcə də ətraf mühitlə bağlı tədqiqatlarda ənənəvi sistemlərdən virtual prototiplərin əsasında qurulmuş simulyasiyalara proqressiv keçid müşahidə olunur. Təbii ki, media, sənədli filmlər, müxtəlif illustirasiyalı broşuralar kimi ənənəvi vasitələrdən istifadə də öz növbəsində iqlim dəyişikliyinin gələcək nəticələrini müəyyən mənada təsvir etməyə imkan verir (Maura, Margherita & Michele, 2009). Lakin məhz immersiv virtual reallığa əsaslanan eksperimentlərin aparılması iqlim dəyişikliklərinə münasibətdə daha məsuliyyətli olmaq üçün nisbətən güclü vasitədir. Bu kontekstdən yanaşsaq, immersiv virtual təcrübə iqlim dəyişikliklərinə münasibətdə həm koqnitiv, həm də affektiv səviyyədə təsirlərə malikdir. İlk növbədə bu cür texnologiyalardan istifadə etmək iştirakçıların iqlim dəyişikliklərinin işləmə mexanizmini, onun yaranma prosesini, sonrakı nəticələrini daha dərindən dərk etməyə imkan verir. Bu mənada, yalnızca nəzəri yanaşmanı deyil, eyni zamanda vizual idraki obraz yaratmağa şərait yaratmaqla maarifləndirmə prosesini dəstəkləyir. Beləliklə, insanlara "orada olmaq" hissi yaratmaqla ekoloji problemlərin bir iştirakçısı olmağa şərait yaradır (Sanchez-Vives & Slater, 2005). Digər tərəfdən o insan-təbiət münasibətlərində emosional bağlılıq hissinə fokuslanaraq empatiya hissini formalaşdırır, problemin cəmiyyətin hər bir fərdi üçün şəxsən aktual məsələ kimi dəyərləndirməsinə və mövcud olan və yarana biləcək risklərin həlli istiqamətində təkcə beynəlxalq aktorların deyil, dünyanın hər bir sakinin cavabdeh olması hissini formalaşdırır (Thoma et al, 2023).

Nəticə.

Aydın məsələdir ki, bir çox problemlər kimi texnoloji yeniliklərdən məhz ekosistemlərdəki münasibətlərin tənzimlənməsində tətbiqi də birmənalı qarşılanmayan və mübahisə doğuran mövzulardan biridir. Bu perspektivdən yanaşdıqda, xüsusilə transhumanizm və biokonservatizm kimi bir-birinə əks ideologiyaların mövqeyinə nəzər salmaq zəruridir. Transhumanizm

biotexnologiyalardan istifadə edərək iqlim dəyişikliklərinə qarşı daha dözümlü bitki növlərinin, biomühəndisliyin təkmilləşdirilməsi ilə müxtəlif orqanizmlərin yaradılmasını, təbii qaynaqlara nəzarət prosesində sünii intellekt və robotlardan istifadəni dəstəklədiyi halda, biokonservatizm məsələyə münasibətdə mühafizəkar xarakterlidir. Belə ki, transhumanizmi "dünyanın ən təhlükəli ideologiyası" (Frensis Fukuyama) kimi dəyərləndirən biokonservatistlər təbiətin radikal texnoloji yeniliklərdən qorunmasına, texnoloji əsaslı həll yolları əvəzinə ekoloji etik qaydalar çərçivəsində daha ənənəvi metodların tətbiqini uyğun hesab edir. Biokonservatistlərə görə, ekosistemə insan-texnologiya müdaxiləsi bəşəriyyətin potensial olaraq idarəsi və geri qaytarılması mümkünsüz olan nəticələrlə, həmçinin ekzistensial böhranla üzləşməsinə gətirib çıxara bilər (Bostrom, 2005). Beləliklə, bu iki əks qütbdə mövqe tutan ideoloji istiqamət arasında qızıl ortanı tutmaqla və balanslaşdırılmış addımlar atmaqla innovativ texnologiyalardan biomüxtəlifliyin qorunması, yaşıl dünya ideyasının dəstəklənməsi, ümumilikdə təbiət və insanlığa xidmət edə biləcək bir alət kimi istifadəsi utilitar seçim olacaqdır. Beləliklə, vurtual reallıqlardan düzgün istifadə zaman israfının qarşısını alır, yüksək maliyə tələb edən fiziki prototiplər əvəzinə rəqəmsal interfeyslərdən istifadə xərcləri azaldır, eyni zamanda yetəri qədər uzaq məsafələrdə yerləşən və tədqiqatçılar üçün potensial təhlükəli ekosistemləri vizuallaşdırmaqla, onları əlçatan etməklə buradakı dəyişiklikləri fasiləsiz şəkildə izləməyə fürsət yaradır. Bu baxımdan, virtual reallıqlar və rəqəmsal texnologiyalar tədqiqatçıların iqlim dəyişikliyi ilə bağlı elmi biliklərindəki boşluqları doldurmaqla ekoloji proseslərin təhlilində (Vercelloni, 2021) yeni yol xəritəsi çəkir və kompleks yanaşmanı təmin edir. Nəticə etibarilə, iqlim dəyişikliklərinin və ekoloji problemlərin həlli zamanı texnoloji yeniliklərdən qədərində və adekvat istifadə davamlı inkişafı dəstəkləməklə ilk növbədə gələcək nəsillər üçün təbii sərvətlərdən, kapitaldan istifadədə fürsət bərabərliliyinə imkan yaratmalıdır (Norton, 2009). Eyni zamanda, ekoloji etika nümayəndəsi Aldo Leopoldun 1949-cu ildə işlətdiyi metoforik ifadəsi ilə desək, "dağ kimi düşünməliyik" (Loman, 2020). Necə ki, dağlar uzun müddət davam edən və qarşılıqlı təbii proseslərin nəticəsidir, insanlar da iqlim dəyişikliklərinə münasibətdə bu nöqteyi nəzərdən yanaşmalı, təbiəti insan üçün sadəcə fayda mənbəyi deyil, onun varlığını formalaşdıran bir ünsür, habelə təkcə bu günün deyil, gələcək nəsillərin də ehtiyaclarını nəzərə almağa və bu gün verilən qərarların uzunmüddətli perspektivlərini dəyərləndirməyə təşviq edir. Ümumilikdə deyə bilərik ki, virtual reallıqları iqlim dəyişikliklərə kimi problemlərin həllinə yönəltməklə cəmiyyətin diqqətini ekosistemik çöküşə, hətta insanlığın özünü yox etmə ehtimalı da daxil olmaqla antroposen dövrün özü ilə gətirdiyi çətinliklərə cəmləmək mümkündür. (Molo & Şeylan, 2023). Beləliklə də, hindu atalar sözündə deyildiyi ki, biz yer kürəsini əcdadlarımızdan miras deyil, övladlarımızdan borc götürdüyümüzü unutmamalıyıq.

Ədəbiyyat:

Bostrom, N. (2005). A history of transhumanist thought. Journal of Evolution and Technology, 14(1), 1-25.

Loman, O. (2020). A problem for environmental pragmatism: Value pluralism and the sustainability principle. Contemporary Pragmatism, Vol. 17, 286-310.

Maura, M., Margherita, P., & Michele, G. (2009). The impact of virtual environments on human collaboration in product design. Proceedings of ICED 09, the 17th International Conference on Engineering Design, Vol. 9, Human Behavior in Design, 57–68. Palo Alto, CA, USA.

Molo, Ü., & Şeylan, S. (2023). Küresel iklim sorunları ve sanal gerçeklik anlatıları: 360 derece belgesel filmler üzerine bir değerlendirme. TRT Akademi , 8 (17) , 174-199 . DOI: 10.37679/ trta.1207395

Norton, B. G. (2009). Ethics and sustainable development: An adaptive approach to environmental choice. In G. Atkinson, T. Tietenberg, et al. (Eds.), Handbook of sustainable development (pp. 27–44). Edward Elgar Publishers.

Sanchez-Vives, M. V., & Slater, M. (2005). From presence to consciousness through virtual reality. Nature Reviews Neuroscience, 6(4), 332-339. https://doi.org/10.1038/nrn1651

Sümer, Ö., Akin, A. L. A. K., & Tekin, A. (2020). Antropojen ve Antroposen kavramlarının tarihsel gelişimine yerbilimsel bir bakış. Türkiye Jeoloji Bülteni, 63(1), 1-20.

Thoma, S. P., Hartmann, M., Christen, J., Mayer, B., Mast, F. W., & Weibel, D. (2023). Increasing awareness of climate change with immersive virtual reality. Frontiers in Virtual Reality, 4(4), 1-14. https://doi.org/10.3389/frvir.2023.897034

Trope, Y., & Liberman, N. (2010). Construal-level theory of psychological distance. Psychological Review, 117(2), 440–463. https://doi.org/10.1037/a0018963

Vercelloni, J., Peppinck, J., Santos-Fernandez, E., McBain, M., Heron, G., Dodgen, T., Peterson, E. E., & Mengersen, K. (2021). Connecting virtual reality and ecology: a new tool to run seamless immersive experiments in R. PeerJ Computer Science, 7, e544. https://doi.org/10.7717/peerj-cs.544

ECOLOGICAL RECONSTRUCTION OF THE TERRITORIES LIBERATED FROM OCCUPATION

Yusubova Zulfiyya Shirin

National Azerbaijan Literature Museum named after Nizami Ganjavi

https://orcid.org/0009-0009-4913 5233

zyusubova@beu.edu.az

Rəyçi:

Mərdanov İlham İldırım oğlu,

Coğrafiya elmləri doktoru, professor

Summary

The main purpose of writing the thesis is to direct the attention of many institutions to these areas in the reconstruction of lands freed from occupation, and at the same time to involve the research team of Oxford University, which conducted research here, in the restoration of these areas. The center's research in Barda and Gabala, our ancient cities, gives them the opportunity to familiarize themselves with these areas and apply the reconstruction work they have gained from their previous experience here as well. In this way, we can use the reconstruction projects used by many countries. Beneficial placement of newly built residences can stimulate faster and more efficient economic development in the area. The fact that the region has a significant supply of fresh water will positively affect the progress of many agricultural areas.

Keywords: restoration, Oxford University, agriculture, ecological development.

ЭКОЛОГИЧЕСКАЯ РЕКОНСТРУКЦИЯ ТЕРРИТОРИЙ, ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ

Юсубова Зульфия Ширин

Национальный музей азербайджанской литературы имени Низами Гянджеви

https://orcid.org/0009-0009-4913-5233

zyusubova@beu.edu.az

Резюме

Основная цель тезисов – обратить внимание многих учреждений на эти районы при реконструкции земель, освобожденных от оккупации, и в то же время привлечь исследовательскую группу Оксфордского университета, которая проводила здесь исследования, к восстановлению этих районов. Исследования центра в Барде и Габале, наших древних городах, дают им возможность ознакомиться с этими районами и применить здесь реконструкционные работы, полученные ими из своего предыдущего опыта. Таким образом, мы можем использовать проекты реконструкции, используемые многими странами. Выгодное размещение вновь построенных жилых домов может стимулировать более быстрое и эффективное экономическое развитие в этом районе. Тот факт, что в регионе имеется значительный запас пресной воды, положительно скажется на прогрессе многих сельскохозяйственных районов.

Ключевые слова: восстановление, Оксфордский университет, сельское хозяйство, экологическое развитие.

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN EKOLOJİ YENİDƏN QURULMASI

Yusubova Zülfiyyə Şirin

Nizami Gəncəvi adına Milli Azərbaycan ədəbiyyatı Muzeyi

https://orcid.org/0009-0009-4913 5233

zyusubova@beu.edu.az

Müharibənin sonrakı dövrü işğaldan azad olunmuş ərəzilərin yenidən canlanmasıdır. Otuz ilə yaxın öz həmvətənlərinin qayğısından uzaq qalmış torpağı yalnız onun əsl sahibləri yenidən bərpa edə bilər. Bütün bu illər boyunca nəinki torpaqlarımız qayğıdan məhrum qalmış eyni zamanda öz zənginliyini itirmiş, səmərəliliyi azalmış həm də münbit torpaqları baxımsız qalmışdır. Erməni vandalizmindən xilas olan Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərində Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı ilə verilmiş təlimatlara əsasən ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadəsi və onların ilkin qiymətləndirilmə əhəmiyyəti daşıyan, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən monitorinqlərə başlanılıb. Ərazidə aparılan monitorinq və müşahidələr nəticəsində məlum olur ki, yaşayış məskənlərindəki yerli sakinlərin evləri, binalar, tarixi tikililər, qəbristanlıqlar tamamilə dağıdılıb, yolların kənarındakı müxtəli növ yaşıllıq və meyvə ağacları kəsilib, bəzi yerlər isə yandırılaraq tamamilə məhv edilib. Xüsusi amansızlıqla törədilmiş bu yanğınlar nəticəsində geniş yaşıllıq ərazilərdə bitki örtüyü, münbit torpaq qatı və digər canlı aləm ləğv olunub (Ekologiya Nazirliyi 2020).

Ərazi bütövlüyümüzün bərpasından sonra aşkarlanmış vandalizm nümunələri, bu əraziləri yenidən qurulmasının mühüm düşüncə və tədqiqata ehtiyacı olduğunun nümunəsidir. Tədqiqat aparmaq eyni zamanda dəymiş zərərləri hesablamaq üçün xarici təşkilatlardan da dəstək almaq məsələnin həm dünya miqyasına çıxarılmasında, həm də daha təcrübəli qurumlardan faydalanmaq imkanı yarada bilər. Bu təşkilatlardan müxtəlif illərdə Azərbaycanın qədim torpağı olan Bərdə, Qəbələ şəhərlərində Oksford Universitetinin Arxeologiya Məktəbini nümunə gətirmək olar. Mərkəz tərəfindən dəfələrlə genişmiqyaslı tədqiqat işləri aparılmışdır (Oksford 2020).

Bərdə Arxeoloji Kəşfiyyat Layihəsi, 2013-cü ildə Azərbaycan, Qafqaz və Mərkəzi Asiyanın tarixini, dillərini və mədəniyyətlərini öyrənmək məqsədi ilə yaradılmış Nizami Gəncəvi Mərkəzinin ən mühüm elmi təşəbbüslərindən biridir. Oksford Universitetində Azərbaycan elmini dünya miqyasında təmsil edən yeganə rəsmi tanınan funksional akademik mərkəzdir. Mərkəzin həyata keçirdiyi Arxeoloji Kəşfiyyat Layihəsinin məqsədi eramızın 5-ci və 11-ci əsrləri arasında əyalət mərkəzi olan mühüm antik və orta əsr Bərdə şəhərinin inkişafını təsvir etməkdir. “Bərdə Arxeoloji Kəşfiyyatı” layihəsinin ilk arxeoloji kəşfiyyat və qazıntı işlərinə 2015-ci ilin sentyabrında başlanılıb. 2020-ci ildə yekunlaşan layihənin tapıntıları Milli Tarix Muzeyində saxlanılır. Layihənin nəticəsi olaraq qədim dövrdə insanların yaşayış tərzi öyrənilmiş, burada olan iqlimin heyvandarlığa və əkinçiliyə uyğunluğu qeyd olunmuşdur. Bu kimi tədqiqatların işğaldan azad olunmuş bölgələrimizdə də aparılması, iqlim şərtlərinin, landşaftının daha dərindən öyrənilməsi bölgələrimizin iqtisadi inkişafa daha tez nail olmasına səbəb ola bilər (Mədəniyyət 2020).

Məlum olduğu kimi işğal dövründə xalqımız həmin ərazilərin faydalı nemətlərindən heç cür istifadə edə bilməmişdir. Bu da öz növbəsində ölkə iqtisadiyyatına zərər vurmuş, həmin torpaqlanın təbii sərvətlərinin tükənməsinə səbəb olmuşdur. Bu ərazilərdə olan şirin su qaynaqlarından faydalı istifadə həm suvarma sistemində əsaslı inkişafa, həm də kənd təsərüfatının ehtiyaclarının qarşılanmasında mühüm rol oynayacaqdır. Təkcə Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarının azad olunması ilə 75 min hektar yeni ərazinin suvarılmasının təmin edilməsi deməkdir. Bundan başqa regionda müxtəlif irihəcimli şirin su mənbəyinin yerləşməsi də ehtimal edilir. Bu da gələcəkdə bölgənin su ehtiyyatının böyük qismini qarşılayacağını təmin edir. Bununla yanaşı iqtisadi regionların uyğun bölünməsi, habelə yaşayış məskənlərinin qaydalı şəkildə salınması da gələcək inkişafa öz töhvəsini verəcəkdir (Xalq qəzeti 2020).

Yeni massivlərin salınmasında şirin su qaynaqlarından səmərəli istifadə, ekoloji cəhətdən uyğun istiqamətlərdə qurulma, nəqliyyat vasitələrinin asan hərəkətinin təmin edilməsi, ictimai iaşə obyektlərinin əlçatanlığı ön planda olması vacibdir. Bu kimi əhəmiyyətli prosesdə təkcə yerli mütəxəssilərin cəlb olunması ilə kifayətlənməyib eyni zamanda xarici həmkarların da təcrübələrinə müraciət edilməsi, məsələlərin daha sürətli və faydalı həll olunmasına gətirib çıxara bilər.

Ölkə iqtisadiyyatının güclənməsi insanların rifahının yaxşılaşdırılmasına birbaşa xidmət edir. Belə ki neft kapilatının insan kapitalına keçirilməsinin əsaslı həlli kimi geri alınmış torpaqlarımızın səmərəli istifadə olunmalıdır. Bu günə qədər görülən işlər bu dəyişimin uğurla nəticələndiyini göstərir.

Regionda daha iki beynəlxalq aeroportun, ölkəmiz üçün həm strateji, həm də iqtisadi əhəmiyyətə malik olan və Zəngəzur dəhlizinin Horadiz-Ağbənd dəmir yolu xəttinin və digər strateji əhəmiyyətə malik obyektlərin açılışının şahidi olacağıq. Bu da öz növbəsində yerli insanların bu işlərə daha da cəlb olunması, habelə onların ticari işlərinə müsbət təsir etməsi deməkdir. Mərhələli olaraq yerli insanların məskunlaşması prosesi davam etdirilir ki, bu da müsbət nəticələrdən biridir.

Zəfərimizdən dərhal sonra işğaldan azad edilmiş bütün torpaqlarda bərpa və quruculuq işlərinə start verilib və qısa zaman sonra Füzuli Beynəlxalq Hava Limanı, Zəfər yolu istifadəyə verildi. Hazırda 30 ilə yaxın düşmən əsarətində qalan və erməni vandalizmindən əziyyət çəkən Azərbaycan torpaqlarında nəhəng infrastruktur layihələri uğurla davam etdirilir.

Eyni zamanda Zəngəzur dəhlizinin açılması ölkəmizin Cənubi Qafqazda və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verir. Məhz Zəngəzur dəhlizinin açılması ölkəmizin geoiqtisadi əhəmiyyətini artırmaqla yanaşı, bölgənin, eləcə də türkdilli ölkələrin iqtisadiyyatına da müsbət təsirini göstərəcək (azertag 2022).

Əvvəldə də qeyd olunduğu kimi otuza ilə yaxın işğal altında qalaraq bütün təbii resursları istifadə olunan, ölkəmizin ən səfalı guşələrindən olan Dağlı Qarabağ ərazisinin yenidən canlandırılması vaxt və maliyyə, eyni zamanda disiplinli tədqiqat işi deməkdir. Bütün talanmış, yerlə yeksan olunmuş ərazilərin yenidən qurulması uğurla davam etdirilir. Bu yenidənqurma yüksək nailiyyətlərə sahib olmaqla yanaşı, ölkəmiz üçün yeni imkanlar yaradır. Sosial və iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə müsbət təsir göstərir.

Ədəbiyyat:

https://www.anl.az/down/meqale/xalqqazeti/2020/dekabr/729567(meqale).pdf Xalq qəzeti, 2020,

https://azertag.az/xeber/isgaldan_azad_edilmis_erazilerin_movcud_iqtisadi_potensiali_xalqin_rifahinin_daha_da_yaxsilasdirilmasi_uchun_genis_imkanlar_yaradir-1969809 07.01.2022

https://science.gov.az/az/news/open/24378 2023

https://www.ongc.ox.ac.uk/event/bardhaa-colloquium-archaeology-medieval-city 2020

https://www.ongc.ox.ac.uk/bardhaa Oksford Universiteti 2020

https://www.anl.az/down/meqale/medeniyyet/2020/mart/705575.htm 2020 Mədəniyyət

https://eco.gov.az/az/nazirlik/xeber?newsID=11608 2020 Ekologiya Nazirliyi

ANALYSIS OF THE RELIEF OF THE MUD VOLCANOES GROUP STATE NATURE RESERVE

Yunuslu Tahir Alas

Baku State University

https://orcid.org/0009-0007-4109-9763

tahiryunuslu.a@bsu.edu.az

Rəyçi:

Alməmmədli Məsud Gülalı oğlu,

Coğrafiya üzrə fəlsəfə doktoru

Summary

The main purpose of the report is to identify 43 mud volcanoes (Guzdak-Bozdag, Ayrantöken, Goturdag, Kirdag, Pilpili Garadag, Toprakli Akhtarma, Garadag Akhtarma, Bandovan, Aghzibir, Otman-Bozdag, Khara-Zira adasi, Karasu adasi, Zanbil adasi, Gil adasi, Jigil adasi, Sangi-Mugan adasi, Chapilim, Gulbakht-Sarinca, Shorbulaq, Kirdag, Kicich kenizadag, Saridash boyanata, Durandag, Toragay, Oyukh, Karakhura, Keiraki, Qirmeki, Agtirma, Amjak-amjak, Buransiz-Chulga, Kilinc, Aghnohur, Gullutepa, Cheilakhtarma, Kalandarakhtarma, Gotur, Shekikhan group, Shahgaya, Aghdam group, Cheyildagh, Pirekushkul, Suleymanakhtarma) included in the State Nature Reserve and surrounding areas is to conduct a scientific analysis of the study and results of the relief features. Currently, the Ministry of Ecology and Natural Resources is conducting work on the creation of the first geopark in Azerbaijan at the base of the mud volcanoes group, which has determined the importance of research in all directions on the research object.

In the report, the results of the relief analysis carried out using ArcGIS, Google Earth software on the DEM - Digital Elevation Model files prepared on the basis of aerospace materials and satellite images, as well as the analysis of literature, atlases and maps related to the relief types of mud volcanoes located in the research area and their surrounding areas, the information has been recorded.

Keywords: state nature reserve, mud volcanoes, relief, geopark.

АНАЛИЗ РЕЛЬЕФА ГОСУДАРСТВЕННОГО ПРИРОДНОГО ЗАПОВЕДНИКА ГРУППА ГРЯЗЕВЫХ ВУЛКАНОВ

Юнуслу Тахир Алас

Бакинский государственный университет

https://orcid.org/0009-0007-4109-9763

tahiryunuslu.a@bsu.edu.az

Резюме

Основная цель отчета - выявить 43 грязевых вулкана (Гуздак-Боздаг, Айрантокен, Готурдаг, Кирдаг, Пилпили Гарадаг, Топракли Ахтарма, Гарадаг Ахтарма, Бандован, Ахзибир, Отман-Боздаг, остров Хара-Зира, остров Карасу, входящих в состав Государственный природный заповедник: остров Занбиль, остров Гиль, остров Джигил, остров Санги-Муган, Чапилим, Гульбахт-Саринджа, Шорбулаг, Кирдаг, Кычич Кенизадаг, Саридаш бояната, Дурандаг, Торагай, Оюх, Гарахура, Кейраки, Кирмаки, Агтирма, Амджак. - Амджак, Бурансиз-Чульга, Килинч, Агнохур, Гюллутепе, Чейлахтарма, Каландарахтарма, Готур, Шекиханская группа, Шахгая, Агдамская группа, Чейилдаг, Пирекушкуль, Сулейманахтарма) и прилегающие территории – провести научный анализ особенностей рельефа и получить результаты. В настоящее время Министерство экологии и природных ресурсов проводит работы по созданию первого в Азербайджане геопарка на базе группы грязевых вулканов, что определило важность исследований по всем направлениям на объекте исследования.

В отчете представлены результаты анализа рельефа, выполненного с помощью ArcGIS, программного обеспечения Google Earth на файлах DEM – Digital Elevation Model, подготовленных на основе аэрокосмических материалов и спутниковых изображений, а также анализ литературы, атласов и карт, относящихся к Зафиксированы типы рельефа грязевых вулканов, расположенных на территории исследований и прилегающих к ним территориях.

Ключевые слова: государственный природный заповедник, грязевые вулканы, рельеф, геопарк.

PALÇIQ VULKANLARI QRUPU DÖVLƏT TƏBİƏT QORUĞUNUN RELYEFİNİN TƏHLİLİ

Yunuslu Tahir Ələs

Bakı Dövlət Universiteti

https://orcid.org/0009-0007-4109-9763

tahiryunuslu.a@bsu.edu.az

Dünya üzrə Azərbaycan palçıq vulkanlarının ən yüksək sıxlığına malik ölkələrdən biridir. Azərbaycanın şərqində və Cənubi Xəzər hövzəsində 300-dən çox palçıq vulkanları və təzahürlərinin olduğu müəyyən olunmuşdur (Quliyev və Feyzullayev, 1997). Azərbaycandakı palçıq vulkanları Son Miosen dövründə Ərəbistan və Avrasiya plitələrinin toqquşmasının nəticəsi olan qərb-şimal-qərb istiqamətli Böyük Qafqaz qırışıqlı-qaymalı zonasının tektonik təkamülü ilə sıx bağlıdır (Axen, Lam, Grove, Stockli, 2001; Philip, Cisternas, Gvishiani, Gorshkov, 1989). Azərbaycan palçıq vulkanları həm ölçüləri, həm də zaman-zaman baş verən təsirli püskürmələri ilə də seçilir (Əliyev, Gəsənov, Bayramov və Belov, 2001). Azərbaycanda palçıq vulkanı təzahürlərinin bütün formalarına fəaliyyətdə olan, sönmüş, gömülmüş, ada, sualtı, neftçıxaran rast gəlinir. Morfoloji növlərinə görə Respublikamızda konusvari, ovalvari - çalavari, günbəzvari, yaylavari palçıq vulkanları mövcuddur (Якубов и Алиев, 1978).

Palçıq vulkanlarının mühafizəsi məqsədi ilə Bakı şəhəri və Abşeron yarmadasında yerləşən 43 palçıq vulkanının (Ayrantökən, Gil adası, Qılınc, Ağnohur, Qaradağ Axtarma, Güllütəpə, Çapılmış, Gülbəxt-Sarınca, Şorbulaq, Qarasu adası, Səngi-Muğan adası, Kirdağ, Kiçik kənizədağ, Ağzıbir, Kirdağ, Sarıdaş boyanata, Durandağ, Torağay, Oyux, Pilpili Qaradağ, Qaraxura, Cigil adası,Keyrəki, Qırməki, Ağtirmə, Bəndovan, Əmcək-əmcək, Zənbil adası, Buransız-Çulğa, Qoturdağ, Çeilaxtarma, Qələndəraxtarma, Qotur, Otman-Bozdağ, Şəkixan qrupu, Şahqaya, Ağdam qrupu, Çeyildağ, Xərə-Zirə adası, Pirəküşkül, Torpaqlı Axtarma, Süleymanaxtarma, Güzdək-Bozdağ) əhatə etdiyi 12322,84 ha sahə qoruq elan edilmişdir.

İlk dəfə olaraq palçıq vulkanları ərazisinin relyefi tərəfimizdən coğrafi informasiya sistemlərinə aid ArcgGİS proqram təminatından istifadə edilməklə təhlil edilmişdir. Həmçinin, Yerin məsafədən çəkilmiş aero və kosmik şəkilləri əsasında ərazi üzrə yer relyefinin DEM (Rəqəmsal Yüksəklik Modeli) modeli qurulmuşdur. ArcGİS proqram təminatı vasitəsilə hazırlanmış model əsasında Palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğunun ərazisinin relyef xəritəsi tərtib edilmişdir (şəkil 1). Hazırladığımız xəritəyə əsasən qoruq ərazisinin relyefinin üfiqi və şaquli yayılma qanunauyğunluğu araşdırılmışdır. Eyni zamanda qoruq ərazisini kosmik təsvirlər, elektron məlumat bazalarında aparılmış analizlər, ədəbiyyat materiallarından əldə olunmuş nəticələr və naturada aparılmış müşahidələrə əsasən qoruq ərazisini əhatə edən palçıq vulkanlarının yerləşdiyi ərazinin 18.5%-i 0-100 m, 23.5%-i 100-200 m, 22.7%-i 200-300 m, 18.1%-i 300-400 m, 17.2%-i isə 400-500 m mütləq hündürlüyə malik olduğu dəqiqləşmişdir. Ümumilikdə tədqiqat aparılmış qoruğa daxil olan palçıq vulkanları və ətraf ərazilər -45-0 m və 500-732 m mütləq hündürlük, düzənlik və ovalıqlardan ibarətdir. (Cədvəl)

Cədvəl.

Palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu ərazisinin yüksəklik pillələri üzrə paylanması

Yüksəklik pillələri (m-lə)	**Sahəsi (ha-la)**	**Palçıq vulkanları**
0 -100	2291.46	Torpaqlı Axtarma, Keyrəki, Gülbəxt-Sarınca, Qarabağ axtarma, Gültəpə, Şorbulaq, Ağzıbir, Səngi-Muğan adası, Bəndovan, Gil adası, Zənbil adası, Cigil adası, Qarasu adası, Qirməki, Xərə-Zirə adası
100 - 200	2902.39	Buransız-Çulğa, Qaraxura, Güzdək-bozdağ, Qoturdağ, Otman-Bozdağ, Şahqaya, Çapılmış, Kiçik kənizədağ, Qotur, Durandağ, Əmcək-əmcək, Ayrantökən, Pilpili Qaradağ
200 - 300	2786.52	Ağdam qrupu, Ağtirmə, Qılınc, Çeilaxtarma, Şəkixan qrupu, Oyux, Otman-Bozdağ, Pirəküşkül, Sarıdaş boyanata
300 - 400	2227.85	Kirdağ, Qələndəraxtarma, Ağnohur, Torağay
400 - 500	2114.62	Süleyman axtarma, Çeyildağ



Şəkil. Palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğunun ərazisinin relyefi

Morfoloji növlərinə görə respublikamızda konusvari, çalavari, gümbəzvari və yaylavari palçıq vulkanları tipi mövcuddur. Tərtib etdiyimiz xəritə əsasında palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu ərazisinin relyefi və burada yerləşən 43 palçıq vulkanından 7-nin morfoloji xüsusiyyətləri təhlil edilmişdir:

Konusvari vulkanlara təhlilimiz əsasında Torağay və Güzdək Bozdağı misal göstərə bilərik. Bu tip morfoloji quruluşa malik palçıq vulkanı nümunələri hündürlüyün diametrə nisbəti 0,051-0,100 (məsələn, Torağay üçün 0,070) nümayiş etdirir. Konusvari palçıq vulkanları adətən iri ölçüləri ilə xarakterizə olunur məsələn, Torağay Azərbaycanın ən böyük palçıq vulkanlarından biridir. Torağay vulkanının mütləq hündürlüyü 400 m, vulkan örtüyünün sahəsi isə 753 hektar təşkil edir. Morfoloji quruluşuna görə kəsilmiş konus, təpəsində isə dəyirmi formalı krater sahəsi vardır. Vulkan Torağay qırışıqlığının şimal qərb hissəsində pilosen çöküntülərin arasında uzununa və eninə pozulmaların kəşişməsində yerləşir. Güzdək Bozdağ Torağayla müqayisədə hündürlük-diametr nisbəti bir qədər aşağıdır (0,063), lakin ümumi morfoloji xüsusiyyətləri eynidir. Onun son palçıq axınları üstünlük olaraq şimala və ya şimal-şərqə yönəlib. Vulkanın hündürlüyü 306 m, sahəsi isə 700 hektar təşkil edir (Azərbaycanın geologiyası, 2015; Komatsu, Feyzullayev, 2024).

Gümbəzvari vulkanlara Keyrəki, Gülbəxt-Sarıncanı və s. vulkanlar aiddir. Keyrəki palçıq vulkanı qoruq ərazisində yerləşən tez-tez püskürən, aktiv vulkanlarından biridir. Vulkanın mütləq hündürlüyü 146 m, vulkan örtüyünün sahəsi isə 32 hektar təşkil edir.

Ovalvari morfoloji növə aid vulkanlara Qaradağ Axtarma, Çeyildağı və s. daxildir. Çeyildağ palçıq vulkanının relyefinə nəzər salsaq arid-denudasiya və eroziya-denudasiya proseslərinin təsiri altında altında formalaşmışdır. Palçıq vulkanının mütləq yüksəkliyi 286 metrə təşkil edir (Müseyibov, 1998). Qaradağ Axtarma vulkanın hündürlüyü 110 m, vulkan örtüyünün sahəsi isə 300 hektardır. Vulkan mövqeyinə görə Qaradağ qırışıqlığının cənubunda yerləşir.

Yaylavari vulkanlara isə Ayrantökən vulkanını misal göstərə bilərik. Vulkanın hündürlüyü 190 metrdir (Azərbaycanın geologiyası, 2015).

Qoruq ərazisinin şərqi və cənub-şərqində abrazion-akkumulyativ və abrazion-deflyasion düzənlikləri relyef forması, qərbində və şimalıda isə əsasən alçaq, orta parçalanmış qırışıqlı-qaymalı dağlar mövcuddur. Yüksəklik qurşaqlarına nəzər salsaq ərazini əsasən düzənlik-ovalıq şaquli qurşağı, şimal və şimal qərbinin bəzi hissələrində isə alçaq dağlıq qurşağı ayırmaq olar (Azərbaycan Respublikasının coğrafiyası, 2014).

Ədəbiyyat:

Azərbaycanın geologiyası, II cild . (2015) Bakı, "Elm" nəşriyyatı, 372 s.

Azərbaycan Respublikasının coğrafiyası. I cild. Fiziki coğrafiya. (2014) Bakı, - 530 s.

Azərbaycan Respublikası: ekoloji atlas. (2009) Bakı: Bakı kartoqrafiya fabriki, 156 s.

Əliyev, A.A., Gəsənov, A.Q., Bayramov, Ə.Ə., Belov, İ.S., (2001). Zəlzələlər və palçıq vulkanik fəaliyyətinin aktivləşməsi (səbəb əlaqəsi və qarşılıqlı əlaqə). Azərbaycan Milli Elmlər Akademiyası Geologiya İnistutu 29, 26-39.

Quliyev İ.S., Feyzullayev Ə.Ə., (1997) Palçıq vulkanları haqqında hər şey. Nafta Press, Bakı. 52 s.

M.Müseyibov. Azərbaycanın fiziki coğrafiyası (ümumi hissə). Universitetlər üçün dərslik. (1998)

Bakı: səh.400

Rəhmanov. R. R. (1960) Palçıq vulkanları. Bakı, 42 s.

Axen, G.J., Lam, P.S., Grove, M., Stockli, D.F., (2001). Exhumation of the westcentral Alborz Mountains, Iran, Caspian subsidence, and collision-related tectonics. Geology 29, 559-562.

Goro Komatsu, Akper A. Feyzullayev (2024) Geomorphology of subaerial mud volcanoes in Azerbaijan: Issues about edifice construction and degradation. Geomorphology 463 - 109352

Philip, H., Cisternas, A., Gvishiani, A., Gorshkov, A., (1989). The Caucasus: an actual example of the initial stages of continental collision. Tectonophysics 161, 1-21.

Якубов А.А., Алиев Ад.А. (1978) Грязевые вулканы. М.. Знание. 56 с.

TİBB ELMLƏRİ BÖLMƏSİ

TEZİSLƏR

THE EFFECT OF DIFFERENT TREATMENT METHODS ON THE CHANGE OF GLUTATHIONEPEROXIDASE (GPO) ENZYME ACTIVITY IN THE BACKGROUND OF EXPERIMENTAL OSTEOARTHRITIS

Farajova Aysel İlgar

Abdulla Qarayev Institute of Physiology

https://orcid.org/0009-0004-5413-1839

aysel.faradzova@gmail.com

Rəyçi:

Əlixanova İnarə Çingiz qızı,

Tibb üzrə fəlsəfə doktoru, dosent

Summary

This research study aimed to study the effect of different treatments on glutathione peroxidase (GPO) enzyme activity in the context of experimental osteoarthritis. The QPO enzyme plays an important role in the management of oxidative stress at the cellular level and is one of the main components of the antioxidant defense system. In the background of experimental osteoarthritis, increased oxidative stress and accumulation of free radicals lead to cartilage tissue damage and joint dysfunction. In the study, the effect of different treatments, including natural and pharmacological preparations, on the activity of QPO enzyme was evaluated in animal models with osteoarthritis. The obtained results showed that different treatment methods have different effects on QPO activity and can strengthen the antioxidant system. In particular, the fact that natural remedies have high antioxidant and antiperoxide activity reveals the potential to reduce oxidative stress and protect cartilage tissue. This study evaluates the effectiveness of various treatment methods in the context of osteoarthritis, providing important information in strengthening antioxidant defense mechanisms and protecting joint tissue.

Keywords: *osteoarthritis, Naftalan oil, antioxidant activity, lipid peroxidation*

ВЛИЯНИЕ РАЗЛИЧНЫХ МЕТОДОВ ЛЕЧЕНИЯ НА ИЗМЕНЕНИЕ АКТИВНОСТИ ФЕРМЕНТА ГЛУТАТИОНПЕРОКСИДАЗЫ (ГПО) НА ФОНЕ ЭКСПЕРИМЕНТАЛЬНОГО ОСТЕОАРТРИТА

Фараджева Айсель Ильгар

Институт физиологии имени Абдуллы Гараева

https://orcid.org/0009-0004-5413-1839

aysel.faradzova@gmail.com

Резюме

Целью данного исследования было изучение влияния различных методов лечения на активность фермента глутатионпероксидазы (ГПО) в контексте экспериментального остеоартрита. Фермент QPO играет важную роль в управлении окислительным стрессом на клеточном уровне и является одним из основных компонентов системы антиоксидантной защиты. На фоне экспериментального остеоартроза усиление окислительного стресса и накопление свободных радикалов вызывают повреждение хрящевой ткани и нарушение функции суставов. В ходе исследования влияние различных методов лечения, в том числе натуральных и фармакологических препаратов, на активность фермента QPO оценивалось на животных моделях с остеоартритом. Полученные результаты показали, что разные методы лечения по-разному влияют на активность QPO и способны усилить антиоксидантную систему. В частности, тот факт, что природные средства обладают высокой антиоксидантной и антиперекисной активностью, раскрывает потенциал снижения окислительного стресса и защиты хрящевой ткани. Это исследование оценивает эффективность различных методов лечения остеоартрита и предоставляет важную информацию об усилении механизмов антиоксидантной защиты и защите тканей суставов.

Ключевые слова: остеоартроз, нафталанская нефть, антиоксидантная активность, перекисное окисление липидов.

EKSPERİMENTAL OSTEOARTRİT FONUNDA MÜXTƏLİF MÜALİCƏ ÜSULLARININ QLUTATİONPEROKSİDAZA (QPO) FERMENTİNİN FƏALLIĞININ DƏYİŞİLMƏSİNƏ TƏSİRİ

Fərəcova Aysel İlqar

Abdulla Qarayev adına Fiziologiya İnstitutu

https://orcid.org/0009-0004-5413-1839

aysel.faradzova@gmail.com

Osteoartrit (OA) dünyada geniş yayılmış xroniki, degenerativ oynaq xəstəliyi kimi tanınır. Bu xəstəlik xüsusilə yaşlı əhali arasında daha çox yayılmışdır və oynaq qığırdaqlarının pozulması, ağrı və hərəkət məhdudiyyəti ilə müşayiət olunur. Osteoartrit xəstəliyi, iltihabi proseslər və oksidləşdirici stressin təsiri ilə sıx əlaqədardır. Aparılan tədqiqatlardan belə bir nəticəyə gəlmək olar ki, eksperimental osteoartrit fonunda siçovulların qan plazmasında LPO məhsullarının intensivləşməsinin qarşısının azalmasında katalaza fermentinin fəallığı ilə yanaşı, QPO fermentinin fəallığının da rolu olur. Bunları nəzərə alaraq qan plazmasında LPO məhsullarının intensivliyini artmağa qoymayan orqanizmin müdafiə sisteminin əsasını təşkil edən QPO fəallığının dəyişilməsi dinamikasını da tədqiq etmək zəruridir.

QPO-a orqanizmi oksidativ dağılmalardan qoruyan əsas fermentlər qrupuna daxildir. Stres faktorların təsirindən patogenetik mexanizmlərin tədqiq olunması, həmçinin oksigenin fəal formalarının sabitləşdiriciləri olan orqanizmin müdafiə sistemini təşkil edən komponentlərin, eyni zamanda QPO-nın öyrənilməsi həmişə tədqiqatçıları düşündürən məsələlərdən olmuşdur (Mc.Clung C.A., Nestler E.J. 2008; Dep. Wang S.S., Kamphuis W., Huitinga I. et al., 2008). Məlum olmuşdur ki, QPO katalazaya nisbətən H_2O_2-yə qarşı daha həssas olub, substratın aşağı qatılığında daha effektli təsir göstərir. Katalaza isə daha yüksək qatılıqda effektlidir.

Məlumatların bütövlüyü verilənlərin həyat dövrü ərzində düzgünlüyünə və ardıcıllığına (etibarlılığına) aiddir. Həssas məlumatların itirilməsinin yaratdığı təhlükələri nəzərə almasaq, korlanmış məlumatların müəssisələr üçün çox az faydası var. Bu səbəbdən, məlumatların bütövlüyünü qorumaq bir çox müəssisə təhlükəsizlik həllərinin əsas diqqət mərkəzindədir. Məlumatların bütövlüyü bir neçə yolla pozula bilər. Məlumat hər dəfə təkrarlananda və ya ötürüldükdə, o, yenilənmələr arasında toxunulmaz və dəyişməz qalmalıdır. Dəyişiklik niyyəti olmadan ötürülən və ya çoxaldılan məlumatların bütövlüyünü təmin etmək üçün adətən səhvlərin yoxlanılması üsulları və doğrulama prosedurlarına etibar edilir.

1.5 Məlumat Məxfiliyi(Data Confidentiality)

Bulud hesablama məlumatların qorunması üçün güclü autentifikasiya və giriş nəzarəti tələb edir. Provayderin skeptisizmi və daxili təhdidlər səbəbindən bulud etibarlılığı və etibarlılığı yaxşılaşdırılmalıdır. Həssas məlumatların birbaşa bulud saxlanması təhlükəlidir. Bəzi təhlükəsizliyin təmin edilməsinə baxmayaraq, əsas idarəetmə ilə şifrələmə problemləri var və sorğu, eyni vaxtda yeniləmələr və incə dənəli icazə kimi mürəkkəb tələbləri həll edə bilmir. Buna görə də, bu problemlərin həlli bulud məlumatlarının təhlükəsizliyi üçün vacibdir.

2. Problemlər və Təhdidlər

İstifadəçilər təhlükəsizlik və məxfilik problemlərinə görə məlumatlarını buludlara həvalə etməkdən narahat ola bilərlər. Problemlər yaranarsa, istifadəçilər buludun tamamilə etibarlı olmadığı hissini ala bilər ki, bu da onların həssas məlumatlarının təhlükə altına düşmə ehtimalından narahat olmağa səbəb ola bilər. Yaşıl İT-də bulud hesablamaları üçün problemlərin və ya təhdidlərin əksəriyyətinin siyahısı:

1. API təhlükəsizliyində boşluq (Vulnerability in App Programming Interface Security) API-lər müxtəlif bulud xidmətləri arasında problemsiz əlaqə yaratmağa imkan verir. Təhlükəsiz API-lər bulud hesablama mühitlərində əhəmiyyətli təhlükəsizlik riski yaradır. API-lər müxtəlif proqram təminatı tətbiqləri və xidmətlərinin məlumat mübadiləsi və məlumat mübadiləsini təmin edən körpü rolunu oynayır. API-lər lazımi səviyyədə qorunmadıqda, onlar təcavüzkarların istismarı üçün həssas giriş nöqtələrinə çevrilə bilər və potensial olaraq məlumatların pozulmasına, icazəsiz girişə və digər təhlükəsizlik insidentlərinə səbəb ola bilər. Təhlükəsiz API-lərlə bağlı riskləri başa düşmək bulud əsaslı sistemlərin təhlükəsizliyini və bütövlüyünü təmin etmək üçün vacibdir.

2. Həssas Məlumatlara məruz qalma (Unintended Data Exposure)

Həssas məlumatlara məruz qalma, təşkilat bilmədən həssas məlumatları ifşa etdikdə və ya təhlükəsizlik hadisəsi həssas məlumatların təsadüfi və ya qeyri-qanuni məhvinə, itirilməsinə, dəyişdirilməsinə və ya icazəsiz açıqlanmasına və ya onlara girişə səbəb olduqda baş verir. Bu cür Məlumatların ifşası verilənlər bazasının qeyri-adekvat mühafizəsi, məlumat anbarlarının yeni nümunələrinin yaradılması zamanı yanlış konfiqurasiyalar, məlumat sistemlərindən qeyri-adekvat istifadə və s. nəticəsində baş verə bilər.

3. Kod yeridilməsi təhlükəsi (Code Injection Threat)

Kod yeritmə, proqrama kod yeridən hücumları təsvir etmək üçün istifadə edilən termindir. Bu yeridilmiş kod daha sonra proqram tərəfindən proqramın icra üsulunu dəyişdirərək şərh edilir. Kod inyeksiya hücumları adətən etibarsız məlumatların işlənməsinə imkan verən proqram zəifliyindən istifadə edir. Bu tip hücumlar etibarsız məlumatların zəif idarə olunmasından istifadə edir və adətən müvafiq giriş/çıxış məlumatlarının yoxlanılmasının olmaması səbəbindən mümkün olur.

4. DoS hücumu (DoS Attack)

Bu cür hücum hakerlər şəbəkə vasitəsilə həddindən artıq sayda məlumat paket və ya xidmətlər göndərdikdə baş verir. Bu, serverin sonsuz bağlantılarla qırılmasına səbəb olur və lazımsız verilənlər hostun yaddaşına atılır. Bu hücum xüsusi olaraq IaaS və PaaS təbəqələrini hədəf alır. Nəticədə, təsirə məruz qalmış xidmətlərə və ya resurslara daxil olmağa cəhd edən istifadəçilər əlaqə itkisi ilə üzləşirlər. Proqramlar, vebsaytlar və hətta bütün sistemlər bu hücuma görə fasilələrlə üzləşə bilər.

5. Data Qəzası (Data Crash)

Ehtiyat nüsxəsini yaratmadan məlumatların dəyişdirilməsi və ya silinməsi kimi çoxsaylı hərəkətlər məlumatların pozulmasına səbəb ola bilər. Buludda saxlanılan məlumatlar şübhəli mediada saxlanılan məlumatlarla müqayisə edilə bilər. Bundan əlavə, məlumatların ehtiyat nüsxəsi qəsdən və ya təsadüfən baş verən fəlakətlər zamanı vacibdir. Məlumatların mövcudluğuna zəmanət vermək üçün Məzmun Təhlükəsizlik Siyasəti müntəzəm ehtiyat nüsxələrini yerinə yetirməlidir.

3. Həll yolları

Bulud hesablamaları sahəsində bir çox problem və ya təhdidlər üzə çıxdı, bu da araşdırmaya səbəb oldu. Bu problemlərin həlli üçün çoxsaylı həllər irəli sürülüb. Bu həllərin ən doğru olanlarını təhlil edək.

Bulud hesablamalarında təhlükəsizliyi yaxşılaşdırmaq üçün bir sıra tədbirlər həyata keçirilməlidir:

1. Sağlam API Doğrulama Modeli (Robust API Authentication Model)

Güclü təsdiqlənmiş təhlükəsizlik modelinə malik API-lər bulud provayderləri tərəfindən gücləndirildiyi üçün qəbul edilməlidir. Çünki şəxsi məlumatların təhlükəsizliyi və qeyri-qanuni giriş və məlumatların pozulması şansını azaldır.

2. Təhlükəsiz məlumat ötürülməsi (Secure Data Transmission)

Şifrələmə mühüm tədbir kimi xidmət etdiyi üçün ötürülməzdən əvvəl məlumatların şifrələnməsi çox tövsiyə olunur. Məlumatların ötürülməsi zamanı təkmilləşdirilmiş məlumat təhlükəsizliyi və mühafizəsi üçün maneə rolunu oynayan səlahiyyətli giriş, şifrələmə, deşifrə açarı olmadan icazəsiz şəxslərin deşifrə edə bilməyəcəyini təmin edir. Ötürülən məlumatlar, məlumatların pozulması riskini əhəmiyyətli dərəcədə azaldır.

3. Təhlükəsiz Açar İdarəetmə (Secure Key Handling)

Prosesin açarlarını təkrar istifadə etməyin, əksinə, onları təhlükəsiz yerdə saxlayın. Oğurlanmış və ya təkrar istifadə edilən açarlar haqqında məlumatlanıb və onlardan istifadə etməmək kriptoqrafik proseslərin təhlükəsizliyini yaxşılaşdırır və gücləndirir.

4. Şəxsi Açar (Private Key)

Məlumatlar əvvəlcə üçlü DES kimi yüksək təhlükəsiz şifrələmə alqoritmi ilə şifrələnməlidir.

Məlumat şifrələndikdən sonra şəxsi açar yaradılır. Qeyd etmək lazımdır ki, bu proses məlumatların təhlükəsizliyini təmin etmək üçün vacibdir.

5. Duzlu Hashing (Salted Hashing)

Növbəti addım şəxsi açarın təhlükəsizliyini gücləndirmək və ondan sonra arzuolunmaz girişə qarşı daha davamlı etmək üçün yaranmışdır. "Duzlu hashing" buna nail olmaq üçün istifadə edilən texnikadır. Prosesi yerinə yetirmək üçün hashing, şəxsi açar əvvəlcə təsadüfi dəyərlə (duz) seçilir. Bu prosedur hashed nəticə verir, daha mürəkkəb və unikaldır ki, bu da təcavüzkarların orijinal şəxsi açarı aşkarlamasını çətinləşdirir.

6. Açıq Açar (Public Key), ABE

Bulud hesablamaları kontekstində ABE incə dənəli giriş nəzarəti və məlumatların məxfiliyini təklif edən çox istifadəçili açıq açar kriptoqrafiya metodudur. ABE-də istifadəçi məlumatları atributlardan istifadə etməklə şifrələnir və istifadəçi şifrələnmiş məlumatın şifrəsini açmaq üçün giriş siyasətinə qoşulmuş gizli açardan istifadə edir. Beləliklə, ABE girişi nəzarəti və məlumat məxfiliyini gücləndirir.

7. Axtarıla bilən Şifrələmə (Searchable Encryption)

Bu, açıq mətn məlumatları haqqında heç bir məlumatı açıqlamadan şifrələnmiş məlumatları axtarmağa imkan verir. Bu proses axtarış funksiyasının məxfilik və təhlükəsizlik nəzərə alınmaqla aparılmasını təmin edir, axtarış əməliyyatı zamanı həssas məlumatların ifşasının qarşısını alır.

8. Proksinin yenidən şifrələnməsi(Proxy Re-encryption)

Fərqli açardan istifadə etməklə, proksi fərqli açarla şifrələnmiş şifrə mətnini şifrələyə bilər. Bu

ötürmə prosesi zamanı məlumatların təhlükəsiz qalmasını təmin edir.

9. DNT əsaslı Şifrələmə (DNA-based Encryption)

Şifrələmə açarlarını yaratmaq üçün neyron şəbəkələri və DNT hesablamalarından istifadə olunur. Əsas kompromis ehtimalı və ya icazəsiz giriş azalır. Bu, ümumi məxfiliyin qorunmasını yaxşılaşdıracaq.

10. İkili Şifrələmə və Məlumatların Parçalanması (Dual Encryption and Data Fragmentation)

Bu üsulda məlumatlar iki fərqli şifrələmə texnikasını birləşdirərək şifrələnir. Məlumatların parçalanması

verilənlərin bir neçə kiçik hissəyə bölünməsi və serverlər arasında paylanması prosesidir.

11. Homomorfik Şifrələmə (Homomorphic Encryption)

Mətnin şifrəsini açmadan o, şifrələnmiş mətn üzərində hesablamağa imkan verir. Hesablama prosesi boyunca məlumatlar məxfi qalır və icazəsiz şəxslərə məruz qalmağın qarşısını alınır.

12.Dürüstlük (Integrity)

Mesaj həzmləri, rəqəmsal imzalar və Mesaj Doğrulama Kodu kimi tədbirlərdən istifadə etməklə saxlanılır

(MAC). Bu üsullar saxlama və ötürmə zamanı məlumatların dəyişməz və etibarlı qalmasını təmin edir.

13. Girişə Nəzarət (Access Control)

Müəyyən edilmiş siyasətlər və giriş hüquqları vasitəsilə həyata keçirilir. İstifadəçilərə əsaslanan resurslara müvafiq etimadnamələr və müəyyən edilmiş siyasətlərə riayət edilərək giriş verilir.

14. Təhlükəsizlik Yeniləmələri və Firewalllar (Security Updates and Firewalls)

Brauzerlər, əməliyyat sistemləri və əlaqəli proqramlar üçün müntəzəm yeniləmələr zəifliklər aradan qaldırmaq üçün çox vacibdir. Divarlar Xidmətdən imtina (DoS) hücumlarından qorunmaqda rol oynayır.

15. Qanuni İstifadəçi Girişi(Legitimate User Access)

Giriş hüquqları yalnız qanuni istifadəçilərə verilməlidir və bu hüquqların düzgün idarə olunması icazəsiz girişin qarşısını almaq üçün vacibdir.

16. Nəqliyyat Layerinin Təhlükəsizliyi (TLS) (Transport Layer Security)

Məlumat ötürülməsi üçün təhlükəsiz kanal təmin edərək, şəbəkə üzərindən rabitənin təhlükəsizliyini təmin etmək üçün istifadə olunur.

17. Intrusion Detection Systems (IDS) and Firewalls

IDS, divarlar və port skanları şəbəkə hücumlarını aşkar etmək və qarşısını almaq üçün yerləşdirilir.

18. Domain Name System Security Extension (DNSSE)

DNS təhdidlərini idarə etmək üçün quraşdırılıb, Domen Adı Sisteminə əlavə təhlükəsizlik qatı əlavə edilib. Hostdan gələn təhdidləri azaldır.

19. Tera Arxitektura

Tera arxitekturası virtual maşınları tam imtiyazlı istifadəçilərə qarşı qorumaq üçün bir həll kimi təklif olunur. Bu qapalı qutuya bənzəyən təcrid olunmuş mühit yaradır, digər virtuallardan hər hansı modifikasiyanın qarşısını alır. Eyni mühitdə olan maşınlar üçün təcrid edilə biləcək hərəkətləri məhdudlaşdırmaqla təhlükəsizliyi artırır. Tam imtiyazları olan istifadəçilər tərəfindən qəbul edilir.

20.Etibarlı Virtual Məlumat Mərkəzi (TVDc) (Trusted Virtual Data Centre)

TVDc həm infrastrukturda, həm də idarəetmədə təhlükəsizlik problemlərini həll edən bir həll kimi təqdim olunur. Xidmət kimi İnfrastruktur (IaaS) modelində provayderlər icranı təmin etmək üçün TVDc-dən istifadə edə bilərlər. İstifadəçilərdən təcrid olunmuş mühit yaratmaq üçün istifadə olunur. Etibarlı Bulud Hesablama Platforması (TCCP) istifadə olunur. Bu təcrid olunmuş mühit, istifadəçilərə xidmətin etibarlı mühitdə işlədiyinə əminlik verir.

Nəticə

Bu araşdırma yaşıl İT üçün bulud hesablamalarında məlumat təhlükəsizliyi və məxfiliyin aktuallığını nümayiş etdirir. Bulud hesablama məlumatlarının məxfiliyinə dair optimal strategiyalara həm saxlanılan zaman, həm də ötürülən zaman məlumatların qorunması üçün güclü şifrələmə tədbirlərindən istifadə daxildir. Sərt giriş məhdudiyyətlərinin tətbiqi yalnız səlahiyyətli şəxslərin məxfi məlumatlara giriş əldə edə biləcəyinə zəmanət verir. Tənzimləmə uyğunluğu davamlı nəzarəti və GDPR kimi məlumatların qorunması qaydalarına riayət etməyi əhatə edir. Effektiv razılığın idarə edilməsi texnologiyaları istehlakçılara məlumat mübadiləsi seçimlərini tənzimləmək imkanı verir və bununla da məxfiliyi artırır. Bu addımlar birlikdə bulud hesablamalarının təhlükəsizliyini gücləndirir, məlumatların məxfiliyinə və bütövlüyünə, habelə hüquqi qaydalara riayət olunmasına zəmanət verir. Ümumilikdə desək güclü şifrələmə, girişə nəzarət, GDPR uyğunluğu və razılığın idarə edilməsi ilkin və vacib şərtdir. Tədqiqatda təhlükəsizlik zəiflikləri və istifadəçinin sistemə daxil olmaqla bağlı riskləri tədqiq edilmişdir. Myaşıl İT üçün məlumat təhlükəsizliyi və məxfiliyə üstünlük verən mədəniyyət yaratmaq lazımdır. Qeyd olunan təhlükələrdən qaçmaq üçün effektiv texnikalar və hərtərəfli yanaşma tələb olunur. Bulud hesablamaları inkişaf etdikcə bu xüsusiyyətlərin prioritetləşdirilməsi həssas məlumatların qorunması və rəqəmsal ekosistemin etibarını qorumaq üçün vacibdir. Məlumatların təhlükəsizliyinə bu fədakarlıq etik və məsuliyyətli texnologiyadan istifadə üçün vacibdir.

Ədəbiyyat:

Oladoyinbo, T. O., Adebiyi, O. O., Ugonnia, J. C., Olaniyi, O. and Okunleye, O. J. (2023) "Evaluating and establishing baseline security requirements in cloud computing: an enterprise risk management approach," *Available at SSRN 4612909*.

Vellela S. S., Balamanigandan, R. and Praveen, S. P. (2022) "Strategic Survey on Security and Privacy Methods of Cloud Computing Environment," *Journal of Next Generation Technology*, vol. 2, no. 1.

Understanding and Addressing Data Security and Privacy Concerns in Modern Cloud Computing Systems Article by Ali Ahmed Ateeq on 21 March 2024.

Gupta, S., Shankar, G., & Gupta, A. (2021, November 12). Cloud Computing: Services, Deployment Models and Security Challenges. 2021 2nd International Conference on Smart Electronics and Communication (ICOSEC)

Mohamad, N.H., Saidin, N.B. and Haikal bin Zaidi, M.İ. (December 22, 2023) Data Security and Privacy Issues in Cloud Computing: Challenges and Solutions Review

SUBSEA PIPELINE INSTALLATION TECHNOLOGIES CHALLENGES AND THEIR OPTIMIZATIONS

Shahlarli Mansur Elkhan

Oil and Gas Research and Project Institute

https://orcid.org/0000-0003-0519-3078

mansursahlarli1994@gmail.com

Naghizade Anar Rasim

Oil and Gas Research and Project Institute

https://orcid.org/0009-0003-6716-1626

Nagizadeanar26@gmail.com

Rəyçi:

Hüseynov Aqil Həmid oğlu,

Texnika elmləri doktoru, professor

Summary

The operation of connecting underwater pipelines on the seabed is a critical step in offshore pipeline engineering. The construction and installation process of subsea pipelines in marine environments is among the most challenging tasks, with offshore oil and gas pipelines serving as vital arteries for global energy supply. Therefore, this report presents an effective analytical method developed to study the mechanical properties of pipelines based on their mechanical, physical, and geometric relationships. The article discusses the installation of subsea pipelines, identifies associated challenges, and provides some recommendations for overcoming these issues. Additionally, the mechanical properties of the pipelines are assessed in accordance with the Det Norske Veritas (DNV) offshore standards. During the installation of subsea pipelines, plastic and elastic deformations are mathematically modeled and simulated in MATLAB, accounting for variables such as pipeline material, diameter, hydrodynamic forces, and water depth. Calculations are conducted specifically for the Caspian Sea, using parameters including pipeline material, material grade, Young's modulus, yield strength, tensile strength, ovality, material resistance factor, manufacturing factor, and plastic moment reduction factor.

Key words: Caspian Sea, material grade, Young's modulus, yield strength, tensile strength.

ТЕХНОЛОГИИ УСТАНОВКИ ПОДВОДНЫХ ТРУБОПРОВОДОВ: ПРОБЛЕМЫ И ОПТИМИЗАЦИЯ

Шахларлы Мансур Эльхан
Научно-исследовательский и проектный институт нефти и газа
https://orcid.org/0000-0003-0519-3078
mansursahlarli1994@gmail.com

Нагизаде Анар Расим
Научно-исследовательский и проектный институт нефти и газа
https://orcid.org/0009-0003-6716-1626
Nagizadeanar26@gmail.com

Резюме

Операция соединения подводных трубопроводов на морском дне является важным этапом в инженерии морских трубопроводов. Процесс строительства и установки подводных трубопроводов в морских акваториях относится к числу наиболее сложных задач, а морские нефтегазовые трубопроводы служат жизненно важными артериями для глобального энергоснабжения. В этом отчете представлена эффективная аналитическая методика, разработанная для исследования механических свойств трубопроводов на основе их механических, физических и геометрических характеристик. В статье обсуждается процесс установки подводных трубопроводов, выявляются связанные с этим проблемы и предлагаются рекомендации по их устранению. Кроме того, механические характеристики трубопроводов проверяются в соответствии со стандартами для морских объектов, установленными Det Norske Veritas (DNV). В процессе установки подводных трубопроводов пластические и упругие деформации математически моделируются и симулируются в MATLAB с учетом таких переменных, как материал трубопровода, диаметр, гидродинамические силы и глубина воды. Расчеты проведены специально для Каспийского моря с использованием параметров, включающих материал трубопровода, его класс, модуль Юнга, предел текучести, предел прочности, овальность, коэффициент сопротивления материала, коэффициент изготовления и коэффициент снижения пластического момента.

Ключевые слова: Каспийское море, класс материала, модуль Юнга, предел текучести, предел прочности.

SUALTI BORU KƏMƏRİ TEXNOLOGİYASI İLƏ BAĞLI PROBLEMLƏR VƏ ONLARIN OPTİMALLAŞDIRILMASI

Şahlarlı Mənsur Elxan

Neft-Qaz Elmi Tədqiqat və Layihə İnstitutu

https://orcid.org/0000-0003-0519-3078

mansursahlarli1994@gmail.com

Nağızadə Anar Rasim

Neft-Qaz Elmi Tədqiqat və Layihə İnstitutu

https://orcid.org/0000-0003-0519-3078

mansursahlarli1994@gmail.com

Əhali artdıqca, ətraf mühit pisləşdikcə və resurslar qıtlaşdıqca, okean elm və texnologiyada davamlı irəliləyişlər sayəsində məkan, resurslar, ətraf mühit və strategiya baxımından aydın üstünlüklər nümayiş etdirir. Okean ehtiyatları, o cümlədən balıqçılıq, kosmos və enerji 21-ci əsrdə inkişaf üçün böyük potensiala malik bir sahəyə çevrilmişdir (Wang, S.H.; Lu, B.B.; Yin, K.D, 2021)**, (**Peng, D.M.; Yang, Q.; Yang, H.J.; Liu, H.H.; Zhu, Y.G.; Mu, Y.T, 2020). Hazırda enerjinin əsas mənbəyi olan neft və qaz ehtiyatları bütün dünya ölkələrini aktiv kəşfiyyat və işlənmə ilə məşğul olmağa sövq etmişdir **(**Cherepovitsyn, A.; Rutenko, E.; Solovyova, V, 2021)**, (**Wang, Y.; Zhang, Z.K.; Xu, M.H, 2023). Dəniz neft və qaz ehtiyatlarının hasilatı, emalı, saxlanması və son istifadəçilərə nəqli prosesində boru kəmərləri dəniz ehtiyatlarının inkişafının bütün istehsal prosesini sıx birləşdirən rahat, təhlükəsiz, qənaətcil, etibarlı vasitə kimi mühüm rol oynayır və resurs inkişafının düzgün işləməsini təmin edən mühüm element kimi xidmət edir. (Koley, S.; Panduranga, K.; Trivedi, K.; Al-Ragum, A.; Neelamani, S, 2023), (Guo, X.S.; Stoesser, T.; Nian, T.K.; Jia, Y.G.; Liu, X.L, 2022), (Zhang, B.; Gong, R.;Wang, T.;Wang, Z, 2020)**.** Yuxarıda deyilənləri nəzərə alaraq dərin sularda boruların quraşdırılması texnologiyalarına qoyulan tələblər və bu tələblərin təhlükəsiz tətbiqi üçün yeni üsulların işlənilməsi ən vacib məsələlərdən biridir.

Sualtı boru kəmərlərinin quraşdırılmasının dörd üsulu var:

- S- texnologiyası;
- J- texnologiyası;
- Baraban texnologiyası;
- Dalma texnologiyaları.

Bu məqalədə quraşdırma texnologiyalarının üstünlükləri və mənfi cəhətlərini araşdıracağıq və quraşdırma zamanı çətinlikləri optimallaşdırmağa çalışacağıq. Dərin sularda S və J quraşdırma texnologiyaları tətbiqi və boruların dəniz dibində birləşməsi zamanı yaranan çətinlikləri nəzərə alaraq məqalədə baş verən arzuolunmaz hallar araşdırılmış və qarşısının alınması üçün müxtəlif üsullar təklif edilmişdir. Aşağıda prosesin ardıcıllığı, S-quraşdırma texnologiyasının müsbət və mənfi tərəfləri verilmişdir. S-döşəmə üsulu, xüsusilə dayazdan orta dərinlikdə olan sularda sualtı boru kəmərinin quraşdırılması üçün müəyyən edilmiş texnikadır. Prosesin aparılma ardıcıllığı -

boruların hazırlanması, döşəmə gəmisinin quraşdırılması, boruların yığılması, diaqnostik sınaq, boru kəmərinə qoruyucu örtüyün çəkilməsi, boru kəmərinin quraşdırılması kimi yerinə yetirlir. Metodun bəzi üstün və çatışmayan cəhətləri də vardır.

Metodun üstünlükləri: yüksək məhsuldarlıq, effektivliliyi, çox yönlülük.

Metodun çatışmazlıqları: göyərtə sahəsi, su dərinliyi məhdudiyyətləri.

J-döşəmə metodunu zamanı prosesin ardıcıllığı, müsbət və mənfi tərəfləri aşağıdakılardır:

Proses aparılma addımları: Boruların hazırlanması, borudüzən gəminin hazır vəziyyətə gətirilməsi, boruların yığılması, diaqnostik yoxlamanın aparılması, qoruyucu örtüyün çəkilməsi, boru kəmərinin quraşdırılması.

Metodun üstünlükləri: Boru düzməyə dəqiq nəzarət, yüksək keyfiyyətli qaynaq, istifadə gücü.

Metodun çatışmazlıqları:Aşağı quraşdırma dərəcələri, ixtisaslaşdırılmış gəmilər.

Sualtı boru kəmərlərinin dənizin dibində birləşdirmə prosesi

Ayrı-ayrı boru kəmərlərinin hissələrini birləşdirmək və ya yeni boru kəmərlərini mövcud infrastruktura birləşdirmək üçün birləşmələr vacibdir. Layihə tələblərindən və suyun dərinliyindən asılı olaraq bir neçə üsuldan istifadə edilə bilər (Şəkil 1):



a)



b)

Şəkil 1a,b. a) Sualtı boru kəmərlərinin dənizin dibində birləməsi mexanizmi; b) sualtı boru kəmərlərinin dənizin dibində birləşməzi zamanı global bükülmənin əmələ gəlmə mexanizmi

1. Dalğıc tərəfindən flanslı birləşmə: Dalğıclar boltli flanşlardan istifadə edərək boru kəmərinin hissələrini birləşdirir. Bu üsul ümumiyyətlə dayaz su qurğularında istifadə olunur və tapşırığı səmərəli yerinə yetirmək üçün ixtisaslı dalğıclar tələb olunur.

2. Hiperbarik qaynaq: Bu texnikada dalğıclar ətrafdakı su təzyiqinə uyğun təzyiq altında olan hiperbarik kamera daxilində qaynaq əməliyyatları yerinə yetirirlər. Bu üsul daha dərin su qurğuları üçün uyğundur və yüksək keyfiyyətli qaynaq bağlantısı təmin edir.

3. Uzaqdan idarə olunan aparatlar: Uzaqdan idarə olunan nəqliyyat vasitələri (ROV) və ya digər uzaqdan idarə olunan avadanlıqlar insan müdaxiləsinə ehtiyac olmadan boru kəməri hissələrini birləşdirmək üçün istifadə olunur. Bu üsula dalğıcların yerləşdirilməsi qeyri-praktik və ya təhlükəli olduğu dərin və çox dərin su qurğuları üçün üstünlük verilir.

Dəniz dibində birləşmə zamanı yaranan arzuolunmaz halların sxematik görünüşü şəkil 1a-da verilmişdir. Buna görədə birləşmə zamanı kranların sayının, hidrodinamik qüvvələrin, yerli bükülmə təzyiqinin, hidrostatik təzyiqin və Von Mises gərginliyinin düzügün hesablanması vacibdir (Şəkil 1b).

Sualtı boru kəmərlənin dəniz dibində birləşdirilməsi zamanı yüklə idarə olunan vəziyyətə nəzarət hesablamasının aparılması üçün verilən ilkin parametrlər aşağıdakı cədvəldə verilmişdir.

Parametrlərin adları	Parametrlərin təyinatları
Borunun müterialı	polad
Materialın dərəcəsi	X65
Xarici diametr	600;800;1016 mm
Poladın sıxlığı	7850 kq/m^3
Yunq modulu	2.07*10^{-7} Pa
Puasson əmsalı	0.3
Materialın axıcılıq həddi	448*10^6 Pa
Dartılma həddi	531*10^6 Pa
Örtüyün materialı	Beton
Beton örteyen sıxlığı	3000 kq/m^3
Beton örtüyün qalınlıqı	0.15 m
Boru içi boş halda	hava
Ovallaşma	0.01
Materialın müqavimət faktoru	1.15
Materialın təhlükəsizlik faktoru	0.96
İstehsal faktoru	0.93
Plastik momentin azaldılması faktoru	1



Şəkil 2. Xəzər dənizi 300 m dərinlik üçün mextəlif diametrli və qalınlıqlı boruların yüklərin təsirindən asılı olaraq yerdəyişməsi

Yüklə İdarə olunan Vəziyyət (LCC) - Norveç dəniz standartı (DNVGL-ST-F101, 2017)-ə əsasən, yüklə idarə olunan vəziyyət (LCC) yerli bükülmənin birləşmiş yükləmə meyarıdır ki, burada struktur reaksiyası ilk növbədə tətbiq olunan yüklərlə idarə olunur. Bu vəziyyətdə, əyilmə momentinə, effektiv eksenel gücə və xarici həddindən artıq təzyiqə məruz qalan boru kəmərləri bütün kəsişmələrdə bir meyara cavab verməlidir. Bu meyar LCC-nin hesablanmış dəyərinin 1-dən çox ola bilməyəcəyini bildirir.

DNVGL-ST-F101 standartına əsasən, sualtı boru kəmərlərinin dənizin dibində yüklərin təsirindən baş verən yerdəyişmə vəziyyətinin Matlab proqramı vasitəsilə modelləşdirilmişdir. Simulyasiya üçün ilkin məlumatlar cədvəldə tərtib edilmişdir. Yüklə Nəzarət Edilən Vəziyyət (LCC) hesablamalarının nəticəsi matlab proqramı vasitəsilə əldə edilmiş simulyasiyadan verilmişdir (şəkil 2). Şəkildən görsəndiyi kimi Xəzər dənizi 300 m dərinlikdə boruların hidrodinamik və digər qüvvələrin təsirindən yerdəyişməsi müxtəli qalınlıqlı borular üçün müxtəlifdir və qalınlıq artdıqca simulyasiya xətlərinin bir-birinə yaxınlaşdığını görürük.

Nəticə

Sualtı boru kəmərlərinin quraşdırılması zamanı hidrodinamik qüvvələrin təsirindən boru kəmərinin nəzarət olunan vəziyyətdən kənara çıxması, yerli bükülmələrin yayılması, ovallaşmanın artması və yerli bükülmələrə çevrilməsi kimi arzuolunmaz hallar ortaya çıxa bilər. Tədqiqatlar göstərir ki, dərin sularda boru kəmərlərinin quraşdırılması zamanı lazım olan hesablamalar müəyyən problemlərlə üzləşdiyindən, onların real simulyasiyasının riyazi modelləşdirilməsi aparılmalıdır. Odur ki, sualtı boru kəmərlərinin quraşdırılması zamanı yüksək dəqiqlikli mühəndis hesablamalara ehtiyac duyulur.

Ədəbiyyat:

Wang, S.H.; Lu, B.B.; Yin, K.D. Financial development, productivity, and high-quality development of the marine economy. Mar. Policy 2021, 130, 104553. [CrossRef]

Peng, D.M.; Yang, Q.; Yang, H.J.; Liu, H.H.; Zhu, Y.G.; Mu, Y.T. Analysis on the relationship between fisheries economic growth and marine environmental pollution in China's coastal regions. Sci. Total Environ. 2020, 713, 136641. [CrossRef] [PubMed]

Cherepovitsyn, A.; Rutenko, E.; Solovyova, V. Sustainable development of oil and gas resources: A system of environmental, socio-economic, and innovation indicators. J. Mar. Sci. Eng. 2021, 9, 1307. [CrossRef]

Wang, Y.; Zhang, Z.K.; Xu, M.H. Evolution pattern of African countries' oil trade under the changing in the global oil market. Energy 2023, 284, 128656. [CrossRef]

Koley, S.; Panduranga, K.; Trivedi, K.; Al-Ragum, A.; Neelamani, S. Numerical and experimental modeling of wave-induced forces on submarine pipeline buried in the soil of different engineering properties. Ocean Eng. 2023, 273, 113941. [CrossRef]

Guo, X.S.; Stoesser, T.; Nian, T.K.; Jia, Y.G.; Liu, X.L. Effect of pipeline surface roughness on peak impact forces caused by hydrodynamic submarine mudflow. Ocean Eng. 2022, 243, 110184. [CrossRef]

Zhang, B.; Gong, R.;Wang, T.;Wang, Z. Causes and treatment measures of submarine pipeline free-spanning. J. Mar. Sci. Eng. 2020, 8, 329. [CrossRef]

DNVGL-ST-F101; Submarine Pipeline Systems. DNV: Oslo, Norway, 2017.

SPECIFIC FEATURES OF CNC+EXTERNAL CIRCULAR PARDAQ MACHINE TOOL CONTROL SYSTEM

Bashirov Isa Rauf

Azerbaijan Technical University

https://orcid.org/0009-0009-9721-1093

beshirov.isa@gmail.com

Rəyçi:

Hüseynov Aqil Həmid oğlu,

Texnika elmləri doktoru, professor

Summary

CNC+ (Computer Numerical Control) external polishing machines play a critical role in modern production processes. These machines are widely used in areas where high precision and reproducibility are required, especially in the metalworking and engineering sectors. One of the main features of CNC+ machines is their control systems. These systems ensure efficient operation of machines and play an important role in expanding their technological capabilities. CNC+ control systems provide automation and optimization of production processes by increasing the functionality of machines.

Keywords: CNC external polishing machine, control systems, features, machining process, CAD software

ТЕХНИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ СИСТЕМЫ УПРАВЛЕНИЯ СТАНКОМ С ЧПУ + ВНЕШНЕЙ КРУГОВОЙ ПОЛИРОВАЛЬНОЙ МАШИНОЙ

Баширов Иса Рауф

Азербайджанский технический университет

https://orcid.org/0009-0009-9721-1093

beshirov.isa@gmail.com

Резюме

Наружно-кругло шлифовальные станки с ЧПУ (числовое программное управление) играют решающую роль в современных производственных процессах. Эти станки широко используются в областях, где требуются высокая точность и воспроизводимость, особенно в машиностроении. Одной из основных особенностей станков с ЧПУ является их системы управления. Эти системы обеспечивают эффективную работу машин и играют важную роль в расширении их технологических возможностей. Системы управления ЧПУ обеспечивают автоматизацию и оптимизацию производственных процессов за счет повышения функциональности станков.

Ключевые слова: станок для наружной полировки с ЧПУ, системы управления, особенности, процесс обработки, программное обеспечение САПР.

CNC+XARİCİ DAİRƏVİ PARDAQ DƏZGAHININ İDARƏETMƏ SİSTEMİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Bəşirov İsa Rauf

Azərbaycan Texniki Universiteti

https://orcid.org/0009-0009-9721-1093

beshirov.isa@gmail.com

Giriş

Bu gün mexaniki emalla məşğul olan demək olar ki, hər bir şirkətin ixtiyarında kompüter rəqəmsal idarəetmə (CNC) dəzgahları RPİ var. CNC dəzgahları ənənəvi dəzgahlarla eyni funksiyaları yerinə yetirir, lakin RPİ dəzgahlarının icra orqanlarının hərəkətləri elektron şəkildə idarə olunur. CNC dəzgahlarından istifadənin əsas üstünlüyü istehsalın avtomatlaşdırılmasının daha yüksək səviyyədə olmasıdır. Bu halda dəzgah operatorunun mexaniki emal prosesinə müdaxiləsi halları minimuma endirilir. CNC dəzgahları davamlı olaraq yüksək keyfiyyətli məhsul istehsal edərək, avtonom şəkildə işləyə bilər. Eyni zamanda, operatorun əsas vəzifəsi əsasən hazırlıq-tamamlama işlərinin yerinə yetirilməsi: detalın yerləşdirilməsi və bərkidilməsi, alətlərin sazlanması və s. Nəticədə bir işçi eyni vaxtda bir neçə dəzgaha xidmət göstərə bilər.

CNC+Xarici dairəvi pardaq dəzgahının idarəetmə sisteminin spesifik xüsusiyyətləri

CNC İdarəetmə Sisteminin Spesifik Xüsusiyyətləri aşağıdakılardan ibarətdir:[1].

Rəqəmsal nəzarət və proqramlaşdırma: CNC xarici dairəvi pardaqlama dəzgahları, dəqiq hərəkətlərin və emal proseslərinin avtomatlaşdırılması üçün rəqəmsal idarəetmə sistemlərindən istifadə edir. Bu idarəetmə sistemləri, xüsusi kodlaşdırılmış proqramlar vasitəsilə işləyir. G-kod və M-kod kimi proqramlaşdırma dilləri, dəzgahın hərəkətlərini, alət dəyişikliklərini və digər mühüm funksiyaları idarə edir. Bu proqramlaşdırma dili universal xarakter daşıdığı üçün müxtəlif CNC dəzgahlarında geniş istifadə imkanlarına malikdir.

Əks əlaqə sistemi (Feedback): CNC idarəetmə sistemləri, dəzgahın nailiyyətlərini optimallaşdırmaq üçün davamlı olaraq əks əlaqə məlumatlarını toplayır. Bu sistemlər, dəzgahın cari vəziyyətini, alətlərin yeyilməsini və iş prosesində meydana gələn sapmaları izləyir. Nəticədə, dəzgah real vaxt rejimində öz əməliyyatlarını tənzimləyə bilir, bu isə məhsuldarlığı artırır və dəzgahın dayanmadan işləməsini təmin edir.

Dinamik avtomatlaşdırma: CNC idarəetmə sistemləri, dəzgahın hərəkətlərini avtomatik olaraq tənzimləmə və optimallaşdırma qabiliyyətinə malikdir. Məsələn, alətin hərəkət trayektoriyasının optimallaşdırılması, iş prosesinin səmərəliliyini artırır və dəzgahın emal sürətini maksimum səviyyəyə çatdırır. Bu xüsusiyyətlər xüsusilə mürəkkəb və yüksək dəqiqlik tələb edən istehsal proseslərində əhəmiyyətlidir.

Avtomatlaşdırılmış alət dəyişdirici və soyutma sistemi: CNC xarici dairəvi pardaqlama dəzgahlarında inteqrasiya olunmuş avtomatlaşdırılmış alət dəyişdirici sistemlər mövcuddur. Bu sistemlər, iş prosesində minimal dayanmalarla müxtəlif alətlərin istifadəsinə imkan verir. Eyni

zamanda, bu dəzgahlar inteqrasiya olunmuş soyutma sistemləri ilə təchiz olunduğu üçün emal zamanı alətlərin qızmasının qarşısı alınır və onların ömrü uzadılır.

CNC dəzgahları yüksək sürətlə və dəqiqliklə işlədiyi üçün emal prosesi zamanı alətlər və pəstah arasında ciddi istilik yaranır. Bu istilik, emal edilən detalın səthinin, alətlərin və materialların keyfiyyətinə mənfi təsir göstərə, həmçinin CNC dəzgahının ümumi performansını aşağı sala bilər. Buna görə də, CNC dəzgahlarında soyutma sistemləri alətlərin yeyilməsinin qarşısını almaq, iş keyfiyyətini artırmaq və dəzgahın ömrünü uzatmaq üçün vacib rol oynayır.

Soyuducu-yağlayıcı Maye Soyutma Sistemləri. CNC dəzgahlarında ən geniş yayılmış soyutma metodlarından biri maye soyutma sistemləridir. Bu sistemlərdə soyutma mayesi (emulsiya və ya yağ əsaslı soyutma mayeləri) alətin və pəstahnın səthinə püskürtülərək istiliyi uzaqlaşdırır və aləti soyudur.[2].

CNC dəzgahlarının dəqiq işləməsi üçün lazım olan bütün detal cizgiləri CAD proqramında hazırlanır və optimallaşdırılır. CAM (Computer-Aided Manufacturing): CAM texnologiyası, CAD proqramlarında yaradılmış cizgilər əsasında CNC dəzgahlarında istehsal həyata keçirir. CAM proqramı, CNC dəzgahı üçün lazımi G-kodları yaradır və bu kodlar vasitəsilə maşının hərəkətləri, alətin hərrəkər trayektoriyaları və emal rejimləri idarə olunur. CAM sistemləri həmçinin istehsal prosesinin optimallaşdırılmasına və avtomatlaşdırılmasına kömək edir. CAD/CAM sistemləri mürəkkəb formaların dəqiq işlənməsini təmin edir. [3]. Dizayn prosesində yaradılmış 2D modellər, CAM proqramları vasitəsilə CNC dəzgahında həyata keçirilir. Bu sistemlər, mürəkkəb konturların və dəqiq həndəsənin CNC dəzgahlarında dəqiqliklə işlənməsini mümkün edir. CAD/CAM inteqrasiyası, dizayn mərhələsindən birbaşa istehsalata keçid prosesini sürətləndirir. Bu inteqrasiya sayəsində, CAD sistemində hazırlanmış 2D model birbaşa CAM proqramına ötürülür və CNC dəzgahı üçün emal kodları avtomatik olaraq yaradılır. Bu, əl ilə proqramlaşdırma ehtiyacını azaldır və prosesin səmərəliliyini artırır. CAD/CAM sistemləri istehsal prosesində keyfiyyətə nəzarət və optimallaşdırma imkanları yaradır. İnteqrasiya olunmuş proqramlar vasitəsilə emal prosesində mümkün olan xətalar əvvəlcədən müəyyən edilə bilir. Bu, xammal israfının qarşısını alır və yüksək keyfiyyətli məhsulların istehsalını təmin edir.[4].

Nəticə

CNC xarici dairəvi pardaqlama dəzgahlarının idarəetmə sistemləri, onların texnoloji imkanlarının genişləndirilməsində, fərdi və kiçik seriyalı istehsalan avtomatlaşdırılmasında və istehsal proseslərinin optimallaşdırılmasında mühüm rol oynayır. CAD/CAM inteqrasiyası və süni intellektin tətbiqi isə bu dəzgahların texnoloji imkanlarını daha da genişləndirir və gələcəkdə istehsal sahəsində yeni imkanlar yaradır. CNC+ idarəetmə sistemlərinin inkişafı və avtomatlaşdırma səviyyəsinin yüksəldilməsi , sənayenin gələcəyində mühüm rol oynayacaqdır.

Ədəbiyyat:

https://www.academia.edu/20869520/Experimental_Investigation_of_Material_Removal_and_Surface_Roughness_during_Optical_Glass_Polishing

https://www.academia.edu/104869260/Effects_of_Different_Polishing_Protocols_and_Curing_Time_on_Surface_Properties_of_a_Bulk_fill_Composite_Resin

https://www.researchgate.net/publication/268408312_Development_of_Metallographic_Specimen_Polishing_Machine

https://www.researchgate.net/publication/350398599_Fundamental_study_on_CNC_polishing_method_with_inner_channel_liquid_supply

AZERBAIJAN RAILWAYS GOING TOWARDS A "GREEN FUTURE"

Mustafayev Kamran Ramiz

İnstitute of Control Systems

https://orcid.org/0009-0000-1762-7457

k.mustafa91@bk.ru

Rəyçi:

Babayeva Tünzalə Məmməd qızı,

Aqrar elmləri üzrə fəlsəfə doktoru, dosent

Summary

One of the priority issues of the 21st century is the creation of an environmentally friendly transport system. In our rapidly changing world, environmental protection and the creation of sustainable transport systems are of great importance. Taking important steps in this field, our state has chosen the development of environmentally friendly railway transport as a priority. The activity of "Azerbaijan Railways" Closed Joint Stock Company constitutes an important part of the country's transport infrastructure, and its presentation as environmentally friendly transport serves to create a healthy environment for future generations. As an environmentally friendly mode of transport, railway transport has great potential for a "green future". In particular, the roads leading to a "green future" are being extended by applying renewable energy sources to the railway industry in our country.

Key words: ecology, transport infrastructure, "green future".

АЗЕРБАЙДЖАНСКИЕ ЖЕЛЕЗНЫЕ ДОРОГИ, ИДУЩИЕ В «ЗЕЛЕНОЕ БУДУЩЕЕ»

Мустафаев Камран Рамиз

Институт систем управления

https://orcid.org/0009-0000-1762-7457

k.mustafa91@bk.ru

Резюме

Одной из приоритетных задач XXI века является создание экологически чистой транспортной системы. В нашем быстро меняющемся мире защита окружающей среды и создание устойчивых транспортных систем имеют большое значение. Делая важные шаги в этой области, наше государство выбрало в качестве приоритета развитие экологически чистого железнодорожного транспорта. Деятельность Закрытое Акционерное Общество "Азербайджанские железные дороги" является важной частью транспортной инфраструктуры страны, а его презентация как экологически чистого транспорта служит созданию здоровой окружающей среды для будущих поколений. Железнодорожный транспорт как экологически чистый вид транспорта имеет большой потенциал для “зеленого будущего”. В частности, путь к “зеленому будущему” протягивается за счет применения возобновляемых источников энергии в железнодорожной отрасли нашей страны.

Ключевые слова: экология, транспортная инфраструктура, «зеленое будущее».

“YAŞIL GƏLƏCƏYƏ” DOĞRU UZANAN AZƏRBAYCAN DƏMİR YOLLARI

Mustafayev Kamran Ramiz

İdarəetmə Sistemləri İnstitutu

https://orcid.org/0009-0000-1762-7457

k.mustafa91@bk.ru

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 fevral 2021-ci il tarixli 2469 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyən edilən beş Milli Prioritetdən biri Azərbaycanın təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi olmasıdır. Bu prioritet daxilində yüksək keyfiyyətli ekoloji mühitə və “yaşıl enerji” məkanına nail olunmaq əsas hədəflərdən sayılır (Qasımlı və b., 2022).

Araşdırmalara görə perspektiv planda nəqliyyat sektoru üzrə yaşıl enerjidən daha çox istifadə edilmə dəmir yollarının payına düşür. Başqa nəqliyyat növləri ilə müqayisədə dəmir yolu ən aşağı karbon qazı (CO_2) emissiyasını və enerji istehlakını yaradan nəqliyyat növüdür. Belə ki, statistikaya görə günümüzdə CO_2 emissiyasının 74 faizi avtomobil nəqliyyatı, 11 faizi aviasiya və dəniz nəqliyyatı, 4 faizi isə dəmiryol nəqliyyatı vasitəsi ilə havaya atılır. Göründüyü kimi, dəmiryol nəqliyyatında iqlim dəyişikliyi başlıca sütun olaraq cəmiyyətdə gündəlik hərəkətliliyi və logistik zəncirləri karbonsuzlaşdırmağın ən sürətli və ən sərfəli yoludur.

Dünya qarşısında duran prioritet məqsədlərdən əsası uzunmüddətli perspektivdə və keçid dövründə enerji sektorunun karbonsuzlaşdırılması və paralel olaraq sıfır emissiyaya nail olunmaqdır. Bu məqsədlə dövlətlər inkişafa doğru gedən yolları araşdırmalı və izləməlidirlər.

Dəmir yolunun dayanıqlılığı, minimal zərərli və yüksək gəlirliliyi, eyni zamanda**,** ən təmiz və yaşıl enerji mühitinə uyğun nəqliyyat növü olaraq gələcək perspektivdə dünya üzrə yük və sərnişindaşımalarının vacib hissəsinə keçiriləcəyi gözlənilir.

Dəmir yolunun yaşıl enerjiyə keçidi ilə bağlı Azərbaycan Dəmir Yollarında edilən islahatlar ətraf mühitə və cəmiyyətə öz mənfi təsirini azalda, həmin nəqliyyat sahəsinin yaşıllaşdırılmasına töhfəsini verə bilər. Dayanıqlılıq “gələcək nəsillərin öz zəruri ehtiyaclarını ödəməsinə xələl gətirmədən indiki ehtiyaclarına cavab verən inkişafından” söhbət açır və bu mənada çıxış edir. Ətraf mühitin yüksək və davamlı inkişafı dünya ölkələrinin əsas məqsədlərindən biri kimi formalaşmışdır.

Ekoloji cəhətdən təmiz və səmərəli nəqliyyat növlərindən biri olan dəmiryol nəqliyyatının karbon emissiyalarının azaldılması, enerji səmərəliliyi, yüksək keyfiyyətli yük və sərnişindaşımaları həcmi, torpağın və su eroziyasının həcminin azaldılması, ictimai nəqliyyatda təhlükəsizlik tədbirlərinin artırılması, alternativ enerji mənbələrindən istifadə edilməsi, səs keçirməyən və zərərli tərəfi və funksiyası olmayan təmiz nəqliyyat olması baxımından üstün cəhətləri mövcuddur. Belə nəqliyyat növü külli miqdarda yük və sərnişin daşımaq qabiliyyətinə malikdir. Bu isə öz növbəsində nəqliyyat növünün səmərəliliyini və məhsuldarlığını artırır, tıxacların qarşısını almağa yardımçı olur.

Dəmiryol nəqliyyatı qədim tarixə və yüksək dəyərlərə malik ənənələrə sahib olmaqla yanaşı, karbon emissiyalarının azaldılması, eyni zamanda, alternativ enerji mənbələrindən (külək, günəş və s.) istifadə üçün böyük və lazımi imkanlar yaratmaqla yanaşı, səs keçirməyən və zərərli tərəfi və funksiyası olmaması ilə diqqəti cəlb edir. Buna görə elektriklə işləyən qatarlar nisbətən çox az səs-küy yaradır və ətraf mühitə zərər vermir. Bu da öz növbəsində şəhərin mərkəzi hissələrinin sıx məskunlaşmış ərazilərdə əhalinin komfortunu və rifahını təmin edir.

Son illərdə Azərbaycanda dəmir yolları sahəsində aparılan məqsədyönlü islahatlar çərçivəsində bu sektorda daha yeni standartlara uyğun texnologiyaların tətbiqi fərəhləndirici haldır. Belə ki, enerji təchizatı sistemlərinin sabit cərəyan növündən dəyişən cərəyan növünə keçirilməsi, işarəverici və rabitə əlaqəsi sisteminin yenilənməsi üçün zəruri avadanlıqların alınması, dəmiryol təsərrüfatının sağlamlaşdırılması və təkmilləşdirilməsi, vaqon və lokomotiv parklarının yenidən modelləşdirilməsi və s. bir sıra vacib tədbirlər aparılıb.

Bu tədbirlər arasında hər bir şəxs üçün məmnunluq və rahatlıq təmin edən İsveçrənin "Stadler Rail Group" şirkətindən alınmış KİSS markalı ikimərtəbəli elektrikli qatarların 12 sentyabr 2015-ci il tarixində Bakı-Sumqayıt istiqaməti üzrə fəaliyyət göstərən marşrut qatarı ilə xəttə buraxılması olub. Dəmiyolu nəqliyyatında qatarların istismarında xidmət səviyyəsinin yüksək keyfiyyətinə zəmanət vermək və yolun səmərəli, təhlükəsiz və rahat şəkildə təmin edilməsi başlıca şərtləndəndir.

Ekoloji və təmiz nəqliyyat sistemi yaratmaq üçün ölkəmiz üzrə dəmiryol şəbəkəsinin elektrikləşdirilməsi prinsipinin artırılması, ölkəmizin enerji siyasətinin və dəmiryol nəqliyyatının müasirləşdirilməsində köklü islahatlar aparılmaqda davam edir.

Belə ki, ötən il açıqlanmış statistik məlumatlara əsasən, ölkəmizin dəmiryol xətlərinin təxminən 60 faizi elektriklə təmin edilmişdir. Bu, dəmir yol xətlərinin ən əsas marşrut istiqamətlərini əhatələməklə bərabər enerji paylanması effektivliyinin yüksəldilməsinə, daşımaların aparılmasına çəkilən xərclərin yüngülləşdirilməsinə və ətraf mühitə nəzərən öz təsirinin minimum səviyyəyə gətirilməsinə nail olunur.

Qeyd etmək lazımdır ki, elektrik sistemi ilə təmin edilmiş dəmir yollarının ən strateji hesab olunan əsas marşrut istiqamətləri arasında Bakı-Sumqayıt, Bakı-Gəncə və Bakı-Ağstafa dəmiryol xətləri yer almaqdadır. Bu marşrutlar yük və sərnişindaşımaları üçün vacib və əhəmiyyətli dəmiryol xətləri hesab edilir. Elektrikləşdirilmiş sistemlə çalışan yeni dəmiryol xətlərinin geniş vüsət alması ilə bağlı zəruri yeni layihələr yaxın perspektiv zamanda elektriklə təmin edilmiş sistemə keçid etmiş yeni dəmir yollarının keyfiyyətinin və xidməti keyfiyyətinin artmasına gətirib çıxaracadır.

Əlavə olaraq, Qarabağ və Şərqi Zəngəzur ərazilərində yeni dəmiryol xətlərinin çəkilişi zamanı, eyni zamanda, Horadiz-Ağbənd dəmiryol xəttinin 85-ci kilometrliyində, Mincivan dəmiryol stansiyasının yaxınlığındakı ərazilərdə, Bərdə-Ağdam dəmiryol xəttnin çəkilməsi layihəsi çərçivəsində ətraf mühitin və ətraf ərazilərin mühafizəsi məsələlərinə böyük diqqət yetirilməklə yanaşı dəmiryol xətti boyunca sözügedən layihələrdə meşə zolağı yaradılıb.

"Yaşıl" relslərə keçid etməklə təkcə ətraf mühit deyil, həm də cəmiyyət və bütövlükdə iqtisadiyyat səmərəli nəticələr əldə edə bilər.

Bir sözlə, Azərbaycan dəmir yolunun "yaşıl" gələcəyi onun beynəlxalq nəqliyyat xidmətləri bazarında mövqeyini gücləndirə bilər.

Ədəbiyyat:

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/46813.

V.Ə.Qasımlı, R.Z Hüseyn, R.F.Hüseynov, R.B.Həsənov, C.R.Cəfərov, A.B.Bayramova, "Yaşıl iqtisadiyyat" Bakı, 2022, "Azprint" nəşriyyatı, 280 səh.

https://baku.ws/social/el-vurma-sabah-sayta-verlecek

https://azertag.az/xeber/azerbaycan_demir_yollarinin_yasil_enerjiye_kechidi-3065182

https://report.az/infrastruktur/temiz-geleceye-uzanan-relsler-azerbaycan-demir-yollarinin-yasillasdirilmasi-yolunda/

https://azertag.az/xeber/azerbaycanin_demiryolu_sisteminde_yasil_gelecek_namine_semereli_isler_gorulur-3064170

IMPROVING THE PRODUCTIVITY OF SHIP FRESH WATER GENERATORS

Haziyev Alihuseyn Rasim

Azerbaijan State Marine Academy

https://orcid.org/0009-0004-6465-4756

alihuseyn.haziyev@asco.az

Rəyçi:

Məmmədov Cavanşir Firudin oğlu,

Texnika elmləri doktoru, professor

Summary

Fresh water generators are auxiliary devices on board ships that produce condensed water called condensate by evaporating seawater in the evaporator and cooling the steam in the condenser. Optimum operation of the fresh water generator is one of the main matter for the ship. At the request of the registry, there should be two fresh water generators on board for technical purposes and to supply consumers with fresh water. The purpose of this work is to find out the causes of problems in the freshwater generator so that it can maintain the freshwater production results. In this thesis, a number of results were obtained by collecting the data obtained during operation. Based on the obtained data, we can see that productivity has decreased from 19 tons to 12 tons per day. This is due to the formation of salt deposits on the evaporator plate so that evaporation is delayed and the low pressure of the seawater going to the condenser causes a decrease in freshwater production. It is recommended that ship mechanics use the recommendations made by collecting, processing and drawing the results in production.

Key words: Fresh water generator, evaporator, low efficiency, fresh water.

ПОВЫШЕНИЕ ЭФФЕКТИВНОСТИ СУДОВЫХ ОПРЕСНИТЕЛЬНЫХ УСТАНОВОК

Газиев Алигусейн Расим

Азербайджанская государственная морская академия

https://orcid.org/0009-0004-6465-4756

alihuseyn.haziyev@asco.az

Резюме

Опреснительные установки являются вспомогательными устройствами на борту судов, которые производят конденсированную воду, называемую конденсатом, путем испарения морской воды в испарителе и охлаждения пара в конденсаторе. Оптимальная работа генератора пресной воды является одним из основных вопросов для судна. По требованию регистра на борту должно быть два генератора пресной воды для технических целей и для снабжения потребителей пресной водой. Целью данной работы является выяснение причин возникновения проблем в генераторе пресной воды, чтобы он мог поддерживать результаты производства пресной воды. В данной диссертации был получен ряд результатов путем сбора данных, полученных в ходе эксплуатации. На основании полученных данных мы видим, что производительность снизилась с 19 тонн до 12 тонн в сутки. Это связано с образованием солевых отложений на пластине испарителя, в результате чего испарение задерживается, а низкое давление морской воды, поступающей в конденсатор, вызывает снижение производства пресной воды. Рекомендуется, чтобы судовые механики использовали рекомендации, сделанные путем сбора, обработки и оформления результатов в производстве.

Ключевые слова: опреснительных установок, испаритель, низкая эффективность, пресная вода

GƏMİ SUŞİRİNLƏŞDİRİCİ QURĞULARIN MƏHSULDARLIĞININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Həziyev Əlihüseyn Rasim

Azərbaycan Dövlət Dəniz Akademiyası

https://orcid.org/0009-0004-6465-4756

alihuseyn.haziyev@asco.az

